

# ANIM GÜNÜ


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI





№ 209 (9088) ÇƏRŞƏNBƏ AXŞAMI, 27 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# Şəhidlərimizi əbədi ehtiramla yad edirik



# Regional təhlükəsizlik məsələləri həmişə bizim münasibətlərimizin gündəliyindədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz çox faydalı və xoş olacaq. Əvvəlki görüşümüzü xatırlayıram. Vaxt sürətlə keçir. Azərbaycana sizin səfərinizdən dörd il keçir. Lakin bu müddətdə parlamentlərarası əlaqələr sürətlə inkişaf edib. Dövlət Duması ilə də, Federasiya Şurası ilə də həm rəhbərlik səviyyəsində, həm də deputatlar səviyyəsində daim əlaqə saxlamışıq. Bu, ölkələrimiz arasında dövlətlərarası münasibətlərin çox mühüm amilidir və bu münasibətlər çox müsbət dinamikaya malikdir. Əlbəttə, dövlət başçıları səviyyəsində müntəzəm görüşlər də dinamizmin saxlanmasına şərait yaradır. Bütövlükdə bizim münasibətlərimizin gündəliyinə fikir versək, o, kifayət qədər genişdir, praktiki olaraq bütün sahələri əhatə edir. Əməkdaşlığımızın o qədər də fəal olmadığı sahələri göstərmək daha asan olar. Ona görə ki, həm siyasi, həm iqtisadi, həm nəqliyyat, energetika və humanitar sahələrdə bütün göstəricilər göz qabağındadır, biz, həqiqətən, yaxşı dinamika görürük. Əsas məsələ nəticəyə hədəflənməkdir. Çünki razılığa gəldiyimiz bütün məsələlər həyata keçirilir. İqtisadi-ticari sahədə, informasiya, kommunikasiya, nəqliyyat və digər sahələrdə səkkiz yol xəritəsi razılaşdırılıb və həyata keçirilir, hər bir istiqamət üzrə qarşıya qoyulmuş məsələlərin yerinə yetirilməsinin dəqiq qrafiki var və icraya nəzarət edilir. Ona görə biz burada yalnız müsbət nəticə olduğunu deyə bilərik. Bir daha qeyd edirəm, nəticələr bizim ümumi səylərimizlə yaranıb, ölkələrimiz üçün və mənim fikrimcə, bütövlükdə region üçün böyük əhəmiyyət kəsb edir. Əlbəttə, regional təhlükəsizlik məsələləri həmişə bizim münasibətlərimizin gündəliyindədir. Biz bu yaxınlarda Səmərqənddə Rusiya Prezidenti ilə görüşümüzdə bu barədə danışmışıq. Əlbəttə, bizim regionda sülh bütün ölkələr, bütün xalqlar üçün zəruridir. Bizim gündəliyimiz kifayət qədər birmənalıdır. Biz dəfələrlə bildirmişik ki, uzunmüddətli və davamlı sülhün, qonşularımızla bağlı bütün problemlərin həllinin və bu regionun 30 il ərzində olduğu ağır vəziyyətdən çıxmasının tərəfdarıyıq.

Bilavasitə sizin sahəyə gəldikdə isə deməliyəm ki, biz həm beynəlxalq strukturlar çərçivəsində, həm də ikitərəfli formatda əlaqələrin davam etdirilməsi niyyətindəyik. Siz öz həmkarınızla görüşəcəksiniz. Fikrimcə, siz də gündəliyi ətraflı nəzərdən keçirəcəksiniz. Bir sözlə, danışmalı məsələlər çoxdur. Ona görə ki, gündəlik, həqiqətən, çox zəngin və nəticəvidir. Məncə, bizim diqqəti cəmləşdirdiyimiz bu əsas istiqamətlər ikitərəfli münasibətin müsbət dinamikasını göstərir.

Bir daha xoş gəlmisiniz. Səfəriniz qısa olsa da, məncə, çox səmərəli olacaq.

Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Sədri **Vyaçeslav VOLODİN** dedi: - Sağ olun, hörmətli cənab Prezident. İlk növbədə təşəkkürümü bildirmək istəyirəm ki, Siz fasiləsiz iş qrafikinizdə bizimlə görüşməyə imkan tapmısınız. Sizə bizim Prezident Vladimir Vladimiroviç Putinin ən xoş sözlərini və dostluq salamlarını çatdırmaqdan başlamaq istəyirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Vyaçeslav VOLODİN:** Münasibətlərimiz çox cəhətdən Sizin və bizim Prezidentimizin sayəsində inkişaf edir. "Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında" Bəyannamə imzalanıb. Bu, həqiqətən, strateji tərəfdaşlıq əsasında əldə edilmiş çox ciddi səviyyədir. Buna görə parlamentlərarası əlaqələri inkişaf etdirməyimiz son dərəcə vacibdir. Biz bu barədə danışmışıq. İş elə gətirib ki, pandemiya, həqiqətən, planlarımızda dəyişiklik edib. Parlamentlərarası qarşılıqlı fəaliyyət barədə danışmalı olsaq, hər halda bu fəaliyyətin əsasını görüşlər, dialoq, kommunikasiya təşkil edir. Əlbəttə, bütün bunlar videokonfrans rabitə rejimində həyata keçirilib. Bu format əsas olub. Lakin bilavasitə söhbət olmasa, münasibətlərin videokonfrans rabitə rejimində olduğu kimi inkişafı barədə danışmaq çətindir. Buna görə də pandemiya ilə bağlı vəziyyət yüngülləşməyə başlayan kimi biz bundan istifadə etdik, həmkarlarımızla razılığa gəldik ki, hökmən görüşək və münasibətlərimizin inkişafı məsələlərini müzakirə edək. Ona görə ki, Rusiya Federasiyasının və Azərbaycan Respublikasının prezidentləri tərəfindən imzalanmış bəyannamədə xüsusi vurğulanır ki, parlamentlərarası əlaqələrimiz inkişaf etdirilməlidir. Buna görə də biz kommunikasiya formatlarını, yeni yanaşmaları müzakirə edəcəyik ki, qanunvericiliyin təminatı məsələlərinin, dövlət başçıları səviyyəsində müzakirə edilən məsələlərin həllinə real töhfə verək.

❖ ❖ ❖

Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidentinin xoş sözlərinə və salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodinlə görüşüb

Sentyabrın 26-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodinlə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə tərəflər arasında təkbətək görüş keçirilib. Görüşdə ölkələrimiz və qanunverici orqanlarımız arasında əlaqələrin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparılıb.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib. Qonağı və onun başçılıq etdiyi nümayəndə heyətini salamlayan Milli Məclisin Sədri bildirib ki, ölkələrimiz arasında 1992-ci ildə diplomatik münasibətlərin qurulmasından ötən 30 il ərzində aktiv siyasi dialoq sayəsində ticarət-iqtisadi, nəqliyyat, energetika, humanitar və digər sahələrdə əlaqələrimiz yüksək səviyyəyə çatıb. Qarşılıqlı münasibətlərin inkişafında dövlət başçıları İlham Əliyevin və Vladimir Putinin qarşılıqlı etibara əsaslanan münasibətləri və mütəmadi görüşləri mühüm rol oynayıb. Bu günədək iki ölkə arasında geniş spektri əhatə edən 250-dən çox dövlətlərarası və hökumətlərarası sənəd imzalanıb. Prezident İlham Əliyevin cari ilin fevralında Rusiya Federasiyasına rəsmi səfəri zamanı imzalanmış Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə isə münasibətlərimizi yeni səviyyəyə qaldırıb. Bu bəyannamə parlamentlərarası əlaqələr də daxil olmaqla, demək olar ki, ölkələrimizin bütün sahələrdəki əməkdaşlığını özündə ehtiva edir.

Spiker Sahibə Qafarova qeyd edib ki, ölkələrimiz arasında mövcud olan iqtisadi münasibətlərin inkişaf dinamikası da qənaətbəxşdir. O cümlədən humanitar sahədə əməkdaşlıq da mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə cari ilin mart ayında Moskvada keçirilmiş Azərbaycan Mədəniyyəti günləri Azərbaycan irsinin tanıdılmasına böyük töhfə oldu.

Söhbət zamanı spiker Sahibə Qafarova ikitərəfli münasibətlərin inkişafında Azərbaycan və Rusiya parlamentlərinin rolunu qeyd edərək, bildirib ki, ölkələrimizin beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığı, Milli Məclis və Federal Məclis arasında daimi ikitərəfli parlamentlərarası komissiyanın mövcudluğu qarşılıqlı münasibətlərimizin yüksək səviyyədə olmasından xəbər verir.

Milli Məclisin Sədri qeyd edib ki, ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafında regionlararası əməkdaşlıq xüsusi rol oynayır. Hazırda Rusiya Federasiyasının 70-dən çox subyektinin müəssisələri Azərbaycanla xarici ticarət sahəsində əməkdaşlıq edir, Rusiyanın 20-yə yaxın regionu ilə ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında müvafiq sazişlər imzalanıb.

Görüşdə Azərbaycanın 44 günlük Vətən müharibəsi ilə torpaqlarını işğaldan azad etməsi, üçtərəfli Bəyannamənin həyata keçirilməsi, Ermənistanın uğursuz təxribatları barədə də fikir mübadiləsi aparılıb. Sahibə Qafarova xatırladıb ki, 2020-ci ildə Azərbaycan öz ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoyub. 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmiz tarixi qələbə qazanıb, ərazi bütövlüyünü bərpa edərək, öz gücü hesabına BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin icrasını təmin edib.

Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan torpaqlarımız işğaldan azad edildikdən dərhal sonra öz vəsaiti hesabına həmin ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlayıb. Azərbaycan regionda sülhün təmin olunması üçün üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Lakin çox təəssüf ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyannamənin tələblərini tam şəkildə yerinə yetirməkdən boyun qaçırır və sülh prosesini pozmağa çalışır. Sahibə Qafarova xüsusilə Ermənistan tərəfindən cari ilin 12 sentyabr tarixində törədilən təxribatları diqqətə çatdıraraq, vurğulayıb ki, bu təxribatların məsuliyyəti Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür. Milli Məclisin Sədri bildirib ki, regionda daimi sülh və sabitliyin təmin edilməsi üçün Ermənistan öz öhdəliklərini yerinə yetirməlidir.

Səmimi görüşə görə təşəkkürünü bildirən Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodin ölkələrimiz arasında əlaqələrin dinamik inkişafından danışıb. O, ticarət, humanitar, təhsil sahələrində əlaqələrin bugünkü vəziyyətindən məmnunluğunu bildirib.

Parlamentlərarası əlaqələrin inkişaf perspektivləri barədə fikirlərini bölüşən Vyaçeslav Volodin iki ölkənin qanunvericilik orqanları arasında münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib. O, "Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında" Bəyannamənin strateji tərəfdaşlıq əsasında əldə edilmiş çox ciddi səviyyə olduğunu qeyd edərək, bu istiqamətdə parlamentlərarası əlaqələrin inkişafının da vacibliyini diqqətə çatdırıb. Vyaçeslav Volodin parlamentlərarası qarşılıqlı fəaliyyətin genişləndirilməsində görüşlərin, dialoqun, kommunikasiyanın mühüm əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı Dumanın Sədri 2020-ci ildə ölkəmizin qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsinə yekun vuran Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladığı üçtərəfli Bəyannamənin həyata keçirilməsi barədə də fikirlərini bölüşüb.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, sədr müavinləri Adil Əliyev, Fəzail İbrahimli, parlamentin komitə sədrləri Səməd Seyidov, Ziyafət Əsgərov, Siyavuş Novruzov, Bəxtiyar Əliyev, Tahir Mirkişili, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, Azərbaycanda rus icmasının sədri, deputat Mixail Zabelin, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, hər iki ölkənin səfirləri Polad Bülbüloğlu, Mixail Boçarnikov və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

İjevsk şəhərindəki 88 saylı məktəbdə atəş nəticəsində uşaqların və yaşlıların həlak olması xəbəri məni dərindən sarsıtdı.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, zərərçəkənlərin hamısına tezliklə sağalmalarını arzu edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2022-ci il*

## "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Media Reyestrinin aparılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, Media Reyestrinin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

4. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi:

4.1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə Media Reyestrinin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsünlər;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2022-ci il*

## Rusiya Dövlət Dumasının Sədri Vyaçeslav Volodin Azərbaycana səfərə gəlib

Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodin sentyabrın 26-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Mili Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodini Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***

## Rusiya Dövlət Dumasının Sədri Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodinin rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 26-da Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra nümayəndə heyəti görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla anaraq, məzarı üzərinə tər güllər qoyub.

Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının nümayəndə heyətinin üzvləri həmçinin Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının nümayəndə heyətini Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Hikmət Hacıyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi ilə görüşüb




Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə görüşüb. AZƏRTAC xəbər verir ki, bu barədə Hikmət Hacıyev tviter hesabında bildirib.

H.Hacıyev və K.Donfrid arasında keçirilmiş görüşdə münasibətlərin normallaşdırılması prosesinin hazırkı vəziyyəti, sülh müqaviləsi, sərhədlərin delimitasiyası və nəqliyyat məsələləri, o cümlədən ikitərəfli strateji əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

# Hikmət Hacıyev və ABŞ-ın müdafiə katibinin siyasi məsələlər üzrə müavini regional təhlükəsizlik məsələlərini müzakirə ediblər



Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Amerika Birləşmiş Ştatlarının (ABŞ) müdafiə katibinin siyasi məsələlər üzrə müavini Kolin Kahl ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Hikmət Hacıyev tviter hesabında bildirib. H.Hacıyev və Kolin Kahl arasında baş tutan görüşdə ikitərəfli əməkdaşlıq, o cümlədən regional təhlükəsizlik məsələləri müzakirə olunub.

# Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri İkinci Fəxri xiyabanı ziyarət ediblər

Sentyabrın 26-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə müsəlman din xadimləri və Azərbaycanda fəaliyyət göstərən pravoslav, katolik, yəhudi dini konfessiyalarının rəhbərləri Vətən müharibəsi şəhidlərinin Anım günü ilə əlaqədar İkinci Fəxri xiyabanı ziyarət ediblər.

Qafqaz Müsəlmanları İdarəsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində həlak olmuş Silahlı Qüvvələrimizin şəhid zabit və əsgərlərinin xatirəsi dini konfessiya rəhbərləri tərəfindən ehtiramla yad edilib. Onların şərəfinə "Qurani-Kərim" tilavət edilib, ruhlarına dualar oxunub, məzarları önünə gül dəstələri düzülüb.

Anım tədbirində çıxış edən Şeyxülislam Allahşükür Paşazadə, Dağ yəhudiləri dini icmasının rəhbəri Melih Yevdayev, Roma Katolik kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete, Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi protoierey Konstantin Pominov, Alban-udi dini icmasının rəhbəri Robert Mobili, Avropa yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski şəhidlərimizin qəhrəmanlıqları, Zəfərimiz uğrunda şücaətləri və Vətənə məhəbbət örnəyindən danışıb, xatirələrini ehtiramla yad edib, ruhları üçün dualar oxuyublar.

Anım günü ilə bağlı Azərbaycanın paytaxtında və bölgələrdəki məscidlərdə, o cümlədən Şuşa və Ağdam məscidlərində şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilir, namazlar qılınır və dualar edilir. Vətən şəhidləri həmçinin ölkəmizdəki kilsə və sinaqoqlarda ehtiramla anılırlar.

Allah şəhidlərimizə rəhmət eləsin!

# Ceyhun Bayramov BMT Baş Assambleyasının 77-ci sessiyasının ümumi müzakirələri çərçivəsində bəyanatla çıxış edib

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasında çıxış edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov sessiyanın ümumi müzakirələri çərçivəsində "Dönüş məqamı: bir-biri ilə əlaqəli çağırışların transformativ həlli yolları" mövzusunda bəyanat səsləndirib. Bəyanatda deyilir:

Cənab Prezident,

Cənab Baş katib,

Zati-aliləri,

Xanımlar və cənablar,

Öncə Zati-aliləri Kasaba Körösini Baş Assambleyanın 77-ci Sessiyasına sədrlik etməyə başlaması münasibətilə təbrik edir və ona olduqca məsuliyyətli vəzifədə uğurlar arzulayıram. Körösi fəaliyyət göstərdiyi müddətdə Azərbaycan Respublikasının tam dəstəyinə arxalana bilər. Həmçinin sədrliyini başa vuran Prezident, Zati-aliləri Abdulla Şahidə ötən il rəhbərliyi zamanı sərf etdiyi böyük əməyinə görə öz təşəkkürümü ifadə etmək istəyirəm.

Xanımlar və cənablar,

Azərbaycan mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqinə verdiyi töhfəsi ilə tanınır. 2008-ci ildə Azərbaycan hökumətinin BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, UNESCO, ICESCO və digər təşkilatlarla birgə başlatdığı "Bakı Prosesi" dialoq və mədəniyyətlərarası əməkdaşlıq üçün standartları və onun gündəliyini müəyyən etmişdir. Mədəniyyətlərarası dialoqun təşviqində "Bakı Prosesi"nin mühüm rolu BMT Baş katibinin hesabatlarında da qeyd olunub.

"Bakı Prosesi"nin uğurlu təcrübəsinə əsaslanaraq, Azərbaycan, BMT-nin Sivilizasiyalar Alyansı və ICESCO ilə birlikdə 2021-ci ilin iyun ayında davamlı sülh, mədəni irsin inkişafı və qorunmasına töhfə vermək məqsədilə "Mədəniyyət üçün Sülh" qlobal çağırışı adlı yeni beynəlxalq təşəbbüsün əsasını qoymuşdur. Bu təşəbbüsün də eyni dərəcədə uğurlu olacağına inanır və bütün ölkələri və beynəlxalq təşkilatları bu layihəyə qoşulmağa dəvət edirik.

Əziz həmkarlar,

Dünya COVID-19 pandemiyasının gətirdiyi ciddi problemlərlə üzləşməkdə davam edir. Peyvəndləmənin miqyasının genişləndirilməsi və dünya əhalisinin yeni reallıqlara uyğunlaşmasının COVID-19 pandemiyasından sonrakı dövr üçün ümidlər yaratmasına baxmayaraq, ciddi problemlər hələ də qalmaqdadır.

Pandemiyanın səbəb olduğu bütün təcili və uzunmüddətli çağırışlar qlobal əməkdaşlıq və həmrəylik üçün hərtərəfli çərçivə təmin edəcək yüksəksəviyyəli siyasi iştirakla dəstəklənən yeni mexanizmləri zəruri edir.

Azərbaycan ilk vaxtlardan etibarən həm milli, həm də Qoşulmama Hərəkatının sədri qismində pandemiyaya qalib gəlmək üçün daha böyük qlobal həmrəyliyin tərəfdarı olmuşdur və bu məqsədlə bir sıra qlobal təşəbbüslər irəli sürmüşdür. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına cavab olaraq BMT Baş Assambleyasının Xüsusi Sessiyasının çağırılması təşəbbüsü BMT-yə üzvlüyün geniş dəstəyini qazanıb. Qoşulmama Hərəkatı adından Azərbaycan, həmçinin üzv dövlətlərin böyük dəstəyi ilə BMT Baş Assambleyası və İnsan Hüquqları Şurasında qəbul edilmiş COVID-19 peyvəndlərinə bərabər, əlverişli, vaxtında və universal əlçatanlığın təmin edilməsinə dair qətnamələri müzakirəyə çıxarıb.

Azərbaycan ölkə daxilində effektiv peyvəndləmə kampaniyası ilə yanaşı, ehtiyacı olan ölkələrə əhəmiyyətli miqdarda COVID-19 peyvəndləri bağışlamışdır. Biz pandemiya ilə mübarizə üçün 80-dən çox ölkəyə beynəlxalq yardım göstərmişik.

Pandemiyanın nəticələrinin aradan qaldırılması istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsi və COVID-19 pandemiyasından sonrakı qlobal bərpa üçün səylərimizin birləşdirilməsinə yönəlmiş fəaliyyətimizi davam etdirəcəyik. Azərbaycan Prezidenti bununla əlaqədar olaraq BMT-nin pandemiyadan sonrakı qlobal bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılması təşəbbüsü ilə çıxış edib və bu, yaxın aylarda Bakıda keçiriləcək COVID-19 pandemiyası ilə mübarizə üzrə Qoşulmama Hərəkatının Təmas Qrupunun qarşıdan gələn Zirvə görüşündə müzakirə olunacaq mövzulardan biri olacaq.

Zati-aliləri,

Müstəqilliyini əldə etdikdən sonra Azərbaycan öz torpağında təhlükəsizlik çağırışları ilə üzləşmiş bir ölkədən qlobal təhlükəsizliyə töhfə verən ölkəyə çevrilərək uzun bir yol keçmişdir. Bu yolda Azərbaycan Birləşmiş Millətlər Təşkilatının güclü və etibarlı tərəfdaşı olub, onu qətiyyətlə dəstəkləyib və onun fəaliyyətinə fəal töhfə verib.

Azərbaycan həm milli imkanları, həm də Qoşulmama Hərəkatının hazırkı sədri kimi sülh və təhlükəsizliyə, beynəlxalq hüquqi nizamın möhkəmləndirilməsinə, dialoqun, qlobal həmrəyliyin və çoxtərəfliliyin gücləndirilməsinə töhfə verməyə davam etməkdə maraqlıdır.

Biz həmçinin qlobal fəaliyyəti canlandırmaq, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və çoxtərəfliliyə kollektiv öhdəliyi nümayiş etdirmək üçün fürsət kimi Gələcəyin Zirvə görüşünü, onun hökumətlərarası danışıqlar yolu ilə əldə edilmiş nəticəsini və Sülh üçün Yeni Gündəliyi gözləyirik.

Azərbaycan BMT-nin Davamlı İnkişaf üzrə 2030-cu il Gündəliyinə tam sadiqdir. Bu məqsədlə biz 2030-cu ilə qədər olan yeni inkişaf strategiyasını işə saldıq; bu strategiya öz növbəsində 2030-cu il gündəliyinə uyğunlaşdırılıb. Son bir ildə Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq baxımından daha da irəliləyib və BMT-nin 2022-ci ilədək Davamlı İnkişaf Hesabatında ilk 50 ölkə sırasında yer alıb. Azərbaycan ECOSOC-un himayəsi altında keçirilən Yüksək Səviyyəli Siyasi Forumda üç Könüllü Milli İcmal təqdim edən 12 ölkə arasındadır.

Yaşıl və dairəvi iqtisadiyyata keçid etmək üçün iqtisadiyyatımızın yenidən qurulmasında transformasiya xarakterli dəyişiklikləri davam etdiririk. Təmiz ətraf mühit və yaşıl inkişaf yeni milli inkişaf strategiyamızın beş prioritet sahəsindən biri kimi müəyyən edilmişdir. İqtisadiyyatımızda neft-qaz sektorunun mühüm rol oynamasına baxmayaraq, bu keçid inkişaf gündəmimizdə yüksək yer tutur. Məhz bu xüsusda 2022-ci ilin birinci yarısında Azərbaycanın qeyri-neft sektoru 11 faiz artaraq ÜDM-in 7,2 faiz artmasına təkan verib.

Hazırda Azərbaycan beynəlxalq bazarlara etibarlı karbohidrogen ixracatçısı olmaqla yanaşı, davamlı enerjini inkişaf gündəliyinə tədricən daxil edən nadir ölkələrdən biridir. Bununla əlaqədar olaraq biz o cümlədən alternativ və bərpaolunan enerjinin yeni elementlərini tətbiq etməklə profilimizi artıracağıq. Bu yaxınlarda imzalanmış Aİ-Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair memorandum Azərbaycanın qlobal enerji təhlükəsizliyinə konstruktiv töhfəsinin yaxşı nümunəsidir.

Davamlılıq həmçinin işğaldan azad edilmiş ərazilərdə münaqişədən sonrakı yenidənqurma və reabilitasiya fəaliyyətlərində də əsas istiqamətə çevrilmişdir. Müasir şəhərsalma üsulları, "ağıllı şəhər" və "ağıllı kənd" anlayışları tətbiq edilməklə indi sıfırdan yeni şəhər və kəndlər salınır. Müharibədən sonra artıq dövlət büdcəsindən bu məqsədlər üçün 3 milyard ABŞ dolları ayrılıb və Azərbaycan gələcəkdə daha çox sərmayə qoymaqda maraqlıdır. Azad edilən ərazi "yaşıl enerji zonası" elan edilib.

"Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan yüksəlişdə olan tranzit ölkədir. Azərbaycan ərazisindənkeçən dəhlizlər və marşrutlar yüksəksəviyyəli infrastruktur və sürətli, təhlükəsiz tranzit trafiki baxımından nəqliyyat operatorları və biznes subyektləri üçün rəqabət üstünlükləri təklif edir.

Xanımlar və cənablar,

Bu il Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatına üzvlüyünün 30 ili tamam olur. Azərbaycan BMT ailəsinin bir hissəsi olduqdan sonra BMT Nizamnaməsinin və beynəlxalq hüququn prinsip və məqsədlərinə möhkəm sadiqliyini ardıcıl olaraq nümayiş etdirib.

Biz Azərbaycan ilə bağlı BMT-nin müdafiə etdiyi prinsiplər kobud şəkildə pozulduğu zaman BMT-yə daxil olduq. Həmin çətin anlarda BMT Nizamnaməsində təsbit olunmuş əsas dəyərlərin müdafiəsində Azərbaycanın yanında olub.

Azərbaycan 1990-cı illərin əvvəllərində Ermənistanın əsasını ərazi iddiaları, beynəlxalq hüququn yanlış şərhi, uydurma tarixi hekayələr və irqçi motivlər təşkil edən təcavüzündən ciddi zərər çəkib. Hələ o zaman BMT-nin Təhlükəsizlik Şurası yekdilliklə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına öz dəstəyini ifadə etmiş və bütün işğalçı qüvvələrin Azərbaycan ərazilərindən çıxarılmasını tələb etmişdi. Baş Assambleya da belə etdi.



Təcavüz zamanı Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib. 20 min azərbaycanlı qətlə yetirilib, 1 milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Həm mülki, həm də hərbçi olmaqla itkin düşmüş 4000-ə yaxın Azərbaycan vətəndaşının taleyi hələ də qeyri-müəyyəndir.

Ermənistan Azərbaycanın ətraf mühitinə uzunmüddətli zərər vurub. Həmçinin Azərbaycanın minlərlə mədəni irs nümunəsi Ermənistan tərəfindən dağıdılıb, talan edilib və ya mənimsənilib. Bu ilin əvvəlində ICESCO Azərbaycana işğaldan azad edilmiş ərazilərində Mədəni İrsin Mühafizəsi Vəziyyətinin Qiymətləndirilməsini həyata keçirmək üçün texniki missiya göndərib. Onilliklər ərzində Azərbaycan Ermənistanı regionda mədəni irsin qorunması və mühafizəsi üzrə qiymətləndirmə və məsləhətlər vermək üçün müstəqil, şəffaf UNESCO missiyasını dəstəkləməyə çağırıb. Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğalı 2020-ci ildə başa çatsa da, hələ də UNESCO-nun missiyası gəlməyib və mən bir daha belə bir missiyanın həyata keçirilməsinə açıq şəkildə çağırıram.

Pozuntuların və dağıntıların miqyası azərbaycanlı mülki şəxsləri terrora məruz qoymaq, qətlə yetirmək və qovmaq, Azərbaycanın bütün izlərini bu ərazilərdən silmək kimi aydın niyyət və məqsədin olduğunu nümayiş etdirir.

Təxminən 30 il ərzində etnik təmizləmə həyata keçirən Ermənistan azərbaycanlıların geri qayıtmasının qarşısını almaq və bu ərazilərin ilhaqını təmin etmək məqsədi ilə beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq, Ermənistandan və üçüncü ölkələrdən erməniləri kütləvi şəkildə Azərbaycanın işğal olunmuş ərazilərinə köçürməklə qanunsuz məskunlaşma siyasətini həyata keçirib.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) himayəsi altında münaqişələrin həlli səyləri heç bir nəticə verməyib.

Təxminən 30 il ötdükdən sonra, 2020-ci ilin payızında Azərbaycan Ermənistanın növbəti irimiqyaslı hərbi təxribatına cavab olaraq və BMT Nizamnaməsi ilə üzv dövlətlərə verilən ayrılmaz hüquqları rəhbər tutaraq əks-hücum əməliyyatına başlayıb. Nəticədə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-ci il noyabrın 10-da imzaladığı üçtərəfli Bəyanata uyğun olaraq, Azərbaycan öz ərazilərini işğaldan azad edib və üç onillikdən bəri davam edən silahlı münaqişə hərbi-siyasi yolla həll edilib.

Üçtərəfli Bəyanat Ermənistan və Azərbaycan arasında bütün hərbi fəaliyyətlərin başa çatdığını elan etdi. O, regionda sülhün möhkəmləndirilməsi üçün bütün erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən tamamilə çıxarılması, məcburi köçkünlərin geri qaytarılması və regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılması kimi parametrləri müəyyən etdi.

İndi Azərbaycan işğaldan azad edilmiş ərazilərində misli görünməmiş bərpa və yenidənqurma fəaliyyətlərinə başlayıb və onların tam reinteqrasiyası prioritet təşkil edir. Bu cür fəaliyyətlərin məqsədi nəhayət, yüz minlərlə məcburi köçkünün təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmasına və münaqişənin təsirinə məruz qalmış ərazilərdə dinc həyatı təmin etməyə imkan yaratmaqdır. Bu günlərdə Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə ilk ailələr qayıdıblar.

Azərbaycan etnik, dini və ya hər hansı digər mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları ilə eyni hüquq və azadlıqları təmin etməklə, münaqişənin təsirinə məruz qalmış ərazilərdə yaşayan erməni əsilli vətəndaşlarını da öz siyasi, sosial, iqtisadi məkanına yenidən inteqrasiya etməkdə qətiyyətlidir. Azərbaycan Respublikasının Konstitusiyası bununla bağlı möhkəm hüquqi bazanı təmin edir.

Davam edən bərpa və yenidənqurma işlərinə və məcburi köçkünlərin təhlükəsiz geri qayıtmasına əsas maneələrdən biri işğaldan azad edilmiş ərazilərin mina və digər partlayıcı qurğularla kütləvi şəkildə çirklənməsi və Ermənistanın minalanmış ərazilər haqqında dəqiq və dolğun məlumat verməkdən davamlı imtina etməsidir. Ermənistan işğalın davam etdiyi illər ərzində və Azərbaycan ərazilərindən öz qüvvələrini çıxararkən həmin əraziləri ağır və fərq qoymadan mina və digər partlayıcı maddələr ilə çirkləndirmişdir. Üçtərəfli Bəyanatın imzalanmasından indiyədək mina partlayışları nəticəsində 240-dan çox Azərbaycan vətəndaşı və hərbçisi həlak olub və ya ağır yaralanıb.

Azərbaycanın minalarla mübarizədə milli imkanlarını və səylərini daha da gücləndirmək və artırmaq üçün məqsədyönlü və davamlı beynəlxalq texniki və maliyyə yardımı ilə yanaşı, mina sahələrinin xəritələrinin əldə edilməsi də insanların həyatını xilas etmək və sülhü möhkəmləndirmək baxımından çox vacibdir. Bu xüsusda, BMT-nin davamlı dəstəyi, adekvat və proqnozlaşdırıla bilən mina fəaliyyətinin maliyyələşdirilməsi zəruridir.

Zati-aliləri,

Azərbaycan regional sülh, sabitlik və inkişafa sadiqdir. Ermənistan və Azərbaycan arasında mehriban qonşuluq münasibətlərinin qurulması tamhüquqlu regional normallaşma yolu ilə təhlükəsiz, sabit və firavan Cənubi Qafqazın qurulmasının açarıdır.

Azərbaycan işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparmaq və münaqişədən zərər çəkmiş ərazilərdə sakinlərin reinteqrasiyasını həyata keçirməklə yanaşı, bir-birinin ərazi bütövlüyü və suverenliyini qarşılıqlı əsasda tanıma və hörmət əsasında Ermənistan ilə dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinə start verib.

Azərbaycan dəfələrlə Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlara başlamağa hazır olduğunu bəyan edib və bu məqsədlə öz milli nümayəndə heyətini yaradıb.

Eyni zamanda Azərbaycan, Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası prosesinin başlanması, nəqliyyat və kommunikasiya əlaqələrinin açılması, o cümlədən beynəlxalq nəqliyyat şəbəkəsinin tərkib hissəsi olan Zəngəzur dəhlizinin yaradılması istiqamətində səylər göstərmişdir.

Son aylar ərzində Ermənistan və Azərbaycan arasında birbaşa dialoq da daxil olmaqla təmaslarda dinamikanın artmasına baxmayaraq, Ermənistan, görünür, danışıqların imitasiyasına dair keçmiş təcrübəsinə sadiq qalır və öhdəliklərini vicdanla yerinə yetirmək əvəzinə, tez-tez təxribatlara əl atır, gərginlik yaradır və Azərbaycanla davam edən normallaşma prosesinə xələl gətirir.

10 noyabr tarixli üçtərəfli Bəyanatda nəzərdə tutulduğu kimi, Ermənistan silahlı qüvvələrini Azərbaycan ərazilərindən tam olaraq çıxarmayıb və Azərbaycan ərazilərində müxtəlif hərbi fəaliyyətləri, o cümlədən minaların yerləşdirilməsini davam etdirir. Son zamanlar Azərbaycanın Laçın rayonunda 2021-ci ildə Ermənistanda istehsal edilmiş çoxlu sayda piyada əleyhinə minalar aşkar edilib.

Ermənistan bir sıra siyasi və hərbi təxribatlardan sonra, xüsusən də iki ölkə liderlərinin dördüncü Brüssel görüşündən sonra sentyabrın 12-dən 13-nə keçən gecə şərti dövlət sərhədi xətti boyunca gecə vaxtı və mürəkkəb relyefdən istifadə edərək Azərbaycanın hərbi mövqeləri arasındakı yollarda mina yerləşdirərək növbəti irimiqyaslı hərbi təxribata əl atıb.

Daha sonra Ermənistan müxtəlif çaplı silahlardan istifadə edərək Azərbaycan mövqelərini atəşə tutmuşdur ki, bu da Azərbaycan hərbi qulluqçuları arasında itkilərə səbəb olmuş, hərbi infrastrukturuna xeyli ziyan vurmuşdur.

Azərbaycan öz suverenliyinə və ərazi bütövlüyünə qarşı təhlükənin neytrallaşdırılması, şəxsi heyətin, eləcə də ərazidə yenidənqurma işlərində iştirak edən mülki heyətin təhlükəsizliyinin təmin edilməsi üçün adekvat tədbirlər həyata keçirib. Azərbaycan Silahlı Qüvvələri son dərəcə təmkin və peşəkarlıq nümayiş etdirərək, Azərbaycan mövqelərinə hücumların qarşısını almaq üçün yalnız Ermənistanın atəş nöqtələrini yüksək dəqiqlikli silahlarla hədəfə alıb.

Ermənistan açıq şəkildə beynəlxalq ictimaiyyətin diqqətini manipulyasiya etmək üçün gərginliyin daha da artmasına cəhd edib. Belə ki, sentyabrın 13-də Ermənistan razılaşdırılmış atəşkəsə məhəl qoymayaraq Azərbaycan ərazisini yüksək çaplı silah və artilleriyadan atəşə tutmağa davam edib. Nəticədə Azərbaycan tərəfində 80 hərbçi həlak olmuş, 282 hərbçi və 2 mülki şəxs yaralanmışdır.

Ermənistanın bu cür təhlükəli hərəkətlərinə zidd olaraq Azərbaycan son dərəcə təmkinli davranıb, müvafiq beynəlxalq tərəfdaşlarla təmaslar da daxil olmaqla bir sıra addımlar atıb, atəşkəs rejiminin bərpası üçün xoş niyyət və həqiqi iradə nümayiş etdirib.

Nəhayət, atəşkəs Ermənistan və Azərbaycan arasında birbaşa rabitə kanalları vasitəsilə sentyabrın 14-də saat 20:00-dan etibarən bərpa edilib və hər iki tərəfin də təsdiq etdiyi kimi, atəşkəs davam etdirilir.

Gərginlikdən sonra Azərbaycan humanitar nəticələrin aradan qaldırılması ilə məşğuldur və bu kontekstdə birtərəfli qaydada həlak olmuş hərbi qulluqçuların qalıqlarını Ermənistana qaytarmağa hazır olduğunu bəyan edib və bununla bağlı BQXK-nı məlumatlandırıb.

Azərbaycan gərginliyin mövcudluğunda maraqlı deyil və ola da bilməz. Əslində, son hərbi əməliyyatlar münaqişədən sonra irimiqyaslı investisiya, reabilitasiya və yenidənqurma layihələrinin həyata keçirildiyi ərazilərə yaxın yerdə baş verib.

Bundan əlavə, son gərginlik Ermənistandan son 30 ildə müşahidə etdiyimiz nümunəyə çox uyğun gəlir. Ermənistan hər dəfə sıçrayışa nail olmaq üçün həlledici mərhələdə lazımi qərarlar qəbul etmək məsuliyyətindən yaxa qurtarmaq vasitəsi kimi analoji ciddi təxribata əl atırdı.

Biz arzu edərdik ki, Ermənistanın indiki rəhbərliyi öz sələflərinin regionda sülh və təhlükəsizlik imkanları pəncərəsini bir daha qəsdən bağlamaq yolu ilə getməsin.

Azərbaycan öz suverenliyinə və ərazi bütövlüyünə, eləcə də vətəndaşlarının təhlükəsizliyinə qarşı hər hansı təhlükəni dəf etməkdə qətiyyətlidir və Ermənistanı vəziyyəti daha da gərginləşdirməkdən çəkinməyə çağırır. Əvəzində Ermənistan mehriban qonşuluq münasibətlərinin qurulması yolu ilə regionda proqnozlaşdırıla bilən sabit vəziyyət yaratmaq üçün davam edən normallaşma prosesinə konstruktiv şəkildə qoşulmalıdır.

Bu kontekstdə Azərbaycan və Ermənistan liderlərinin 2022-ci il avqustun 31-də Brüsseldə Aİ Şurasının sədri ilə keçirilən dördüncü görüşündə əldə olunan razılığa əsasən, Azərbaycan təxirə salmadan Ermənistana sülh müqaviləsi üzrə praktiki işə başlamağa hazır olduğunu bir daha bəyan edib. Görüşdən dərhal sonra biz Ermənistana belə danışıqlar üçün konkret tarix və məkan təklif etdik.

İki gün əvvəl biz Ermənistan baş nazirinin burada səsləndirdiyi bəyanatı dinlədik. Təəssüflər olsun ki, bu, erməni tərəfinin normallaşma əvəzinə qarşıdurmanı davam etdirməyə niyyətli olduğunu nümayiş etdirən növbəti bir sübut oldu. Azərbaycanda biz hesab edirik ki, regionumuz kifayət qədər qarşıdurma, dağıntılar və iztirablar görüb. Hər iki xalqın münaqişədən sonrakı normallaşmaya tam şəkildə qoşulmasının vaxtıdır, beləliklə, nəhayət, tariximizin faciəli səhifəsini çevirib uşaqlarımız üçün daha yaxşı gələcək qurmağa başlaya bilərik. Azərbaycan tərəfi öhdəliklərinə sadiqdir. Ümid edirik ki, Ermənistan nəhayət konstruktiv şəkildə qarşılıq verəcək və danışıqlara səmimi şəkildə qoşulacaq.

Zati-aliləri,

Ərazilərini uzunmüddətli xarici hərbi işğaldan azad edən Azərbaycan onların mümkün olan ən yüksək standartlara uyğun olaraq tam şəkildə yenidən qurulması və yenidən inteqrasiyası istiqamətində səylərini əsirgəməməkdə əzmlidir. Eyni zamanda ölkəmiz istər qlobal enerji təhlükəsizliyinə töhfə vermək, COVID-19 pandemiyasına qarşı mübarizəyə kömək etmək, istərsə də davamlı inkişafı təşviq etmək olsun, bütün müvafiq sahələrdə beynəlxalq birliyin məsul üzvü rolunu oynamağa davam edəcək. Biz inanırıq ki, qloballaşan dünyada heç bir ölkə ada deyil və biz buna uyğun hərəkət edirik.

**Tarix bəşəriyyətin keçdiyi yolu əks etdirən xəzinədir, xalqların ictimai-siyasi yaddaşı isə onların müqəddəratını həll edən, tarixi sınaqlardan şərəflə çıxmasına zəmin yaradan milli sərvətdir. Bu reallıq fonunda xalqların azadlıq, istiqlal, ədalət uğrunda mübarizəsi isə ayrı-ayrı qəhrəmanlıq nümunələrini özündə əks etdirən tarixi salnamələrdir. Vətən uğrunda milli mücadilələr forma etibarilə bir-birinə bənzəsələr də və ya bir-birindən fərqlənsələr də, məqsəd və mahiyyət eynidir: dövlətin maraqlarını, xalqın mənafeyini qorumaq, tarixi ədaləti bərpa etmək.**




# İlham ƏLİYEV: "Şəhidlər bizim qəlbimizdə əbədi yaşayacaq"

Çoxəsrlik tarixə malik olan Azərbaycan xalqı da müxtəlif dövrlərdə öz milli kimliyini, mənəvi-siyasi iradəsini ortaya qoyaraq şanlı və şərəfli mübarizə nümunələri yaradıb. Bir çox örnək sadalana bilər, amma bu xüsusda zirvə hadisəsi, heç şübhəsiz, milli qürur və iftixar mənbəyi, qəhrəmanlıq və məğrurluq rəmzi, həmrəylik nümunəsi olan tarixi Zəfər - Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbədir.

Ermənistanın təcavüzkar siyasətinə göz yuman bir sıra güc mərkəzlərinin ikili standartlar siyasətinə, beynəlxalq təşkilatların selektiv yanaşmasına, mürəkkəb geostrateji şərtlərə və şəraitə baxmayaraq, Azərbaycan xalqı torpaqlarımızın işğal faktı ilə barışmadı, inamını itirmədi, 30 ilə yaxın müddət ərzində haqq-ədalət mübarizəsini davam etdirdi və Qələbəyə kökləndi. Çünki xalqa arxalanaraq Azərbaycan dövlətini Zəfərə aparan liderlər - Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev tarixin mühüm anlarında və taleyüklü məqamlarında ölkəni çətin sınaqlardan çıxarmaqla, parlaq nailiyyətlərə imza atmaqla bu güvəni - Qələbə inamını yaratdılar. "Münaqişənin hərbi yolla həlli yoxdur" deyənlər, Azərbaycanın təcavüzkar siyasətə - işğal və separatizm faktına dözəcəyini düşünənlər yanıldılar - Ümummilli Lider Heydər Əliyevin və Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətənin bütövlüyünü, tarixi ədaləti bərpa etmək uğrunda haqq mübarizəsini şərəflə, ləyaqətlə və qətiyyətlə aparan Azərbaycan xalqı iradəsini ortaya qoydu, sözünü dedi, gücünü göstərdi və haqq savaşında məqsədinə nail oldu.

İki il öncə - 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın təcavüzkar silahlı qüvvələrinin növbəti təxribatına şanlı Azərbaycan Ordusu əks-hücum əməliyyatı ilə cavab verdi, 30 illik işğala son qoymaq üçün 44 gün davam edəcək Zəfər yürüşünə başladı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev qətiyyətli mövqe sərgiləyərək və güclü siyasi iradə ifadə edərək xalqımıza müraciət etdi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Beynəlxalq hüquq normalarına, BMT Nizamnaməsinin 51-ci maddəsinə əsaslanaraq əks-hücum əməliyyatlarını müvəffəqiyyətlə həyata keçirən müasir və qüdrətli Azərbaycan Ordusu işğalçı hərbi birləşmələrə sarsıdıcı zərbələr endirdi, ard-arda yaşayış məntəqələrimizi, strateji yüksəklikləri azad etdi, bununla da adını tarixə əbədi həkk etdirdi. 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında işğaldan azad edən Silahlı Qüvvələrimiz daha bir tarixi missiyasını müvəffəqiyyətlə yerinə yetirdi. Noyabrın 8-də əzəli və əbədi Azərbaycan torpağı - dünyanın mədəniyyət incilərindən olan qədim Şuşa şəhəri Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitlərinin xüsusi məharəti, böyük şücaəti və nümunəvi rəşadəti, Prezident İlham Əliyevin qətiyyəti sayəsində 28 illik hərbi-siyasi əsarətdən xilas edildi. Xüsusi qeyd etmək lazımdır ki, Müzəffər Ali Baş Komandanımızın Şuşanın işğaldan azad olunması barədə müjdəni məhz Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı verməsi Vətənin bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna ali ehtiram nümunəsi idi. Prezident İlham Əliyev qeyd etmişdi: "... Bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq".

Prezident İlham Əliyev məğrur Sərkərdə, qətiyyətli Lider, Müzəffər Ali Baş Komandan və tarixi şəxsiyyət kimi həm Azərbaycan xalqına verdiyi vədi, həm də ata vəsiyyətini layiqincə - qürurla və şərəflə yerinə yetirmək iftixarına nail oldu, millətimizin Qələbə zirvəsinə - Zəfər məqamına yüksəlməsinə müvəffəq olmaq xoşbəxtliyini yaşadı və yaşatdı. Xalqa müraciətində Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışan Müzəffər Ali Baş Komandan "Mən bu gün eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!" , - deyə vurğuladı.

Döyüş meydanında tarix yazan Azərbaycan Ordusunun Şuşanın qurtuluşundan bir gün sonra daha 70-dən artıq yaşayış məntəqəsini işğaldan azad etməsinin ardından Ermənistanın təslimçilik mövqeyindən çıxış etməsi və onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalaması Azərbaycanın qələbəsinin siyasi-hüquqi təsdiqi oldu. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları bəyanata əsasən üzərinə bir sıra öhdəliklər götürən işğalçı dövlətin sonradan Ağdam, Kəlbəcər və Laçın rayonlarını tərk etməsi Azərbaycanın hərb meydanında qazandığı möhtəşəm qələbənin diplomatiya müstəvisində davamı olmaqla Zəfər tariximizin ən mühüm və parlaq səhifələrindən birinə çevrildi. Bütün cəbhələrdə - istər hərb meydanında, istər diplomatiya müstəvisində, istərsə də informasiya platformasında tarixi qələbənin memarı - müəllifi olan İlham Əliyev qürurla bəyan etdi: "Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü və milli ləyaqətimizi bərpa etdik".

Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etməklə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. Son 200 illik tariximizdə bənzəri olmayan böyük Qələbə təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin deyil, eyni zamanda milli qürurun bərpasının təzahürüdür. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi: "Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniliyi və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti həyata keçirmək istəyirdilər. Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu".

Heç şübhəsiz, qələbə zirvəsinə aparan Zəfər yolunun 30 ilə yaxın müddətdə hərbi-strateji və mənəvi-siyasi cəhətdən inşası uzunmüddətli proses kimi böyük əzm və mübarizə, xalq-iqtidar birliyini və iqtisadi inkişafı, resursları vahid məqsədə yönəltmək üçün uğurlu siyasət, güclü iradə və qətiyyət tələb edirdi. Ona görə də mürəkkəb geosiyasi şəraitdə, dünya siyasətində toqquşan və kəsişən strateji maraqlar fonunda Azərbaycanın torpaqlarının işğaldan azad etməsinə müvəffəq olması sadə və sıradan məsələ deyil. Bu gün qürurla və iftixarla qeyd edirik ki, torpaqlarımız döyüş meydanında Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun işğalçıları darmadağın edərək layiqincə cəzalandırması nəticəsində azad olunub. Bu, XXI əsrin müharibəsini aparan Azərbaycan Silahlı Qüvvələrinin gücünü, əzmini və peşəkarlığını əks etdirən çox mühüm faktdır. Eyni zamanda onu da xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi müstəqillik illərində milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara müvafiq olaraq aparılan strateji kursun real - məntiqi nəticəsidir.

Əvvəla qeyd etmək lazımdır ki, Ümummilli Lider Heydər Əliyevin siyasətini dövrün tələblərinə uyğun olaraq keyfiyyətcə yeni müstəvidə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə atılan addımlar, həyata keçirilən tədbirlər Azərbaycanın milli gücünün artmasını, strateji hədəflərə və qələbəyə doğru əmin addımlarla irəliləməsini təmin etdi. Xüsusilə də dövlət başçısının inkişafa, intibaha, tərəqqiyə və qələbəyə hədəflənən siyasəti sayəsində Azərbaycanın iqtisadi müstəqilliyi təmin edildi, ölkənin maliyyə imkanları, regional və beynəlxalq təsir mexanizmləri genişləndi. Yəni güclü iqtisadiyyat quruculuğu, iqtisadi inkişaf bizi tarixi Zəfərə aparan çox mühüm - həlledici amillərdən biri oldu. Dövlət başçısının qeyd etdiyi kimi, əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı.

İqtisadi müstəqilliyin və milli inkişafın təmin olunmasına paralel olaraq modern ordu quruculuğu strategiyasının müvəffəqiyyətlə icra edilməsi, müasir standartlar və yeni yanaşmalar əsasında Silahlı Qüvvələrin döyüş qabiliyyətinin, hərbi hazırlıq səviyyəsinin artırılması, maddi-texniki təchizatının gücləndirilməsi Azərbaycanın öz suverenliyini döyüş meydanında - hərb müstəvisində təmin etməsini mümkünləşdirdi.

Azərbaycan eyni zamanda hədəfinə - ərazi bütövlüyünün bərpasına doğru hücum xarakterli, dərin strateji diplomatiya siyasəti həyata keçirməklə irəlilədi. Müasir beynəlxalq münasibətlər sistemində güclü dostluq və tərəfdaşlıq əlaqələrinin formalaşdırılması, sürətli yüksəlişin təmin edilməsi haqq işində qətiyyətli və birmənalı mənəvi-siyasi dəstək qazanılması baxımından xüsusi əhəmiyyətə malik oldu. Qərəzli dairələrin məkrli planlarının iflasa uğradılması, beynəlxalq təşkilatlarda ərazi bütövlüyümüzün dəstəkləndiyi qərar və qətnamələrin qəbuluna nail olunması münaqişənin həlli istiqamətində ölkəmizin haqlı mövqeyinin möhkəmlənməsinə şərait yaratdı.

Hücum diplomatiyasının tərkib hissəsi kimi uğurlu informasiya strategiyasının tətbiq olunması, bir sıra mərkəzlərin Azərbaycana qarşı qara piar kampaniyasının fiaskoya uğradılması da siyasi-strateji hədəflərimizi şərtləndirən və təsir imkanlarımızı artıran çox önəmli faktora çevrildi. Xüsusilə Vətən müharibəsi zamanı Prezident İlham Əliyevin 30-dan çox xarici kütləvi informasiya vasitələrinə müsahibələr verərək reallıqları - Azərbaycanın haqlı mövqeyini, ədalətli yanaşmasını, Ermənistanın müharibə cinayətlərini, siyasi sabotajlarını, regional və beynəlxalq güclərin münaqişəyə dair yanaşmalarının mahiyyətini diqqətə çatdırması ölkəmizə mühüm siyasi-diplomatik üstünlüklər qazandırdı, beynəlxalq ictimai rəyin Azərbaycanın lehinə formalaşmasını təmin etdi. Bir sözlə, Liderin prinsipial mövqeyi - güclü siyasi iradəsi, xalqın dövlətə, Ali Baş Komandana, Orduya qətiyyətli dəstəyi bütün təhdid və təzyiq cəhdlərinin qarşısının alınmasını şərtləndirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev bu məqamlara toxunaraq "… bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi", - deyə vurğulayıb.

Azərbaycanın təntənəli Zəfər yürüşünün uğurlu və möhtəşəm olmasını təmin edən ən mühüm amillərdən biri milli həmrəylikdir. Xalqımızın birliyi müstəsna amil kimi tariximizin müxtəlif dönəmlərində - taleyüklü məqamlarda öz sözünü deyib. Hələ 2016-cı ildə Aprel döyüşləri və 2018-ci ildə Günnüt əməliyyatı zamanı, 2020-ci ilin iyul ayında dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın təxribatlar törətdiyi vaxt Azərbaycan xalqı, xüsusilə də gənclər Ali Baş Komandanımıza, dövlətimizə və ordumuza birmənalı dəstəklərini ifadə etmişdilər. Eyni zamanda İkinci Qarabağ müharibəsində vahid yumruq kimi birləşən xalqımız həmrəylik nümunəsi ortaya qoyaraq ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda böyük fədakarlıq nümayiş etdirdi. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü naminə aparılan haqlı və şərəfli mübarizədə böyük şücaət, rəşadət və cəsarət göstərərək tarix yazan əsgər və zabitlərimiz, arxa cəbhədə öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən mülki şəxslər, bütövlükdə dünya azərbaycanlıları əzm və iradə, vahid yumruq kimi birlik nümayiş etdirərək Qələbəmizə müstəsna töhfə verdilər. Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların respublikanın ərazi bütövlüyünün təmin olunması məsələsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin prinsipial siyasətinə qətiyyətli dəstək göstərmələri isə milli həmrəyliyin daha bir bariz nümunəsi idi. 44 günlük Zəfər yürüşünün nəticəsi olan möhtəşəm Qələbə Azərbaycan dövlətinin gücünü, xalqımızın isə mübarizə əzmini, sarsılmaz birliyini bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Biz ölkə daxilində uğurlu siyasət apararaq hesab edirəm ki, ölkəmizdə dünya üçün çox nadir inkişaf modelini yaratdıq. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik".

Əlbəttə, Vətən müharibəsində qazanılmış şanlı və möhtəşəm Qələbə təkcə hərbi-strateji xarakter daşımır və milli təqvimimizin sıradan bir tarixini əks etdirmir. 27 sentyabrdan 8 noyabra gedən yol - 30 illik işğala 44 gündə son qoyulması xüsusi siyasi və geostrateji məzmuna malikdir:

- Azərbaycan 30 ilə yaxın davam edən işğal faktına, separatizmə öz milli gücü ilə, hərbi-siyasi resursları ilə son qoydu, BMT-nin uzun müddət kağız üzərində qalmış qətnamələrinin icrasını təmin etdi. Beləliklə, bu qələbə ilə təzyiqlərə məruz qalmasına rəğmən, bir dövlətin öz gücü ilə beynəlxalq hüququ bərpa edə, dünyanın ən böyük təşkilatının kağız üzərində qalmış qətnamələrinin icrasına nail ola biləcəyi ilə bağlı yeni nümunə - siyasi presedent yaradıldı;

- İkincisi, bu tarixi Zəfər Azərbaycanın hərbi-siyasi gücünün ifadəsi olmaqla yanaşı, beynəlxalq siyasətdə bir sıra siyasi stereotiplərin dağıdılması, qərəzli dairələrin ikili standartlara və selektiv yanaşmaya əsaslanan siyasətinin iflasa uğradılması baxımından önəmlidir;

- Üçüncüsü, Azərbaycan regionda yeni geostrateji reallıqlar yaratdı. Bu, bölgədə yeni təhlükəsizlik mühitinin və əməkdaşlıq imkanlarının formalaşması, Cənubi Qafqazda yeni geostrateji konfiqurasiyanın yaranması, Avrasiyada çoxşaxəli münasibətlərin inkişafına güclü təkan deməkdir.

Beləliklə, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu, prinsipial və hədəfə yönəlik siyasətinin nəticəsi məlum, reallıqlar bəllidir - Qələbə və milli tərəqqinin yeni mərhələsi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bizim bütün dövrlərdəki siyasətimiz birmənalı olub. Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin - düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik".

Tarixi təcrübə göstərir ki, qalib xalq olaraq yaşamaq məğlub toplum kimi siyasi varlığı sürdürməkdən şərəfli olmaqla yanaşı, daha çətin və daha məsuliyyətlidir. O səbəbdən hərb meydanında qazanılmış Zəfəri regional və beynəlxalq siyasət arenasında davamlı prosesə çevirmək və Qələbəni diplomatiya meydanında, quruculuq müstəvisində möhkəmləndirmək vacibdir, hətta tarixi zərurətdir. Bu proses çərçivəsində mühüm addımlar atılır - sistemli, ardıcıl və məqsədyönlü işlər görülür, strateji əhəmiyyətli tədbirlər reallaşdırılır.

Azərbaycan postmüharibə dövründə yeni nailiyyətlərə imza atır - dünya daha güclü Azərbaycanın uğurlarına şahidlik edir. Bu gün işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işləri görülür, Müzəffər Ali Baş Komandan İlham Əliyev ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həmin torpaqlara hər bir səfəri fövqəladə məmnunluq, sonsuz qürur və iftixar, milli özünəinam hissi yaratmaqla yanaşı, Zəfər yürüşünün addım-addım və fasiləsiz davam etdiyini göstərir. Böyük qayıdış 30 il ərzində torpaqları işğal altında olan dövlətin vətəndaşlarının, soydaşlarımızın, bütövlükdə, Azərbaycan xalqının ən böyük arzularından idi və bu gün biz buna nail oluruq. Prosesə start verilib, işğaldan azad olunmuş ərazilərdə sistemli quruculuq işlərinin aparılması xüsusi diqqət mərkəzində saxlanılır və bu istiqamətdə mühüm layihələr reallaşdırılır. Müasir şəhərsalma konsepsiyalarının gerçəkləşdirilməsi, beynəlxalq hava limanlarının inşası, səmərəli investisiya və inkişaf mühitinin yaradılması ilə bağlı addımlar və digər tədbirlər həm ölkəmizin sosial-iqtisadi yüksəlişinə, həm Azərbaycanın regionda strateji mövqelərinin möhkəmlənməsinə, həm də ikitərəfli və çoxtərəfli xarici əlaqələrin inkişafına mühüm töhfələr verir.

Azərbaycanın yaratdığı reallıqlar regionu ziddiyyət və konfrontasiya deyil, əməkdaşlıq və inteqrasiya məkanına çevirir. Ümumiyyətlə, postmüharibə dövrünün mühüm hədəflərindən biri Azərbaycanın yaratdığı reallıqlar əsasında Cənubi Qafqaz regionunda yeni işbirliyi platformasının qurulmasıdır. Bu, siyasi, hərbi-strateji cəhətdən mühüm əhəmiyyətə malik olmaqla yanaşı, iqtisadi baxımdan da faydalı və perspektivlidir. Yeni şəraitdə geosiyasi və geoiqtisadi imkanlar təkcə bölgə xalqları və dövlətləri üçün deyil, bir çox ölkələr, o cümlədən regional və beynəlxalq güc mərkəzləri üçün mühüm dividendlər vəd edir. Xüsusilə də Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş formatda əməkdaşlıq imkanlarının formalaşması, Azərbaycan başda olmaqla çoxşaxəli əməkdaşlıqda maraqlı olan dövlətlərin önəmli imkanlar əldə etməsi deməkdir.

Bu gün regionda sülh və etimad quruculuğu, postmüharibə dövrünün geostrateji arxitekturasının formalaşdırılması diqqət mərkəzindədir. Sülh gündəliyi artıq müəyyənləşib və müxtəlif səviyyələrdə aparılan danışıqların strateji gündəmi və məzmunu bəllidir. Yeni reallıqlar fonunda və mövcud şəraitdə sülh müqaviləsinin hazırlanması və imzalanması, kommunikasiyaların bərpası, sərhədlərin dəqiqləşdirilməsi sülh gündəliyinin mühüm tərkib hissəsidir. Sülh müqaviləsinin imzalanması üçün beş baza prinsipi əsasında müvafiq təklifləri verən Azərbaycan regionda təhlükəsizlik mühitinin formalaşması üçün önəmli təşəbbüslər irəli sürür, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla öz üzərinə düşən öhdəlikləri tam və zamanında yerinə yetirir. Təəssüflər olsun ki, eyni fikri bu bəyanatın digər tərəfi - Ermənistan haqqında söyləmək olmaz. Rəsmi İrəvan istər Rusiyada, istərsə də Avropanın siyasi paytaxtında - Brüsseldə keçirilmiş üçtərəfli görüşlərdən sonra mütəmadi olaraq hərbi təxribatlara yol verir, sülhyaratma prosesini pozmağa çalışır. Ermənistanın siyasi sabotajları və hərbi təxribatları, əslində sülh gündəliyinə "atəş açmaq", üçtərəfli Bəyanatı, beynəlxalq hüquq normalarını heçə saymaqdır. Prezident İlham Əliyev bu məqamlara toxunaraq Ermənistanın Azərbaycanın təklif etdiyi 5 prinsipi qəbul etməsinə rəğmən, əməldə heç bir iş görmədiyini, vaxt uzatma taktikasını seçdiyini bildirib. Heç şübhəsiz, vaxt qazanmağa çalışan Ermənistan hər gün itirir - iqtisadi tənəzzülü sürətlənir, geoiqtisadi təcrid vəziyyəti və ölkədaxili siyasi xaos dərinləşir. Amma buna baxmayaraq, məğlub ölkə öz revanşist ideyalarından, təxribatçı mövqeyindən əl çəkmir. Sentyabrın 12-si gecə və sentyabrın 13-ü səhər saatlarında Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilanla sərhəddə Ermənistan ordusunun genişmiqyaslı təxribatlar törətməsi, daha sonra müxtəlif səviyyələrdə provokasiyaları davam etdirməsi hərbi avantüra və revanşist cəhd olmaqla rəsmi İrəvanın riyakar mövqeyini və ikiüzlü, dağıdıcı siyasətini bir daha sübut və ifşa edir. Məqsəd təkcə sülh sazişinin imzalanmasını gecikdirmək deyil, eyni zamanda Azərbaycan xalqının Böyük qayıdışını müəyyən qədər ləngitməkdir.

Təbii ki, qalib və qüdrətli Azərbaycanın gücü, mövqeyi və nüfuzu belə cəhdlərin iflasa məhkum olmasını şərtləndirir. Təsadüfi deyil ki, bəhs olunan genişmiqyaslı təxribatların fonunda Azərbaycan Ordusu sərhədlərin təhlükəsizliyini təmin etmək və təhdidlərin qarşısını almaq məqsədilə adekvat və uğurlu cavab tədbirləri gördü, işğalçı, təxribatçı və məğlub ölkənin silahlı birləşmələrinə daha bir ağır zərbə vurdu, layiqli dərs verdi. "Qisas" əməliyyatından sonra "Qətiyyətli cavab" tədbiri ilə Azərbaycan Ordusu Ermənistanın hərbi-siyasi təxribatlarının onlar üçün hansı nəticələrə gətirib çıxaracağını növbəti dəfə göstərdi, bu ölkənin sərhəd boyunca təhlükə yarada biləcək və təxribat aləti olan hərbi infrastrukturu - hərbi hissələr və hava hücumundan müdafiə sistemləri sıradan çıxarıldı, strateji yüksəkliklər nəzarətə götürüldü və nəhayət, həm dünya ictimaiyyəti, həm Ermənistan, həm də ona havadarlıq edən bəzi qüvvələr gördülər ki, belə cəhdlərlə yeni reallıqları və siyasi gündəmi dəyişdirmək, sülhyaratma prosesindən qaçmaq mümkün deyil və olmayacaq. İkinci Qarabağ müharibəsinin dərslərini unudan rəsmi İrəvanın bir yolu - yeganə seçimi var - sonuncu hadisələrdən nəticə çıxarmaq. Müzəffər Ali Baş Komandan İlham Əliyevin söylədiyi kimi: "Ümid edirəm ki, nəhayət, bu, onlara dərs olacaq. Çünki gördülər ki, bizi heç kim və heç nə dayandıra bilməz. Biz öz torpağımızdayıq və öz torpağımızı qoruyuruq".

Nəhayət, təcavüzkar siyasətin, hərbi cinayətlərin və genişmiqyaslı təxribatların fonunda Azərbaycan Ordusunun sərt və layiqli cavabı ilə qisas qiyamətə, şəhidlərimizin qanı isə yerdə qalmadı. Azərbaycan dövləti və cəmiyyəti hər zaman mübariz Vətən övladlarının şücaətini yüksək qiymətləndirir, şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi bunun bariz nümunəsi - real təsdiqidir. Prezident İlham Əliyev şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşündə çıxışı zamanı demişdir ki, Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq: "Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbir versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı".

*Şübhə yoxdur ki, şəhidlərimizin ruhunun şad olduğu indiki məqamda dövlətimizin qüdrəti, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, xalqımızın sarsılmaz birliyi Azərbaycanı yeni, möhtəşəm nailiyyətlərə aparacaq, tarix güclü Azərbaycanın yeni şanlı qələbələrinə şahidlik edəcək, həm müstəqilliyimizin, həm də tarixi Zəfərimizin siyasi rəmzi olan, şəhidlərin ölməzliyini, Vətənin bölünməzliyini əks etdirən, işğaldan azad edilmiş ərazilərimizdə qürurla ucaldılan üçrəngli bayrağımız daim zirvələrdə dalğalanacaq!*

**Tahir BUDAQOV,**
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini,***
***Mərkəzi Aparatın rəhbəri***

# Müzəffər Ali Baş Komandanın şanlı Zəfəri nəticəsində bütün dövlət sərhəd xətti boyu Azərbaycan bayrağı dalğalanır

**Vətən savaşında böyük tarixi Zəfərin qazanılmasında Silahlı Qüvvələrimizin tərkib hissəsi olan Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti misilsiz fədakarlıq, şücaət nümayiş etdirdi. Müharibəyə qədərki mərhələdə ciddi təkmilləşmə keçərək peşəkar döyüş hazırlığına sahib olan sərhədçilərimiz Ali Baş Komandanın "İrəli!" əmrini də məharətlə icra etdilər. Son iki ildə isə işğaldan azad olunmuş ərazilərdə dövlət sərhədinin ən yüksəksəviyyəli mühafizəsini təşkil edir, yeni qəhrəmanlıq nümunələri yaradırlar.**

**II Qarabağ müharibəsinin başlanmasının ikinci ildönümü ərəfəsində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevlə həmsöhbət olduq. Sərhədçilərimizin son iki ildə səngərdə və sərhəddə göstərdikləri məsuliyyətli xidməti fəaliyyətdən bəhs edən müsahibimizin fikrincə, sərhəd məntəqələrimizdə təxribat törədən düşmənə qarşı son döyüş əməliyyatları Müzəffər Ali Baş Komandanımızın qüdrətini, Silahlı Qüvvələrimizin yenilməzliyini növbəti dəfə bütün dünyaya nümayiş etdirdi.**

## Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin QULİYEV:

## *"Dövlət sərhədində əməliyyat şəraiti ciddi nəzarətimiz altındadır, sərhəd təhlükəsizliyimizə qarşı yönələ bilən istənilən təhdidin qarşısı qətiyyətlə alınır"*




**- Dövlət Sərhəd Xidməti Vətən müharibəsində möhtəşəm şərəf salnaməsi yaradaraq, böyük qələbənin əldə olunmasına əvəzsiz töhfələr verdi. Ancaq bir məqam da oxucularımıza maraqlıdır: sərhədçilərimizin bu savaşa hazırlıq prosesi necə gedirdi? Ali Baş Komandan tərəfindən qarşınıza nə kimi tapşırıqlar qoşulmuşdu və bu vəzifələrin icrasını necə təşkil etmisiniz?**

- Öncə xüsusi vurğulamalıyam ki, Vətən Müharibəsində qazandığımız Böyük Zəfərin müəllifi və yaradıcısı, siyasi, diplomatik və hərbi müstəvilərdə atdığı ardıcıl, məqsədyönlü addımlar sayəsində bu qələbəni gerçəkləşdirən, xalqımıza qalibiyyət sevincini yaşadan şəxs - Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevdir.

Silahlı Qüvvələrimizin, o cümlədən də Dövlət Sərhəd Xidmətinin 44 günlük Vətən müharibəsində göstərdiyi ciddi nəticələrin özülünü də məhz Müzəffər Ali Baş Komandanımızın qarşımızda qoyduğu tapşırıqların doğru və dəqiq yerinə yetirilməsi təşkil edir. Bu gün biz böyük qürurla deyə bilirik ki, Vətən müharibəsindən əvvəl, döyüş əməliyyatlarının gedişatı zamanı və müharibədən sonrakı dövrdə qarşımızda qoyulmuş bütün tapşırıqlar layiqincə icra olunub.

İşğal altında olan torpaqların düşmən tapdağından azad edilməsinə hazırlıq işlərinə Dövlət Sərhəd Xidmətində 2005-ci ildən başlanılıb. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında gerçəkləşdirilən mühüm ideya və yanaşmalar Azərbaycan sərhədçilərinin düşmən üzərində böyük zəfərin əldə olunmasında yüksəksəviyyəli iştirakına zəmin yaratdı.

Bu sırada - şəxsi heyətin Heydər Əliyev dövlətçiliyinə sədaqəti, hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsini, təmas xəttinin bilavasitə yaxınlığında xüsusi təyinatlı hərbi bazaların yaradılmasını, düşmən üzərində hərbi üstünlüyümüzü şərtləndirən əsas amillərdən biri olmuş pilotsuz uçuş aparatlarının alınmasını və həqiqi döyüş şəraitində effektiv tətbiq olunması üzrə peşəkar vərdişlərin formalaşdırılmasını xüsusi qeyd etməliyəm. DSX-nin çevik hərəkət qüvvələrinin formalaşdırılmasını və xüsusi hazırlıqlı peşəkar heyətlə komplektləşdirilməsini, ən yüksək səviyyədə silahlar, döyüş sursatları və hərbi ləvazimatla təchizatlandırılmasını, real döyüş təcrübəsi əldə etmələrinə xüsusilə ciddi önəm verilməsini də əsas məqamlardan biri kimi vurğulayıram.

Eyni zamanda "AN-2" təyyarələrinin pilotsuz uçuş aparatı kimi modernləşdirilməsi və hərb tarixində yenilik, "nou-xau" kimi qiymətləndirilən, yanlış hədəf qismində düşmənin hava hücumundan müdafiə sistemini aşkarlamaq və zərurət olduqda dəqiq zərbə endirmək məqsədilə tətbiqi, bölmələrimizə 24 saat ərzində 105 km məsafədə ildırımsürətli hücumu həyata keçirmək imkanını vermiş döyüş vərdişlərinin yaradılması, düşmən bölmələrinin dislokasiyası və hərəkətləri barədə kəşfiyyat məlumatlarının əldə olunması və bu kimi digər məsələləri xüsusi qeyd etmək lazımdır.

2016-cı ilin Aprel döyüşlərində düşmən təxribatına cavab olaraq onun alınmaz hesab etdiyi mövqelərinin, dislokasiya yerlərinin, komanda-dayaq məntəqələrinin, qərargahlarının bir neçə gün ərzində darmadağın edilməsi zamanı da Dövlət Sərhəd Xidməti qarşısında qoyulmuş bütün döyüş tapşırıqları yüksək səviyyədə icra olundu, o cümlədən "Harop" zərbəendirici pilotsuz uçuş aparatlarının ilk döyüş tətbiqi nəticəsində düşmənə sarsıdıcı zərbələr endirildi.

2018-ci ildə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Sərhəd Mühafizəsinin potensialını və şəxsi heyətinin peşəkarlığını nəzərə alaraq Qazax-Ağstafa rayonları ərazisində Azərbaycan-Ermənistan dövlət sərhədinin mühafizəsini sərhədçilərə həvalə etdi. Müzəffər Ali Baş Komandanımızın bu tapşırığının icrası şərəf borcumuz, fərəh və qürur mənbəyimiz oldu.

Qazax-Ağstafa rayonları ərazisində Azərbaycan-Ermənistan dövlət sərhədi tərəfimizdən mühafizəyə götürüldükdən sonra qısa müddət ərzində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" Əlahiddə Sərhəd Diviziyası formalaşdırıldı, bilavasitə düşmənlə təmas xəttində 89 sərhəd döyüş məntəqəsi, "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qərargah kompleksi də daxil olmaqla 5 hərbi hissə kompleksi tikilərək istifadəyə verildi. Xüsusi əməliyyatlar nəticəsində döyüş mövqelərinin sərhəd xəttinə daha yaxın yerləşdirilməsinə, ərazidəki mühüm strateji yüksəkliklərin ələ keçirilməsinə, müqabil ərazinin böyük bir hissəsinin nəzarətdə saxlanılmasına nail olunmaqla düşmənin yerli sakinlərə qarşı təxribat törətmək imkanlarının qarşısı alındı.

**- Bəs Azərbaycan Respublikasının sərhəd mühafizə orqanlarının maddi-texniki bazasının təkmilləşdirilməsi və mövcud texnikanın modernləşdirilməsi istiqamətində hansı işlər görüldü?**

- Azərbaycan Sərhəd Mühafizəsinin çətin və mürəkkəb, lakin bir o qədər də şərəfli inkişaf yolu vaxtilə əlçatmaz kimi görünən zirvələrin fəth edilməsi yoludur. Çünki vaxtilə uzaq gələcək kimi qəbul etdiyimiz məsələlər vardı ki, onlar bu gün artıq günümüzün reallığıdır.

Məsələn, şimal və şimal-qərb sərhədlərində müasir sərhəd mühafizə infrastrukturunun, sərhəd aviasiyasının, sahil mühafizəsinin yaradılması ilə yanaşı, dövlət sərhədinin mühafizəsində peyk texnologiyalarının tətbiqi, sərhəd məntəqələrində radiolokasiya sistemlərinin, səyyar və stasionar müşahidə və elektron-optik vasitələrin istifadəsi, xidmət-daxili rəqəmsal informasiya sisteminin formalaşdırılması mühüm uğur kimi səciyyələnir.

Həmçinin DSX-nin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində müasir tələblərə cavab verən, Xəzər dənizində mürəkkəb üzmə şəraitində xidməti-döyüş tapşırıqlarını icra etməyə qadir olan "Tufan" və "Şahdağ" tipli sərhəd gözətçi gəmilərinin inşası və DSX-nin tərkibində xüsusi hava əməliyyatları qüvvələrinin yaradılması, PUA-ların effektiv döyüş tətbiqi üzrə Azərbaycan sərhədçilərinin peşəkarlığının əksər xarici dövlətlərin ordularında etalon kimi qəbul edilməsi bütünlüklə Silahlı Qüvvələrimizin nailiyyətidir.

DSX Akademiyasının və Xüsusi Məktəbinin yaradılması ilə Dövlət Sərhəd Xidmətində mükəmməl hərbi tədris sisteminin formalaşdırılması, xarici dövlətlərin sərhəd mühafizə qurumlarının kursantlarının DSX Akademiyasında təhsil almaları və xarici həmkarlarımızdan bununla əlaqədar müraciətlərin daxil olmasının davam etməsi, eyni zamanda sərhədçilərin sosial-məişət vəziyyətinin, mənzil şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər ötən müddət ərzində qazanılan ciddi müvəffəqiyyətlərdir.

Birmənalı olaraq vurğulanmalıdır ki, bütün bu nailiyyətləri mümkün edən Azərbaycan sərhədçilərinə göstərilən ali diqqət və qayğıdır. Şəxsi heyət üçün zəruri xidməti və yaşayış şəraitinin yaradılması üzrə qaldırdığımız hər bir məsələyə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər zaman xüsusi həssaslıqla yanaşıb. Məhz bunun nəticəsidir ki, 2001-ci ildən etibarən Dövlət Sərhəd Xidmətinin bütün sərhəd dəstələrinin qarnizonları, Türkan qəsəbəsində DSX Sahil Mühafizəsinin yeni bazası və yaşayış binaları kompleksi, DSX Akademiyası, Sərhəd Nəzarəti, Səngəçal qəsəbəsində aviasiya bazası, "Sərhədçi" İdman Mərkəzi, Abşeron rayonunun Goradil və Lənkəran rayonunun Vel qəsəbələrində istirahət mərkəzləri inşa edilib, Dövlət Sərhəd Xidmətinin Aparatının binası əsaslı təmir olunub. Sərhədçilərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Prezident İlham Əliyevin tapşırığı əsasında Bakı şəhərində 412 mənzilli yaşayış binaları tikilib, 624 mənzildən ibarət yaşayış şəhərciyinin inşası və güzəştli ipoteka şərtləri ilə DSX əməkdaşlarının mülkiyyətinə verilməsi layihəsi uğurla icra olunub. Respublika miqyasında 154 binadan ibarət 1441 xidməti mənzil tikilərək və ya əsaslı təmir edilərək sərhədçilərin istifadəsinə verilib.

Prezident İlham Əliyevin qərarı ilə 2007-ci ildə Dövlət Sərhəd Xidmətinin Akademiyasının, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2011-ci ildə DSX-nin tərkibində xüsusi təyinatlı tam orta təhsil müəssisəsinin - Xüsusi Məktəbin yaradılması, Heydər Əliyev Fondunun dəstəyilə zəruri tədris və maddi-texniki baza ilə təchiz edilməsi sayəsində bu illər ərzində Dövlət Sərhəd Xidmətində mükəmməl hərbi təhsil sisteminin formalaşdırılmasına nail olunub. Nəticə etibarilə Xüsusi Məktəbdə 7 il, Akademiyada 4 il olmaqla, cəmi 11 il müddətində Vətəninə, Prezidentinə, dövlətçiliyinə sadiq vətənpərvər sərhədçi zabit korpusunun yetişdirilməsi üçün tam şərait yaradılıb.

Bu illər ərzində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev DSX-nin hərbi hissə və bölmələrinə 41 dəfə səfər edib. Bu rəqəm təkcə region dövlətləri üçün deyil, dünya miqyasında dövlət başçısı tərəfindən hərbi qurumlara göstərilən diqqət və qayğının bənzərsiz göstəricisi, sərhəd mühafizəsinə verilən ən yüksək qiymətdir.

**- Azərbaycan sərhədçiləri Vətən müharibəsinin ilk anından etibarən silaha sarılaraq, döyüş tapşırıqlarını böyük şücaət və məsuliyyətlə həyata keçirdilər. Dövlət Sərhəd Xidmətinin bu yönümdəki şanlı fəaliyyətinin əsas istiqamətləri və nəticələri nə oldu?**

- 2020-ci ilin sentyabr ayında Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Silahlı Qüvvələrimizə əks-hücum əməliyyatlarına başlanılması barədə döyüş tapşırığı verdi.

Döyüş əmrini alan Dövlət Sərhəd Xidməti dərhal bütün qüvvə və vasitələrini tam səfərbər etdi. İlkin olaraq Azərbaycan sərhədçiləri döyüş əməliyyatlarına Kəlbəcər istiqamətindən başlamalı idilər. Döyüşlər başladıqdan sonra Prezident cənab İlham Əliyev keçirdiyi xidməti-döyüş müşavirəsində böyük sərkərdəlik məharətini nümayiş etdirərək hücum istiqamətimizi dəyişdi, sərhədyanı və Araz çayı boyu hərəkətə keçmək əmrini verdi.

Müzəffər Ali Baş Komandanımızın bu əmrini icra edərək Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazini işğaldan azad etdik. Sutka ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirildi, yüzlərlə canlı qüvvəsi məhv edildi. Qədim Xudafərin körpüsündə, Zəngilan rayonunun Ağbənd qəsəbəsində və Zəngilan şəhərində Dövlət bayrağımızı ucaltdıq, Ermənistanla dövlət sərhədində Bartaz və Şükürataz strateji yüksəkliklərini azad etdik. Müzəffər Ali Baş Komandanımız tərəfindən Dövlət Sərhəd Xidməti qarşısında qoyulmuş bütün döyüş tapşırıqları uğurla icra olundu, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunmasında Azərbaycan sərhədçiləri qəhrəmanlıq və igidlik nümunələri göstərdilər.

Vətən müharibəsində ən müasir hərbi texnologiyalardan, kəşfiyyat və zərbəendirici pilotsuz uçuş aparatlarından, Ermənistan ordusu üçün gözlənilməz döyüş üsullarından istifadə edən Silahlı Qüvvələrimiz uzun illər ərzində döyüş hazırlığı sahəsində düşməni xeyli qabaqladığını, yeni döyüş əməliyyatları modelinə yiyələndiyini bütün dünyaya nümayiş etdirdi. Bu müharibə pilotsuz uçuş aparatlarının intensiv tətbiq olunduğu ilk böyükmiqyaslı savaş kimi hərb tarixinə yazıldı.

DSX-nin "Harop," "Quzğun" və "Hermes" pilotsuz uçuş aparatlarını peşəkar tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli döyüş texnikaları, zenit-raket kompleksləri, o cümlədən 8 ədəd "S-300" raket kompleksi, tankları, zirehli döyüş maşınları, komanda-idarəetmə məntəqələri, ümumilikdə 290 düşmən hədəfi böyük məharətlə zərərsizləşdirildi. Zəngilan rayonunda Bartaz yüksəkliyinin düşməndən azad edilməsi zamanı çevikçilərimizin atıcı silahlardan açdıqları atəş nəticəsində onların üzərinə həmlə edən düşmənin "SU-25" hərbi təyyarəsi məhv edildi. Havada və döyüş meydanında üstünlüyü tam ələ alan pilotsuz uçuş aparatları sayəsində düşmənin illər boyu güvəndiyi hərbi güc dəmir tullantısına çevrildi. Bu döyüş əməliyyatları zamanı "Harop" və "Bayraktar-TB2" PUA-larının birgə döyüş tətbiqi üzrə unikal hərbi təcrübə formalaşdırıldı.

**- Köhnəlmiş "AN-2" təyyarələrinin Dövlət Sərhəd Xidmətinin təşəbbüsü ilə modernləşdirilərək pilotsuz uçuş aparatına çevrilməsi Vətən müharibəsinin elə ilk saatlarında hərbi vəziyyəti əsaslı şəkildə xeyrimizə dəyişdi, ciddi strateji dönüşə səbəb oldu…**

- Həqiqətən də, DSX-nın Vətən müharibəsində tətbiq etdiyi bu yenilik dünya hərb məktəblərində müzakirə olunan mövzular sırasındadır. Öz istismar müddətini başa vurmuş, mənəvi cəhətdən köhnəlmiş "AN-2" təyyarələrinin modernləşdirilərək pilotsuz uçuş aparatı kimi müasir döyüş elementləri sırasına əlavə edilməsi peşəkar hərbi yanaşmanın ifadəsi oldu. Bu təyyarələrin xüsusi tətbiqi nəticəsində düşmənin hava hücumundan müdafiə sistemləri və digər strateji hədəfləri aşkarlanaraq zərərsizləşdirildi.

Ölkəmizin ərazisinin 20 faizinin, o cümlədən İranla dövlət sərhədinin 132 kilometr, Ermənistanla dövlət sərhədinin 500 kilometrədək sahəsinin Ermənistan tərəfindən işğalına son qoyuldu. Azərbaycan tarixinin ən böyük sərkərdəsi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin eyni zamanda bir neçə müstəvidə fədakarcasına apardığı mübarizə, xalqımızın Ali Baş Komandan ətrafında "dəmir yumruq" kimi birləşməsi, Silahlı Qüvvələrimizin hərbi taktiki və strateji üstünlüyü, hərbçilərimizin yenilməz döyüş ruhu - bunlar 44 günlük müharibədə Ermənistan üzərində parlaq Qələbəni təmin etdi.

Vətən müharibəsində əldə edilmiş şanlı qələbə haqqında danışarkən Müzəffər Ali Baş Komandanımızın ən yaxın silahdaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın böyük rolunu xüsusi qeyd etmək istəyirəm. Döyüş əməliyyatlarının planlaşdırılmasından və gedişatından tutmuş hərbi qulluqçuların təminatı, sağlamlıqlarının mühafizəsi, yaralıların müalicəsi, Şuşada və digər bölgələrimizdə qədim mədəniyyətimizə və tarixi irsimizə aid abidələrin müdafiəsi, mülki vətəndaşların düşmən zərbələrindən qorunması və bu kimi onlarca digər məsələni xüsusi diqqət mərkəzində saxlayan xanım Birinci vitse-prezidentin verdiyi tapşırıqlar və bu istiqamətdə gördüyü işlər böyük Zəfərin əldə olunması üçün son dərəcə əhəmiyyətli oldu.

**- Vətən müharibəsində Dövlət Sərhəd Xidmətinin şəhid olmuş hərbi qulluqçularının ailələrinə, əlil və iştirakçılara hansı diqqət və qayğı göstərilir?**

- İşğalçı düşmən qüvvələrinə qarşı böyük əzm və fədakarlıqla döyüşmüş sərhədçilərin döyüş məharəti Prezidentimiz, dövlət tərəfindən yüksək qiymətləndirilib, müxtəlif orden və medallarla təltif ediliblər. Döyüş əməliyyatları zamanı rəşadət və şəxsi igidlik nümunələri göstərmiş 12 nəfər Azərbaycan sərhədçisi (onlardan 4 nəfər ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, 176 nəfəri müxtəlif ordenlərlə, 5203 nəfəri isə müxtəlif medallarla təltif olunub.

Vətən müharibəsində Dövlət Sərhəd Xidmətinin 47 hərbi qulluqçusu şəhid olub, 197 nəfər yaralanıb və ya müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Şəhid ailələrinə dövlət bayramlarında, şəhidlərin doğum və anım günlərində DSX-nin ali hərbi rütbəli zabitləri tərəfindən onlara baş çəkilməsi, onların məzarlarının mütləq yad edilməsi təcrübəsi formalaşdırılıb, qazilərin müalicəsinə, onlara müharibə veteranı adının, sığorta və digər ödənişlərin alınması üzrə sənədləşmə işlərinin görülməsinə xüsusi diqqət göstərilib, şəhid ailəsi üzvlərinin Dövlət Sərhəd Xidmətində hərbi xidmətə və işə qəbul edilmələrinə, şəhid övladlarının DSX-nin Xüsusi Məktəbinə qəbul olunmalarına tam şərait yaradılıb. Bu günədək 12 nəfər şəhid ailəsi üzvü DSX-yə həqiqi hərbi xidmətə, işə, yaxud təhsil müəssisəsinə qəbul olunub.

**- Vətən müharibəsindən sonrakı dövrdə Ali Baş Komandan İlham Əliyev tərəfindən Silahlı Qüvvələrin bütün növ hərbi birləşmələri qarşısında hərbi fəaliyyətin daha da təkmilləşdirilməsi, modernləşdirilməsi, xidmətdə yeni keyfiyyət mərhələsinə keçilməsi mühüm tapşırıq kimi müəyyənləşib. Dövlət Sərhəd Xidməti qarşısında da qoyulmuş bu vəzifələrin icrası necə gedir?**

- Bu gün səngərdə və sərhəddə böyük əzmlə xidmət aparan Azərbaycan sərhədçisi Azərbaycan-Ermənistan dövlət sərhədində üçrəngli dövlət bayrağımız altında dövlət maraqlarımızı qorumaqdan qürurludur.

Dövlətimizin ərazi bütövlüyü təmin edildikdən, o cümlədən ölkəmizin Ermənistan Respublikası ilə dövlət sərhədi işğaldan azad edildikdən sonra Müzəffər Ali Baş Komandanımızın tapşırığına əsasən bu ərazilərdə zəruri sərhəd mühafizə infrastrukturunun yaradılması, hərbi qulluqçuların xidməti şəraitinin və sosial təminatının yaxşılaşdırılması üzrə kompleks tədbirlər sürətlə davam etdirilir. İşğaldan azad olunmuş İran İslam Respublikası ilə dövlət sərhədlərimizdə qısa müddət ərzində sərhəd zastavalarının fəaliyyəti bərpa edilib, Zəngilan, Qubadlı rayonlarından və Laçın rayonunun bir hissəsindən keçən Ermənistanla dövlət sərhədinin mühafizəsi və müdafiəsinin təşkilinə cavabdeh olan 19 yeni hərbi hissə kompleksi, 110 sərhəd-döyüş məntəqəsi, "Eyvazlı" və "Qazançı" dövlət sərhədindən buraxılış məntəqələri inşa olunub, Füzuli Beynəlxalq Hava Limanında sərhəd nəzarəti təşkil edilib. Hazırda Zəngilan Hava Limanında sərhəd nəzarətinin həyata keçirilməsinə hazırlıq tədbirləri görülür.

İşğaldan azad edilmiş ərazilərdə 106 km məsafədə yeni yollar çəkilib, 225 km məsafədə yolların əsaslı və cari təmiri həyata keçirilib, 1556 hektar ərazi mina və partlamamış sursatlardan təmizlənib, 1530 ədəd piyada və 1762 ədəd tank əleyhinə mina, 245 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Prezident İlham Əliyevin 2021-ci ilin 26 aprel, 4 oktyabr, 20 oktyabr, 25 oktyabr tarixlərdə işğaldan azad olunmuş ərazilərdə Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissələrinin açılışını etməsini, hərbi hissələrin xidməti-döyüş fəaliyyətinin təşkili, hərbi qulluqçuların peşəkar və döyüş qabiliyyətinin yüksəldilməsi üçün yaradılmış şəraitlə tanış olmasını Azərbaycan sərhədçiləri böyük ruh yüksəkliyi ilə qarşıladılar. Müzəffər Ali Baş Komandanın "Sərhədçilərimizin ümumi zəfərimizdə rolu çox böyükdür. Mən bunu qiymətləndirirəm" sözləri isə hər birimizə böyük sevinc hissləri yaşatdı.

Xüsusi olaraq vurğulamaq istərdim ki, bu gün bütün dövlət sərhəd xətti boyu, o cümlədən də Ermənistan ilə dövlət sərhədində əməliyyat şəraiti ciddi nəzarətimiz altındadır, sərhəd təhlükəsizliyimizə qarşı yönələ bilən istənilən təhdidin qarşısı qətiyyətlə alınır və bundan sonra da alınacaqdır.

Necə ki, sentyabr ayının 13-14-də sərhəd döyüş məntəqələrimizə qarşı təxribat törədən düşmən Azərbaycan əsgərinin döyüş əzminin, Azərbaycan sərhədçisinin döyüş ruhunun bir daha şahidi oldu.

Sentyabrın 13-dən Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu istiqamətində genişmiqyaslı təxribatının qarşısı qəhrəmancasına alındı, düşmənin canlı qüvvəsi, artilleriya və minaatanla yanaşı döyüş postları, dayaq məntəqələri, atəş nöqtələri zərərsizləşdirildi.

Bu döyüşlərdə qəhrəmancasına həlak olmuş bütün şəhidlərimizə rəhmət diləyir, yaralılarımıza tez sağalaraq sıralarımıza qayıtmalarını arzulayıram.

Döyüş əməliyyatları zamanı "Harop" və "Quzğun" zərbəendirici PUA-larının döyüş tətbiqi nəticəsində düşmənə uzaq məsafədən Azərbaycan Respublikasının hava məkanını nəzarətdə saxlamaq imkanı verən 2 "S-300" zenit-raket divizionu, döyüş dəstləri ilə birlikdə 2 ədəd "S-125" kompleksinin idarəetmə stansiyaları, "P-18" radiolokasiya sistemi, R-330 "Jitel" elektron mübarizə mərkəzi və sistemin anten gücləndirici qurğuları, onlarca döyüş məntəqəsi məhv edildi. Dəqiq zərbələr nəticəsində düşmənin hərbi sursat anbarı sıradan çıxarıldı və bu hərbi bazadakı yanğın saatlarca raketlərin və sursatların partlaması ilə müşayiət olundu.

Silahlı Qüvvələrimizin sarsıdıcı zərbələri altında böyük itkilər verdiyini görən və sərhəd-döyüş məntəqələrimizə qarşı hərbi təxribat törətməklə çox ciddi yanlış addım atdığını başa düşən Ermənistanın hərbi-siyasi rəhbərliyi öz havadarları vasitəsilə atəşkəs rejiminin bərpa olunması barədə müraciət etdi.

Qısamüddətli olmasına baxmayaraq, hərb tariximizdə öz yerini tutacaq bu döyüş əməliyyatları növbəti dəfə Müzəffər Ali Baş Komandanımızın qüdrətini, Azərbaycan Silahlı Qüvvələrinin yenilməzliyini bütün dünyaya nümayiş etdirdi.

*Müsahibəni apardı:*
**İxtiyar HÜSEYNLİ,**
*"Azərbaycan"*

# "Dəmir yumruğ"un düyünləndiyi gün

## Hüququn gücsüzlüyünü gücün hüququ əvəz etdi



27 sentyabr 2020-ci il!

Həmin gün 27 il ərzində dolan "səbir kasası" daşdı!

Həmin gün Müzəffər Ali Baş Komandanın "dəmir yumruğ"u düyünləndi!

Xalq ayağa qalxaraq özünə məxsus olan torpağı geri qaytarmağa başladı!

Ordu silaha sarılaraq Ali Baş Komandanın əmri ilə əks-hücuma keçdi!

Yer-göy lərzəyə gəldi, igidlərin hayqırtısı motor səsinə qarışdı!

Toplar guruldadı, təyyarələr qanadlandı, pilotsuz uçuş aparatları hədəfə doğru şığıdı!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqına, xalq ordusuna, ordu isə sərkərdəsinə güvənərək qəti və qanlı döyüşə atıldı!**

*BMT Təhlükəsizlik Şurasının 28 il ərzində kağız üzərində qalan dörd məlum qətnaməsinin icrasına başlandı!*

*ATƏT-in Minsk qrupunun boş və mənasız fəaliyyəti donduruldu, onun görmədiyi işi Azərbaycan əsgəri yerinə yetirməyə başladı!*

Hüququn gücsüzlüyünü gücün hüququ əvəz etdi!

İkili standartlar dünyası öz mövqeyində qalaraq hadisələrin gedişini izləməyə başladı!

"Qordi düyünü"nü açmaq üçün qılınc qınından sıyrıldı!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusu yeni dövrün - qalibiyyət dövrünün şərəf salnaməsinin ilk abzaslarını yazmağa başladı!**

❖ ❖ ❖

Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində qazanacağı qələbənin ilk təməli hələ 1993-cü ildə, Qurtuluş günü qoyulmuşdu!

Düşmən antimilli qüvvələrin hakimiyyəti ələ keçirməsindən, ölkədə baş alıb gedən xaos və anarxiya vəziyyətindən, vaxtında ordu qurularaq torpaqların etibarlı müdafiəsinin təşkil edilməməsindən, habelə xəyanət əməllərindən istifadə edərək 20 faiz ərazimizi ələ keçirmişdi.

**Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı fəlakətdən qurtarmaq üçün qısa zaman kəsiyində bir-birindən vacib və gərəkli işləri görməli oldu!**

Yeni ərazilərin işğalının qarşısını almaq üçün müharibədə atəşkəs yaradıldı, əhalidəki külli miqdarda silah-sursat yığıldı, xaos, özbaşınalıq və qanunsuzluqların qarşısı alındı, ölkədə möhkəm və dönməz sabitlik yaradıldı, ordu quruculuğuna start verildi, "Əsrin müqaviləsi" neft kontraktı imzalandı, milli maraqlara əsaslanan daxili və xarici siyasət yeridilməsinə, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqinə yol açan islahatların keçirilməsinə başlandı.

Azərbaycana düşmən qüvvələr baş verən müsbət dəyişikliklərin qarşısının alınması üçün iki dəfə - 4 oktyabr 1994-cü il və 13-18 mart 1995-ci ildə dövlət çevrilişinə cəhd etdilər. Ulu Öndərimiz bütün bu cəhdlərin qarşısını qətiyyətlə aldı!

**Azərbaycan sürətli və dayanıqlı inkişaf yoluna qədəm qoydu. Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev Azərbaycanı inkişafın yeni mərhələsinə yüksəltdi.**

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərindən sonra Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə salınması, Azərbaycanın beynəlxalq logistika mərkəzinə çevrilməsi ölkənin iqtisadi qüdrətini və siyasi nüfuzunu əhəmiyyətli dərəcədə artırdı.

Güclü ordu yaradıldı və ən müasir silahlarla təchiz olundu. Hücum diplomatiyasına start verildi, beynəlxalq qurum və təşkilatlarda erməni yalanlarının ifşası gücləndirildi, Azərbaycan həqiqətləri geniş yayıldı, haqq işimizi dəstəkləyənlərin, dostlarımızın sayı xeyli artdı.

Azərbaycan beynəlxalq tədbirlərin, mötəbər idman yarışlarının keçirildiyi arzuolunan məkana çevrildi, yeni vətənpərvər gənclər nəsli yetişdirildi, neft kapitalının insan kapitalına çevrilməsi sahəsində uğurlu addımlar atıldı.

**Cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasəti, beynəlxalq təşkilatlarda apardığı səmərəli iş, nəyi, nə vaxt və necə etmək məharəti müstəqil Azərbaycanı güclü və nüfuzlu dövlətə çevirdi!**

**İlham Əliyevin səyləri nəticəsində ölkə daxilində düşmənə qarşı mübarizədə milli birlik yarandı, bütün siyasi partiyalar iqtidarı dəstəklədi.**

*Düşmən ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə gedən danışıqlar prosesini uzadır, ərkəsöyünlük edir, ona qarşı sanksiya və təzyiq göstərilməməsindən ruhlanaraq özünü əmin və yekəxana aparır, bizi mövcud reallıqlarla barışmağa çağırırdı...*

*Hətta sonda o qədər qudurdu ki, baş nazir Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" söyləməklə, əslində, sülh yolu ilə torpaq qaytarmayacağını bəyan etdi.*

Aprel müharibəsində Azərbaycanın verdiyi dərs və etdiyi xəbərdarlıqlardan da nəticə çıxarılmadı.

**Tovuz hadisələrində isə Ermənistan həddini aşdı, Azərbaycanın strateji boru kəmərləri və dəmir yolu xəttinin keçdiyi əraziləri ələ keçirmək üçün Qarabağdan kənar ərazilərimizə hücum etdi, kəndlərimizi top atəşinə tutdu, təxribatçı dəstələr göndərərək bizi cavab atəşinə sövq etməyə çalışdı.**

*Məqsədi Azərbaycanı Ermənistan ərazisini atəşə tutdurmaqla Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını öz tərəfindən müharibəyə cəlb etmək idi.*

*Azərbaycan tərəfi bütün bu hiylə və təxribatlara uymadı, səbir və təmkin göstərdi.*

Ermənistan edilən bütün xəbərdarlıqlara heç bir məhəl qoymur, daha da quduzlaşırdı.

**Ali Baş Komandan cənab İlham Əliyev düşməni yerində oturtmaq üçün əks-hücum əmrini verdi.**

**Beləliklə, İkinci Qarabağ müharibəsi başladı!**

❖ ❖ ❖

Atəşkəs qüvvədə olduğu müddətdə dəfələrlə pozulub!

Ermənilər daim mülki əhalini hədəfə alıb, əkin-biçinlə məşğul olan Azərbaycan vətəndaşlarını yaralayıb, öldürüblər.

Atəşkəs dövründə erməni faşistləri 9 yaşlı ağdamlı Farizi, 13 yaşlı tovuzlu Aygünü də qətlə yetiriblər.

Xislətləri budur...

Aprel müharibəsində də belə oldu, atəşkəs pozuldu, atışma gücləndi və dörd gündən sonra hərbi əməliyyatlar dayandırıldı.

Sentyabrın 27-də də atəşkəs pozulmuş, təmas xəttinin bir neçə nöqtəsində silahlar dillənmişdi...

**Prezident İlham Əliyevin Azərbaycan televiziyası ilə xalqa müraciətində isə biz artıq vətənin ərazi bütövlüyünün bərpası uğrunda yeni müharibənin başlandığını öyrəndik!**

**Bu, İkinci Qarabağ müharibəsi idi!**

Ali Baş Komandan təmkinlə, inamla, qətiyyətli səslə Azərbaycanın mövqeyini bir daha xatırlatdı: *"Biz öz torpaqlarımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpaqlarında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir".*

Sonra hərbi əməliyyatların elə ilk günündə qazanılan uğurlara işarə etdi. Həm də böyük zəfərin anonsunu irəlicədən verdi: *"Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"*

Müharibənin davam etdiyi müddətdə dövlət başçısı sistemli şəkildə xalqa müraciət etdi, döyüşlər, qazanılan qələbələr, azad olunan kənd, qəsəbə və şəhərlər barədə dəqiq məlumatlar verdi. Düşmənin itkilərini xatırlatdı!

*Hər dəfə onun çıxışını həsrətlə, intizarla gözləyirdik!*

*Bilirdik ki, bizə daim şad xəbərlər verəcək, düşmənə endirilən sarsıdıcı zərbələrdən, geri qaytarılan yaşayış məntəqələrindən söhbət açacaq!*

*Xalqımızı da, Azərbaycanın dostlarını da sevindirəcəkdir!*

*Müharibənin son gününədək Prezidentimiz xoş xəbərlər müjdəçisi oldu!*

**Cənab İlham Əliyev təkcə xalqımızın istədiyini etmirdi, həm də etdikləri barədə açıq danışaraq ürək sevindirən məlumatlar verirdi.**

**Bütövlükdə dövlət başçısı İlham Əliyev 44 günlük Vətən müharibəsində üç mühüm istiqamətdə gərgin və yorulmaz fəaliyyət göstərdi.**

*Birincisi, hərb meydanında.*

Cənab İlham Əliyev bu müharibəyə hakimiyyətə gəldiyi ilk gündən hazırlaşırdı.

Əks-hücum əmrini verəndə artıq torpaqların işğaldan azad olunması zamanının yetişməsi qənaətinə gəlmişdi.

Adətən, müharibə zamanı ən çətin, ən məsuliyyətli, bəzən isə ən riskli qərarları Ali Baş Komandan qəbul edir!

Çünki son söz sahibi odur!

Uğurun da, uğursuzluğun da ən böyük yükünü və məsuliyyətini məhz baş Sərkərdə daşıyır!

**Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev hərbi əməliyyatlara qüsursuz, ən yüksək səviyyədə rəhbərlik etdi və onun bu məharəti son nəticədə möhtəşəm Zəfərdə öz əksini tapdı!**

*İkinci fəaliyyət sahəsi informasiya müharibəsi idi!*

Müasir dövrdə informasiya müharibəsinin gedişi və nəticələri hərbi əməliyyatlara ciddi şəkildə təsir edir.

Dünya erməniliyinin, ATƏT-in Minsk qrupu sədrlərinin təmsil etdikləri ölkələrdəki güclü erməni diasporlarının mövcudluğu informasiya müharibəsində üstünlük qazanılmasının əhəmiyyətini qat-qat artırırdı.

**Cənab İlham Əliyev informasiya müharibəsində təkbaşına çarpışdı.**

**Satılmış dünya KİV-i, telekanalları və informasiya agentliklərinin özlərini "prokuror" kimi aparan müxbirləri üzərində parlaq qələbə qazandı.**

**Onların qərəzli, qeyri-obyektiv tərəf tutan olduqlarını faktlarla özlərinə sübut etdi, feyk xəbərlərin yalan və uydurma olduğunu açıb göstərdi!**

*Üçüncü diplomatiya sahəsi idi.*

Biz diplomatiya müharibəsinin detallarını gözlərimizlə görə bilmirdik, yalnız Prezidentimizin üstüörtülü şəkildə söylədiklərindən hadisələrin gedişi barədə xəbər tuturduq.

Bilirdik ki, Ermənistanın baş naziri Paşinyanın yalamadığı daban, zəng edib yalvarmadığı dövlət başçısı qalmayıb.

**Lakin cənab İlham Əliyev bütün bu xahiş, hətta təzyiq cəhdləri qarşılığında bircə tələb irəli sürüb:**

**- Ermənistan ordusunun Azərbaycan ərazilərindən çıxarılması barədə qrafik təqdim olunmayana qədər hərbi əməliyyatlar dayandırılmayacaqdır!**

*Məhz Müzəffər Ali Baş Komandanın dediyi kimi də oldu!*

**Beləliklə, üç cəbhənin üçündə də cənab İlham Əliyev qalib gəldi!**

❖ ❖ ❖

Sentyabrın 27-də Azərbaycanın başladığı müharibə təkcə haqq işi, ədalət uğrunda başlanan müharibə deyildi!

Bu müharibə həm də dünya müharibələri tarixində yeni bir müharibə, XXI əsrin ən yeni müharibəsi kimi qiymətləndirilən müharibə oldu!

Bu müharibə pilotsuz uçuş aparatlarının həlledici rol aldığı, ən müasir silahlarla ən dəqiq zərbələr endirildiyi bir müharibə idi!

Bu müharibədə düşmən siçan kimi girməyə deşik axtarırdı, lakin onu tapanda belə ölümdən yaxa qurtara bilmirdi: nə səngərdə, nə zirehli texnikalarda, nə də beton bunkerlərdə!

Bu müharibə bütün dünya üçün nümunəyə çevrilən, hətta dünyanın ən güclü orduya malik dövlətlərinin belə hərbi əməliyyatlarda tətbiq edilən yeni taktika və strategiyanın öyrənildiyi və özlərində tətbiqi üçün hərbi islahatlara rəvac verən müharibə oldu!

Bu müharibə Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzunmüddətli hazırlığının, hərbi sahədəki uzaqgörənliyinin təsdiqinə çevrilən yeniliklərin, zəfərə çatdıran möcüzəli qələbələrin yekunu, ikili standartların, səmərəsiz qətnamə və qərarların, mənasız danışıqların məğlub edildiyi, ikiəsrlik Qarabağ münaqişəsinə qələbə ilə son qoyulduğu müharibə oldu!

Bu müharibə həm də qalib millət adına Azərbaycan xalqının, məğlubedilməz ordu tituluna Azərbaycan Ordusunun layiq olduğunu bütün dünyaya sübut etdi!

❖ ❖ ❖

Xalqımız Vətən torpaqlarının işğaldan azad edilməsi üçün Azərbaycan Ordusuna veriləcək "İrəli!" əmrini uzun müddət, həm də səbirsizliklə gözləmişdi!

Xalq müqəddəs amal uğrunda müharibənin başlanmasını, azğın düşməndən viran qoyulmuş kənd və şəhərlərin, yaşayış məskənlərinin, məscid və tarixi abidələrin qisasının alınacağı günü qəzəblə, hiddətlə gözləmişdi!

Öz Prezidentinə inanaraq gözləmişdi!

Ali Baş Komandanına güvənərək gözləmişdi!

Nəhayət, uzun illər boyu gözlənilən gün gəlib çatdı!

"İrəli!" əmri ilə Azərbaycan Ordusu yayından çıxmış ox kimi şığıdı!

Düşmənin gözünün oxuna, ürəyinin xəncərinə çevrildi!

44 gün ərzində zəfər hücumunu bir an da olsun belə dayandırmadı!

44 gün ərzində bir qarış belə geri çəkilmədi!

Yalnız irəli, irəli getdi!

**Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın bütün əmrlərini rəşadətlə, qəhrəmanlıqla yerinə yetirdi.**

**Azərbaycan Prezidenti İlham Əliyev xalqın etimadını doğruldaraq işğal edilmiş torpaqları qaytaracağı barədəki vədini şərəflə yerinə yetirdi!**

*Düyünlənmiş yumruq düşmənin başında dəmirə çevrildi, onun başını əzdi, belini qırdı, diz üstə çökdürdü!*

*Qəhrəman millətin, qəhrəman əsgər və zabitlərin, qalib xalqın kim olduğunu bütün dünya çox qısa bir müddətdə gördü və bildi!*

**27 sentyabrda hünər müharibəsi başladı!**

**Qeyrət müharibəsi başladı!**

**Şərəf müharibəsi başladı!**

**Zəfər müharibəsi başladı!**

**Qəhrəmanlıq müharibəsi başladı!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və sərkərdəliyi ilə bu müharibə qeyrətlə, hünərlə, şərəflə, zəfərlə və qəhrəmanlıqla başa çatdı!**

**Bəxtiyar SADIQOV**

# Milli qürur günü



**Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan bu gün milli qürur gününü qeyd edir. Vətəninin ərazi bütövlüyü, xalqının bir qərinəlik həsrəti, bütövlüyümüz, birliyimiz üçün qanından, canından keçib, şəhidlik zirvəsinə ucalan igid oğullarımızın Anım günü, milli iradənin, milli ruhun, ləyaqətin təntənəsi günüdür.**

Bütün xalq ayaqdadır, şəhidlərimiz qürurla, fəxarətlə anılır. Bu, ölməz qəhrəmanların əziz xatirəsini hər zaman uca tutan Azərbaycan xalqının şəhid ruhlarına ali ehtiramının göstəricisidir.

27 Sentyabr həm də qüdrətli Azərbaycanın ən yeni tarixinin - şanlı Zəfər salnaməsinin, 30 illik işğala və ikiəsrlik tarixi ədalətsizliyə son qoyan 44 günlük Vətən müharibəsinin başlandığı gündür. Azərbaycan xalqının Müzəffər Ali Baş Komandanı ətrafında sıx birləşib illərlə düşmən tapdağı altında qalan torpaqlarımızın azadlığı uğrunda səfərbər olduğu tarixdir.

## "Dəmir yumruq" əməliyyatı niyə və necə başladı?

Tarixin bütün dövrlərində Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərqərar olmasının tərəfdarı olan Azərbaycan hətta əzəli torpaqları 30 ilə yaxın müddətdə işğal altında olsa belə fikrindən daşınmayıb. Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində yalnız sülh yolu ilə həll edilməsi üçün bütün imkanlara əl atan Azərbaycan dövləti hər zaman ikili standartlarla, təzyiqlərlə üz-üzə qalıb.

Hətta qəbul etdiyi qərarlarının bir həftənin içərisində reallaşmasını təmin edən BMT Təhlükəsizlik Şurasının bu məsələdə acizlik nümayiş etdirməsi də beynəlxalq birliyin həm öz qərarlarına, həm də Azərbaycana necə laqeyd münasibət sərgilədiyinin göstəricisi idi. Amma zaman göstərdi ki, BMT Təhlükəsizlik Şurasının 28 il icrasını təmin etmədiyi 4 qətnaməsini Azərbaycan öz gücünə, özü də cəmi 44 günə həll etdi. Qüdrətli Sərkərdə kimi bunu bir daha dünyaya nümayiş etdirən İlham Əliyev yaratdığı qüdrətli ordu ilə tarixi ədaləti bərpa edib, münaqişəyə son qoydu.

Bu bir həqiqətdir ki, Azərbaycan hər zaman sülhün tərəfdarı olsa da, işğalçı Ermənistan status-kvonun saxlanması üçün müxtəlif bəhanələr gətirib danışıqlar masasına oturmurdu. Bu azmış kimi dəfələrlə törətdikləri təxribatlar nəticəsində həm hərbçilərimiz, həm də dinc əhalimiz şəhid olurdu və ya ağır yaralanırdılar.

Lakin bütün bunlara baxmayaraq, Azərbaycan Prezidenti deyirdi ki, sülh yolu ilə məsələ həll olunmasa, biz müharibə yolu ilə münaqişəni həll edəcəyik. Buna görə də dövlət başçısı tərəfindən bütün bu illər ərzində Azərbaycanın inkişafı, güclü iqtisadiyyata, qüdrətli orduya sahib olması istiqamətində gərgin və məqsədyönlü iş aparıldı.

Prezident İlham Əliyevin xüsusi nəzarəti və təşəbbüsləri ilə təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən strukturlardan, ilk növbədə, ordunun yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi üçün gərgin, səmərəli və məqsədyönlü iş aparıldı. Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşıda dayanan ən əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsi idi. Bundan irəli gələrək Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində Silahlı Qüvvələrin tərkibindəki bütün qoşunların döyüş imkanlarının artırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırıldı. Bu mənada cənab İlham Əliyevin rəhbərliyi ilə əldə olunan inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırması idi. Dövlət başçısı Ali Baş Komandan kimi ordumuzu qarşısında dayanan bütün vəzifələri yerinə yetirməyə qadir mükəmməl hərbi gücə çevirdi. 2016-cı ilin aprel ayında Lələtəpə, 2018-ci ildə Günnüt döyüşləri zamanı Azərbaycan bu işğala öz gücünə son qoymaq iqtidarında olduğunu bütün dünyaya nümayiş etdirdi. Lakin Ermənistan bu döyüşlərdən də nəticə çıxarmadı.

Aktiv hərbi əməliyyatların başlaması birdən-birə baş vermədi. 2019-cu ilin avqust ayından sonra keçmiş Dağlıq Qarabağ problemi ətrafında cərəyan edən proseslərin məntiqi yekunu hərbi əməliyyatların bərpa olunmasına gətirib çıxardı.

Hakimiyyətə gəldikdən sonra problemin həllinə dair danışıqlara zidd açıqlamalar verən, formatın dəyişdirilməsindən, prosesə separatçı rejimin cəlb olunmasından dəm vuran Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətini möhkəmləndirdikdən sonra verdiyi bəyanatlar göstərdi ki, Ermənistanın həyata keçirdiyi siyasət, ümumiyyətlə, danışıqların mahiyyətinə və məzmununa uyğun deyil.

Bunun ardınca "Qarabağ Ermənistandır" sərsəm bəyanatı, Azərbaycanın qarşısında qoyulan 7 şərt, "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyasının irəli sürülməsi kimi qeyri-ciddi addımlar bu ölkə ilə sivil danışıqları tamamilə mənasız hala gətirdi. Üstəlik, cəbhə xəttinə yeni hərbi qüvvələr cəmləməsi Ermənistanın yeni işğalçılıq niyyətlərindən xəbər verirdi. Paşinyanın sərxoş olub Şuşada yallı getməsi, qondarma rejimin andiçmə mərasiminin Şuşada keçirilməsi, habelə bu rejimin "parlamentinin" Şuşaya köçürülməsi göstərirdi ki, Ermənistan danışıqlar prosesində sadəcə imitasiya edir.

2020-ci il sentyabrın 27-də isə Ermənistan Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini şiddətli artilleriya atəşinə tutmaqla hərbi qulluqçularla yanaşı, 11 dinc sakinin, o cümlədən 2 uşağın ölümünə səbəb oldu. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmrini verdi - "dəmir yumruq" əməliyyatı başladı.

Həmin gün xalqa müraciətində Ali Baş Komandan hər kəsi birliyə çağırdı və dövlət-xalq-ordu vəhdəti milli həmrəyliyin təntənəsi oldu. Cənab İlham Əliyevin xalqa müraciətindəki mətinlik, qətiyyət onu göstərdi ki, qüdrətli Sərkərdə güclü ordusuna və arxasında dayanan Azərbaycan xalqına güvənir. Xalq isə hər zaman olduğu kimi, öz liderinə arxalanır və qələbə müjdəsini səbirsizliklə gözləyirdi.

Məhz bu dövrdə həm də Azərbaycana qarşı beynəlxalq təzyiqlər daha da gücləndi. Ermənipərəst dövlətlərin və bəzi beynəlxalq təşkilatların Azərbaycana göstərdikləri çox ciddi təzyiqlərə və təhdidlərə baxmayaraq, Ali Baş Komandan İlham Əliyev əsl diplomatik məharətini nümayiş etdirərək bir daha dünyaya səs saldı. Azərbaycan Prezidenti müharibə günlərində verdiyi müsahibələr kontekstində Ermənistana, onun havadarlarına və dünya erməniliyinə informasiya savaşında da qalib gəldi. 44 günlük İkinci Qarabağ müharibəsi dövründə Prezident İlham Əliyev 30-a yaxın xarici KİV-ə müsahibə verdi. Bu müsahibələrdə dövlət başçısı Azərbaycanın haqlı mövqeyini, müharibənin başlanma səbəblərini sistemli şəkildə, siyasi uzaqgörənliklə auditoriyanın diqqətinə çatdırdı. Məhz bu müsahibələr Azərbaycanın informasiya savaşında da qələbəsini təmin etdi.

Amma bütün bunların fonunda Azərbaycana mənəvi dəstək verən ölkələr də konkret olaraq ortaya qətiyyətli mövqe qoydular. Qardaş Türkiyə və Pakistanın sərgilədiyi mövqeni xalqımız heç zaman unutmayacaq. Məhz bu dost ölkələrin Azərbaycana göstərdikləri mənəvi dəstəyin nəticəsi idi ki, Azərbaycanın hər yerində 3 dost ölkənin dövlət bayraqları birlikdə dalğalanırdı.

## Azərbaycanın haqq savaşı və Ermənistanın hərbi kapitulyasiyası

Öz ərazi bütövlüyünün bərpası uğrunda haqq savaşına başlayan Azərbaycanın qüdrətli ordusu tarixi torpaqlarımızda XXI əsrin müasir döyüş taktikası ilə düşmənə elə zərbələr vurmağa başladı ki, erməni əsgəri silahını, bayrağını, şərəfini də qoyub qaçmaq məcburiyyətində qaldı. Bu uğurlu döyüşlər hər kəsdə ruh yüksəkliyi yaratdı.

Ali Baş Komandanın xalqa müraciətləri, əldə olunan döyüş nailiyyətləri ilə yanaşı, xalqımızı qarşıda gözləyən daha genişmiqyaslı hərbi zəfərlərin müjdəsi idi. Tək Azərbaycanda deyil, dünyanın dörd bir tərəfində milyonlarla həmvətənimizin sevinc gözyaşları, böyük qürur və inam hissi ilə dinlədikləri bu müraciətlər həm də yağı düşmənə sərt şapalaq, təcavüzkarların himayədarlarına isə xəbərdarlıq idi.

"Dəmir yumruq" əməliyyatını uğurla icra edən Azərbaycan Ordusu cəmi 44 günə düşməni diz çökdürdü. Rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən başlatdığı hücum əməliyyatları nəticəsində Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı rayonlarımızı, şəhər və kəndlərimizi bir-birinin ardınca azad etdi. Əməliyyatlar başlanandan qısa müddət sonra Suqovuşanda, Cəbrayılda, Hadrutda, Füzulidə, Zəngilanda, Qubadlıda, xalqımızın milli kimliyinin təsdiqi olan Xudafərin körpüsündə Azərbaycan bayrağı dalğalanmağa başladı. İranla dövlət sərhədinin 132 kilometrlik hissəsinə nəzarət tam təmin olundu. Laçın, Xocavənd və Tərtər rayonlarının kəndləri də daxil olmaqla, 300-ə yaxın yaşayış məntəqəsi işğalçılardan təmizləndi.

Prezident İlham Əliyev müsahibələrinin birində demişdi ki, Şuşasız bizim işimiz yarımçıq olar. Çünki Şuşa bizim döyünən ürəyimiz, qürur mənbəyimiz, qeyrət qalamızdır. Əgər 1992-ci ildə Azərbaycanda mərkəzi hakimiyyət güclü olsaydı, siyasi çəkişmələr baş verməsəydi, Şuşa heç vaxt işğal olunmazdı. Bu baxımdan Vətən müharibəsində Azərbaycan ictimaiyyəti Şuşanın azad edilməsini böyük səbirsizliklə gözləyirdi.

2020-ci il noyabrın 8-də, Dövlət Bayrağı günü ərəfəsində qədim Azərbaycan şəhəri, milli mədəniyyətimizin, milli musiqimizin beşiyi, qürur ünvanımız olan Şuşa şəhərinin işğaldan azad edilməsi İkinci Qarabağ müharibəsində bütün Azərbaycan dövlətçiliyinin tarixinə qızıl hərflərlə düşən hadisə oldu. Təsadüfi deyil ki, cənab İlham Əliyevin həmin gün Şəhidlər xiyabanından xalqa müraciətində Şuşanın azad olunduğunu bəyan etməsi Azərbaycanın hər yerində böyük coşqu ilə qarşılandı.

Ərazilərini işğaldan təmizləməklə Azərbaycan Ermənistanı, ilk növbədə, BMT-nin qətnamələrini yerinə yetirməyə məcbur etdi. Öz xoşu ilə vaxtilə qətnamələrin tələblərini yerinə yetirməyən işğalçı qəhrəman ordumuz tərəfindən cəzalandırılaraq torpaqlarımızdan qovuldu.

Ermənistanın hərbi kapitulyasiyası ilə başa çatan bu savaşın sonunda, noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan birgə Bəyanat imzalayırlar. Sənədə əsasən, bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Qarabağ münaqişəsi Ermənistanın hərbi kapitulyasiyası ilə başa çatdı, ATƏT-in Minsk qrupu, "status" iddiaları tarixin arxivinə göndərildi.

Sənədə əsasən, 2020-ci il noyabrın 15-dək Kəlbəcər rayonunun, noyabrın 20-dək Ağdam rayonunun, dekabrın 1-dək isə Laçın rayonunun Azərbaycana qaytarılması tələbi qoyuldu.

Noyabrın 20-də Ağdam rayonunun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri Azərbaycana təhvil verildi. Ermənistanın xahişi ilə noyabrın 15-də boşaldılmalı olan Kəlbəcər ayın 25-də şəhər də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Dekabrın 1-də Laçın şəhəri və 126 yaşayış məntəqəsi Azərbaycana qaytarıldı.

Beləliklə, 30 ilə yaxın bir müddətdə Azərbaycan xalqının qəlbindən ağır daş kimi asılan torpaq həsrətinə son qoyulması, işğal altında olan ərazilərin azad edilməsi uğrunda 44 gün davam edən Vətən müharibəsi məhz əsl sərkərdə olduğunu sübuta yetirən cənab İlham Əliyevin gərgin və yorulmaz əməyi, vaxtında yaradılmış güclü iqtisadiyyat, mükəmməl ordu quruculuğu, Azərbaycana münasibəti köklü şəkildə dəyişmiş beynəlxalq siyasət və özünü "dəmir yumruq" kimi göstərmiş xalq-iqtidar birliyi əsasında şanlı qələbə ilə başa çatdı.

Məhz qalib Sərkərdənin diplomatik məharətinin nəticəsində Ermənistan onilliklərlə möhkəmləndiyi, "keçilməz" istehkamlar qurduğu Ağdamı, Laçını, Kəlbəcəri bir güllə atılmadan Azərbaycana qaytardı. Bu, Baş Komandan və qətiyyətli Lider prinsipiallığının, cəsarətinin təntənəsi idi.

Bu tarixi Qələbə təkcə torpaqların geri qaytarılması deyil, ilk növbədə, məğlub xalq sindromundan qurtulma, milli ləyaqətimizin bərpa olunması, Müzəffər Xalq, Qalib Dövlət deməkdir.

## Sülh prosesi, erməni təxribatı, "Qisas" və qətiyyətli cavab əməliyyatları

Qarabağı "dəmir yumruq"la azad edən Ali Baş Komandan regionda yeni reallıqlar yaratdı və Ermənistanı sülhə çağırdı. Lakin məğlub Ermənistan əvvəlcə Azərbaycan Prezidentinin sülh çağırışına razılıq versə də, bir müddətdən sonra yenə də əsl xislətini nümayiş etdirməklə müqaviləni imzalamaqdan boyun qaçırdığını göstərdi.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə 4 dəfə üçtərəfli görüş təşkil edildi. Ermənistanın baş naziri Nikol Paşinyan sülh sazişinin bağlanmasına razılığını versə də, ölkəsinə qayıdan kimi dövlət sərhədlərində təxribatların törədilməsi bir daha göstərdi ki, bu ölkə regionda sülhün, təhlükəsizliyin təmin olunmasında maraqlı deyil.

Elə avqustun 3-də və sentyabrın 12-13-də baş verən erməni təxribatı da bir daha bunları təsdiqlədi. Belə ki, avqustun 3-də Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvlərinin Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli nətisəsində bir hərbi qulluqçumuz şəhid oldu. Buna cavab olaraq Azərbaycan Ordusu "Qisas" cavab əməliyyatı keçirdi və nəticədə Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ sisteminin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər Azərbaycan Ordusunun nəzarəti altına keçdi.

Sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətdi. Azərbaycan Ordusu tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində döyüş toqquşması baş verdi. Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısının alınması zamanı Azərbaycan Ordusunun 80 hərbi qulluqçusu qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı. Qarşı tərəf isə bundan dəfələrlə artıq itki verdi. Bütün şəhidlərimiz baş tacımız, əbədi qürur mənbəyimizdir. Hər bir Azərbaycan oğlunun vəzifəsi Vətəni canı ilə, qanı ilə qorumaqdır. Buna görə də hamı lazım gələndə səfərbər olur.

Ermənistan mütəmadi olaraq təxribatlara əl atır, mövqelərimizi atəşə tutur. Azərbaycan Ordusu isə hər dəfə düşmənə layiqli cavab verir və hakim yüksəkliklərdə qərarlaşmaqla şəraitə nəzarət edir.

Prezident İlham Əliyev isə bütün çıxışlarında Ermənistana və onun havadarlarına xəbərdarlıq etməklə bu ölkəni sülhə dəvət edir. Sentyabrın 21-də Laçın şəhərində bayrağımızı ucaldan Ali Baş Komandan bir daha təxribatçılara səslənərək dedi ki, heç kim Azərbaycana təzyiq göstərə bilməz. Cənab İlham Əliyev dedi ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Ermənistanla sülh müqaviləsi imzalamaq istəyir. Ancaq əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabı veriləcək. Dövlət başçısı "Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz" deyərək bir daha Ermənistana, onun havadarlarına çatdırdı ki, "dəmur yumruq" işə düşsə, Ermənistan daha da acınacaqlı duruma düşəcək.

## Quruculuq və inkişaf, Heydər Əliyev Fondunun uğurlu missiyası

Ermənistanın istənilən təxribatına baxmayaraq, Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş tikinti-quruculuq işlərini davam etdirir. Artıq Zəngilanın Ağalı kəndinin sakinlərinin 30 ildən sonra öz doğma yurdlarına qayıdışı ilə Böyük qayıdış planına start verilib.

Bu gün Azərbaycan dövləti yalnız öz gücü hesabına işğaldan azad edilmiş şəhər və rayonlarını, kəndlərini yenidən qurur. Düşmənin darmadağın etdiyi bu ərazilərdə su elektrik stansiyaları, elektrik enerjisi stansiyaları, hava limanları, dəmir yolu xətləri, avtomobil yolları, körpülər, tunellər, magistral su xətləri, müasir yaşayış kompleksləri tikilir, sosial-iqtisadi infrastrukturlar, sənaye parkları və aqroparklar yaradılır.

2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılmışdı. 2022-ci ilin dövlət büdcəsində də bu həcmdə vəsait nəzərdə tutulmuşdu. Lakin məlum olduğu kimi, bir neçə ay öncə dövlət büdcəsinin gəlir və xərcləri artırıldı. Artan büdcə gəlirlərinin 470 milyon manatı işğaldan azad olunmuş ərazilərin bərpasına yönəldildi. Beləliklə, son iki ildə işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılmasına ümumilikdə 4 milyard 870 milyon manat vəsait ayrılıb. Gələn ilin dövlət büdcəsindən isə bu məqsədlə 3 milyard manat vəsaitin ayrılması planlaşdırılır.

Ən vacibi odur ki, Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzuru öz gücü, öz maliyyəsi hesabına bərpa edir. Bu baxımdan 2021-2022-ci illərdə bir sıra layihələrin icrasının başa çatdırılması, o cümlədən Şuşaya gedən Zəfər yolunun salınması, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Zəngilanda Ağalı kəndinin bərpası, azad olunmuş bütün ərazilərdə ən müasir texnologiyalara və idarəetməyə əsaslanan yarımstansiyaların inşası, dağ çayları üzərində elektrik stansiyalarının tikilməsi Azərbaycanın iqtisadi gücünün ifadəsidir.

Bu prosesdə Heydər Əliyev Fondunun işğaldan qurtulmuş torpaqlarımızda mədəni-dini irsimizi xalqa yenidən qaytarmaq missiyası xüsusi vurğulanmalıdır. Artıq xeyli müddətdir ki, Birinci vitse-prezident, fondun rəhbəri Mehriban xanım Əliyevanın göstərişi ilə 30 ilə yaxın düşmən tapdağında qalan, dağıdılan, məhv edilən, təhqir olunan, murdarlanan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesinə başlanıb. İndiyə qədər minlərlə abidəyə nəfəs verən Heydər Əliyev Fondunun budəfəki layihəsi Qarabağdakı dini irsimizin, məscidlərimizin bərpasına həsr olunub.

Ümumiyyətlə, Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəni və dini abidələrin qorunub saxlanması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə deyə bilərik ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpasını həyata keçirməklə tariximizə çox böyük töhfə verir.

Vətən müharibəsinin başlanmasından ötən iki il uzun zaman kəsiyi sayıla bilməz. Amma bu müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası onilliklərə bərabərdir. İki il öncə təsəvvür belə edə bilməzdik ki, cəmi bir neçə aya Qarabağ və Şərqi Zəngəzur möhtəşəm tikinti meydanına çevrilərək qələbəmizi və dövlətimizin gücünü bütün dünyaya bəyan edəcək.

## Şəhid ailələri və qazilərə dövlət qayğısı

Vətən müharibəsi dövründə olduğu kimi, bu gün də Azərbaycan xalqı, dövlət tərəfindən şəhid ailələrinə, qazilərimizə dəstək və yardım göstərilir. Prezident İlham Əliyev bütün dövlət qurumları qarşısında bu həssas təbəqəyə aid olan insanların problemlərinin həllini bir nömrəli vəzifə kimi müəyyən edib.

Vətən müharibəsi dövründə və müharibədən sonrakı mərhələdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və onun üzv təşkilatları və həmkarlar ittifaqı komitələri daim dövlətimizin və ordumuzun yanında olub, milli həmrəylik nümayiş etdiriblər. Vətənin azadlığı, ərazi bütövlüyü uğrunda vuruşan hərbçilərimizə, onların ailələrinə, qazi və şəhid ailələrinə diqqət və qayğı göstərilməsi başlıca istiqamətə çevrilib, Ali Baş Komandanın bütün addımlarını dəstəkləyərək şanlı ordumuza maddi və mənəvi yardım göstəriblər.

AHİK və üzv təşkilatları tərəfindən görülən tədbirlərə nəzər yetirsək, görərik ki, təşkilat müxtəlif dövrdə AHİK və onun üzv təşkilatları tərəfindən Vətən müharibəsi və sonrakı dövrdə 10 milyon 50 min 484 manat vəsait xərclənib. O cümlədən Vətən müharibəsi dövründə İcraiyyə Komitəsinin qərarları ilə AHİK və onun üzv təşkilatları tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fondunun hesabına 1 milyon 36 min 815 manat ianə edilib. Naxçıvan Muxtar Respublikasında yaşayan, döyüşlər nəticəsində qəhrəmancasına həlak olmuş şəhid ailələrinə kömək göstərilməsi məqsədilə muxtar respublikanın Həmkarlar İttifaqları Şurasına 250 min manat, Qarabağ Dirçəliş Fonduna 1 milyon 217 min 650 manat vəsait, silahlı qüvvələrə və cəbhə bölgəsinə 2 milyon 320 min 864 manat, "YAŞAT" Fonduna 667 min 668 manat ianə edilib. Şəhid və qazi ailələrinə 3 milyon 600 min 475 manatlıq birdəfəlik yardım göstərilib.

AHİK tərəfindən 172 şəhidin 286 övladı himayəyə götürülüb. O cümlədən 2016-cı ilin Aprel və 2020-ci ilin Tovuz döyüşlərinin 23 şəhidinin 41 azyaşlı övladının hər birinə 18 yaşına çatana qədər hər ay 150 manat ödənilməkdədir. Sahə həmkarlar ittifaqları tərəfindən 2022-ci ilin 6 ayı ərzində şəhid və qazi ailələrinə 588 yollayış verilib. AHİK tərəfindən hərbi vəzifələrini yerinə yetirərkən və ya həqiqi hərbi xidmət nəticəsində əlil olmuş 400 nəfərin 4 ay ərzində sanatoriya-kurort müəssisələrində müalicəsi və istirahətlərinin təşkili üçün 357 min manat vəsait ayrılıb.

Bir sözlə, AHİK Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə durmadan əməl edərək üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə davam edir.

*Əldə etdiyimiz şanlı Zəfərin kökündə, əlbəttə ki, xalqımızın vahidliyi, birliyi dayanır. Qədim ədəbiyyatımız, dastanlarımız, folklorumuz vasitəsilə ata-babalarımız hər zaman bizi birliyə səsləyib. Məhz bu birlik bizi qələbədən-qələbəyə səsləyib. Bu gün xalqımız öz dövlətinin və onun başçısı cənab İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşərək daha böyük zirvələrə doğru inamla irəliləməkdədir. İnanırıq ki, bu birliyimiz sayəsində müstəqilliyimiz əbədi olacaq, dövlətimiz daha da güclənəcək.*

**Səttar MÖHBALIYEV,**
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***








# Zəfərdən quruculuğa

Azərbaycan torpaqları işğal olunduğu gündən xalqımız bu hərbi təcavüzlə barışmayacağını ən müxtəlif səviyyələrdə bildirsə də, vaxtın uzanması ermənilərdə arxayınçılıq yaradaraq ərazilərin qaytarılmaması illüziyasına olan inamlarını artırırdı.

Ümummilli Lider Heydər Əliyev xalqın təkidli çağırışı ilə hakimiyyətə gəldiyi ilk günlərdən dəfələrlə bir qarış da Azərbaycan torpağının düşmənə verilməyəcəyini ən yüksək tribunalardan səsləndirmişdir. Bu prinsipial mövqe Prezident İlham Əliyev tərəfindən də davamlı olaraq vurğulanmışdır. Lakin heç bir reallığı qəbul etməyən erməni siyasi liderləri bu "qırmızı xətti" anlamaq istəmirdilər.

Uzun müddət davam edən diplomatik danışıqlar artıq dalana dirənirdi. Otuz ilə yaxın fəaliyyət göstərən ATƏT-in Minsk qrupu həmsədr ölkələrin diplomatları karyeralarında yüksəlsələr də, münaqişənin həllində heç bir nailiyyətə imza ata bilmirdilər. Ermənistanda isə Qarabağ klanını devirməyə nail olmuş "demokrat" hakimiyyət eyforiyada idi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 3 oktyabr 2019-cu ildə Rusiya Federasiyasının Soçi şəhərində Valday Beynəlxalq Diskussiya Klubunun 15-ci illik iclasında plenar sessiyada "Qarabağ Azərbaycandır və nida" kəlmələri ilə Azərbaycan torpaqlarının bir qarışını belə güzəştə getməyəcəyini bəyan etmişdi. Bu ifadə qələbə əzmimizin, doğma yurdlarımız uğrunda haqq mübarizəsinin simvoluna çevrildi. Hər kəs haqq savaşına köklənmişdi. Hamı bilirdi ki, Azərbaycan Ordusu hücuma keçsə, mütləq qələbə qazanacaq.

## Məqam ustalığı və düşmənə verilən dərs

Uzun müddət idi ki, danışıqlar prosesi öz durğunluq dövrünü yaşayırdı. 2019-cu ilin may ayında Şuşanın işğalını bayram kimi qeyd etmək məqsədilə Ermənistanın baş naziri Nikol Paşinyanın Cıdır düzündə yallı getməsi Azərbaycan xalqının qəzəbinə düçar oldu. "Qarabağ Ermənistandır və nöqtə" deyərək xalqımızın səbir kasasını dolduran Paşinyan bununla diplomatik yolun tükəndiyini də göstərdi. Sonralar erməni siyasətçiləri bu addımın nə qədər yanlış olduğunu qeyd etsələr də, artıq gec idi.

12 iyul 2020-ci ildə Ermənistan-Azərbaycan sərhədinin Tovuz bölgəsində general Polad Həşimov başda olmaqla 12 nəfər hərbçimiz şəhid oldu. Ermənistanın bu təxribatının qarşısı alınsa da, çirkin əməlləri hələ də davam edirdi. Düşmən tərəfin siyasi hərbi rəhbərliyi "yeni müharibə, yeni ərazilər" deyərək revanşist şüarlarla gerçəklikdən nə qədər uzaq düşdüklərini göstərirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 24 sentyabr 2020-ci ildə pandemiya səbəbindən BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarına videoformat şəklində qatıldı. Dövlət rəhbərimiz yüksək kürsüdən dünyanın diqqətini bu münaqişəyə yönəldərək dedi: "2020-ci il iyulun 12-də Ermənistan dövlət sərhədi istiqamətində növbəti təxribata əl atmışdır. Azərbaycanın Tovuz rayonunun artilleriya atəşinə tutulması nəticəsində hərbçilərimiz və 76 yaşlı mülki vətəndaşımız həlak olmuş, mülki infrastruktura isə ciddi zərər dəymişdir.

Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna zərər vurmaqdan ibarət idi. Bununla yanaşı, onlar Ermənistanda artmaqda olan iqtisadi-sosial problemlərdən xalqın diqqətini yayındırmağa çalışdılar. Lakin Azərbaycanın cavabı qətiyyətli oldu və Ermənistan heç bir məqsədinə nail ola bilmədi. Ermənistan növbəti dəfə hərbi məğlubiyyətə uğradı. Ermənistan hərbi dəstək üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etməklə məğlubiyyətini etiraf etmiş oldu.

Bu yaxınlarda erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd etmişdir. 2020-ci il avqustun 23-də həmin dəstənin başçısı azərbaycanlı hərbçilər tərəfindən yaxalanmışdır. O, dəstənin azərbaycanlı hərbçi və mülki vətəndaşlara qarşı terror aktlarının planlaşdırdığını etiraf etmişdir".

Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Ermənistanın müdafiə naziri "yeni ərazilər uğrunda yeni müharibəyə" çağırır. Ermənistan Azərbaycanın böyük şəhərlərinə və mühüm mülki infrastrukturuna - Mingəçevir Su Anbarı və Bakının yaxınlığında yerləşən dünyanın ən iri neft-qaz terminallarından biri olan və onlarca dövlətin enerji təhlükəsizliyini təmin edən Səngəçal terminalına zərbə endirməklə hədələyir.

Prezident öz çıxışında Azərbaycan tərəfinin işğalla barışmayacağına, həmçinin münaqişənin beynəlxalq hüquq çərçivəsində həll olunmasına çağırışlar etdi. Lakin eyforiyada olan Ermənistan rəhbərliyi öz revanşist və təxribatçı hərəkətlərini davam etdirdi. 26 sentyabr 2020-ci ildən başlayaraq bütün sərhəd boyunca Azərbaycana qarşı təxribatlar daha da geniş vüsət aldı.

Azərbaycan tərəfi öz müdafiə haqqını rəhbər tutaraq cəbhəboyu əks-həmlə əməliyyatına başlayaraq ölkə ərazisində qismən səfərbərlik elan etdi. Döyüş meydanında ordumuzla vuruşa bilməyən Ermənistan mülki əhalimizə qarşı qadağan olunmuş silahlardan istifadə etməklə onların kütləvi şəkildə ölümünə səbəb oldu.

Müharibənin başlanması Azərbaycan dövlətinin hərbi gücünü və potensialını ortaya qoydu.

## Azərbaycanın hərbi qüdrətinin artırılması dövlət siyasətinin əsas prioritetidir

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Silahlı qüvvələrin daha da modernləşdirilməsi və ən son hərbi texnologiyaların orduya cəlb edilməsi Prezident İlham Əliyevin siyasətinin strateji istiqamətlərindəndir. Xüsusilə qeyd edək ki, hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik olan Azərbaycanın Silahlı Qüvvələri döyüş hazırlığına görə nəinki MDB məkanında, hətta dünya ölkələri arasında ön sıralardadır. Ötən illər ərzində ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrdə aparılan modernləşmə islahatları və bunun nəticəsi olaraq baş verən keyfiyyət dəyişiklikləri dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin öz vədinə sadiqliyini təsdiq edir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizin keyfiyyət və kəmiyyət dəyişikliklərinə ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda da şahid olmuşdular.

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Silahlı Qüvvələri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. İldən-ilə artırılan büdcə vəsaitləri Silahlı Qüvvələrimizin hərbi imkanlarını da genişləndirir. Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsinə, müasir infrastrukturun yaradılmasına, hərbi qulluqçuların sosial müdafiəsinə, mənzil təminatının yaxşılaşdırılmasına, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə Prezident İlham Əliyev tərəfindən daim xüsusi diqqət yetirilir. Qürurverici haldır ki, Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla Silahlı Qüvvələrimizi əhəmiyyətli dərəcədə təchiz edə bilir. Bundan əlavə, hazırkı dövrdə silah və hərbi texnikaların satın alınması və hərbi məhsulların istehsalına dair bir sıra ölkələrlə müqavilələr imzalanaraq hərbi əməkdaşlıq əlaqələri də genişləndirilmişdir.

Ordu quruculuğu sahəsində aparılan bu siyasət 44 günlük savaşda özünü parlaq şəkildə göstərdi.

## Güclü ordu - Müzəffər Ali Baş Komandan

Azərbaycanın ərazi bütövlüyünün pozulması və Ermənistanın işğalçı siyasətinin dünyada tanıdılması istiqamətində uğurlu diplomatik iş aparan Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq böyük zəfərə imza atdı. Dağlıq Qarabağ kimi çox çətin problemi həll etdi, Ermənistanı, dünyadakı erməni diasporunu, erməni kilsəsini və onların havadarlarını diz çökdürərək reallığı qəbul etməyə məcbur etdi - işğala son qoyuldu. Müzəffər Ali Baş Komandan bununla tarixi ədaləti bərpa etdi.

Bu müharibə Azərbaycan-Türkiyə qardaşlığının da təntənəsinə çevrildi.

Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Şuşa və bir gün sonra 70-dən çox kənd, daha sonra isə Kəlbəcər, Ağdam və Laçın azad edildi. Bütövlükdə 300-dən çox yaşayış məntəqəsi düşməndən təmizləndi. Düşmən ordumuzun gücü qarşısında geri çəkilərək kapitulyasiya aktını imzalamağa məcbur oldu. 44 gün ərzində müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan böyük təzyiqlərin, təhdidlərin olmasına rəğmən, Azərbaycan zəfər çaldı. Xalqımız, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəni böyük qürur hissi ilə qeyd etdi.

Qalib xalqın hər bir fərdi qəhrəmandır. Vətən müharibəsində Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, "bizi tezliklə sağaldın, qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq". Bu haqq savaşında Azərbaycan xalqı öz böyüklüyünü, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruhu ifadə edərək tarixi missiyamızı yerinə yetirdik.

"Dəmir yumruq" birliyimizin rəmzidir. Azərbaycan xalqı yumruq kimi birləşib. Bu birlik əbədi olacaq. Bu birlik gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Dövlətin gücü Azərbaycan xalqının dəstəyindədir. Qazanılan bu tarixi qələbə bizə yeni imkanlar yaradır. Son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan 44 gün ərzində tarixi Qələbə qazanaraq öz ərazilərini azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistan məğlub oldu. Bu məğlubiyyət nəticəsində düşmən məcburən kapitulyasiya aktına imza atıb, təslim oldu.

Ordumuzun şücaəti və xalqımızın birliyi sayəsində qazanılmış Zəfərlə müstəqil Azərbaycan dövləti özünün itirilmiş qədim torpaqlarını işğalçılardan təmizləmiş, ərazi bütövlüyünü təmin etmiş, qəhrəman ordumuz hərbi bacarıqlarını və imkanlarını dünyaya göstərmişdir, ölkədə möhtəşəm milli birliyə nail olunmuş və Azərbaycan BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı qətnamələrinin icrasını təkbaşına təmin etmişdir. Ölkəmiz dünyanı yalançı erməni uydurmalarından və erməni faşizmindən xilas etmişdir.

## Qələbədən sonra quruculuq

2021-ci ilin dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin bərpa-quruculuq işləri üçün 2,2 milyard manat pul ayrılmışdır. Qısa müddət ərzində quruculuqla bağlı intensiv işlər aparılmışdır. İşğaldan azad olunmuş ərazilərdə 3 hava limanının tikilməsi nəzərdə tutulur. Bunlardan birinin - Füzuli Beynəlxalq Hava Limanının artıq istifadəyə verilməsini bütün dünya bilir.

Füzuli Beynəlxalq Hava Limanı nəzərdə tutulduğu kimi qısa müddətdə inşa edilərək istifadəyə verildi və 5 sentyabr 2021-ci ildə aerodroma ilk böyük sınaq uçuşu təşkil edildi.

2021-ci il oktyabrın 26-da isə hava limanının rəsmi açılışı olmuşdur. Açılışda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər. Bildirək ki, Rəcəb Tayyib Ərdoğanın və Türkiyə dövlətinin rəsmilərinin olduğu həmin ölkənin bir nömrəli təyyarəsi, elə Ankara-Füzuli hava xətti ilə uçuş edərək, birbaşa Füzuli Beynəlxalq Hava Limanına enmişdir.

Prezident İlham Əliyevin iştirakı ilə 16 avqust 2021-ci ildə Laçın hava limanının təməlqoyma mərasimi keçirildi. Hava limanının 2024-cü ildə istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev 26 aprel 2021-ci il tarixdə Zəngilan rayonunda beynəlxalq hava limanının təməlini qoydu. Təməlqoyma mərasimində dövlət başçısı bildirdi ki, Zəngilan Beynəlxalq Hava Limanı ağır yük təyyarələrini də qəbul edə biləcək. Prezident bunun işğaldan azad edilmiş ərazilərdə inşa edilən ikinci beynəlxalq hava limanı olduğunu dedi.

İşğaldan azad olunan ərazilərimizdə 3 hava limanının fəaliyyət göstərməsi iqtisadi baxımdan səmərəli olacaq. Füzuli beynəlxalq hava limanı keçmiş Dağlıq Qarabağa getmək istəyən daxili və xarici turistlər üçün də əlverişli olacaq.

Zəngilan hava limanı Zəngəzur dəhlizinə inteqrasiya olunacaq. Zəngəzur dəhlizinin də "Şərq-Qərb" nəqliyyat dəhlizinə inteqrasiya olunacağını nəzərə alsaq, həm sərnişin, həm də beynəlxalq yükdaşımalar baxımından Zəngilanda hava limanına ehtiyac var idi. Zəngilan və Füzuli hava limanlarının iqtisadi göstəriciləri eynilik təşkil edir. Hər iki hava limanının uzunluğu 3 km, eni 60 metr olan uçuş-enmə zolağı, 60 min kvadratmetrlik 8 hava gəmisinin dayanması üçün sahə, sərnişinlərə xidmət göstərən terminal, hava gəmilərinin idarəedilməsi üçün qüllə, transformator yarım stansiyası, qazanxana, su anbarı və başqa köməkçi tikililərdən ibarət olacaq. Hava limanları ayrı-ayrılıqda 1 saatda 200 sərnişinə xidmət edə biləcək.

Ən vacib məsələlərdən biri də Zəngilan ərazisində "ağıllı kənd" layihəsi olan Ağalı kəndinin infrastrukturunun yenidən yaradılması və əhalinin ora köçürülməsi olmuşdur.

Bir məsələ xüsusilə qeyd edilmişdir ki, işğal nəticəsində məcburi köçkün düşmüş vətəndaşlarımız arasında aparılan sorğular Azərbaycan xalqının nə qədər öz vətəninə bağlı olduğunu göstərir, demək olar ki, əksər əhali öz doğma yurduna qayıdıb yaşamaq fikrindədir.

12 sentyabr 2022-ci il tarixdə gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətməsi nəticəsində Silahlı Qüvvələrimiz atəş nöqtələrini susdurmaqla təxribatın qarşısını alaraq ordumuzun necə ayıq-sayıq olduğunu bir daha nümayiş etdirdilər.

Azərbaycanın bütövlüyü uğrunda şəhid olan bütün vətəndaşlarımız bizim üçün əzizdir. Ruhları şad olsun! Şəhidlər ölməz, Vətən bölünməz!

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Şərəf tariximiz

İki il əvvəl - 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq əks-hücum əməliyyatına başlayan Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını rəşadətlə yerinə yetirdi. 30 ilə yaxın işğal altında qalan torpaqlarımız möhtərəm Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə cəmi 44 gün ərzində azad olundu.

Vətən müharibəsi Azərbaycan tarixinə Prezident İlham Əliyevin sərkərdə qətiyyətinin, mütərəqqi idarəçilik və liderlik keyfiyyətlərinin, xalqımızın milli həmrəyliyinin, ordumuzun əzmkarlığının və yüksək döyüş qabiliyyətinin nəticəsi kimi həkk olundu. İlk növbədə bu amillər xalqımızı zəfərə apardı, torpaqlarımızın işğaldan azad olunmasını təmin etdi, Ermənistanın işğal siyasətinə son qoydu. 44 günlük savaşda qazandığımız şanlı qələbə Ulu Öndər Heydər Əliyevlə başlanan, möhtərəm İlham Əliyevin rəhbərliyi ilə davam edən siyasi kursun dövlətimizin və xalqımızın milli maraqlarını qətiyyətlə təmin etməsinin ən möhtəşəm və tarixi təsdiqi oldu.

Tarix həm də sübut edir ki, dövlətlərin və xalqların öz milli hüquqları, torpaqlarının azadlığı uğrunda mübarizələri, işğalçıya qarşı aparılan savaşlar qansız, qadasız ötüşmür. Bu yolda qan da tökülür, qurbanlar da verilir. 44 günlük Vətən savaşında vəzifəsindən, rütbəsindən asılı olmayaraq döyüşən bütün hərbçilərimiz - zabitlərimiz, çavuşlarımız, əsgərlərimiz öz hünərləri ilə yeni vətənpərvərlik nünunələri yaratdılar, dastanlar yazdılar. Xalqımızın qəhrəmanlıq tarixini öz rəşadətləri ilə zənginləşdirən igidlərimiz bu savaşda öz canlarını fəda etdilər, torpaqlarımızın azadlığı uğrunda müqəddəs şəhidlik zirvəsinə yüksəldilər. Bəli, dövlət, xalq həm də onda böyük olur ki, onun uğrunda canından keçənlər var. Görkəmli türk şairi Mithat Camal Kuntayın yazdığı kimi, "Torpaq əgər uğrunda ölən varsa, vətəndir".

Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini hər zaman uca tutacaq, ehtiramla anacaq. Prezident İlham Əliyevin sərəncamı ilə sentyabr ayının 27-nin respublikamızda Anım günü kimi qeyd edilməsi Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, bayrağımızı işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlamətidir. Bu günlərdə Azərbaycanın bütün bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunur. Hər birimiz Vətən uğrunda canından keçmiş Vətən oğullarının ruhu qarşısında baş əyirik. Bu qələbəyə, torpaqlarımızın azad edilməsinə görə biz onlara borcluyuq. Müqəddəs and yerimiz, qürur mənbəyimiz olan şəhidlərimiz həmişə minnətdarlıq duyğuları ilə yada salınacaq, xatirələrinə dərin ehtiram göstəriləcək.

Vətən savaşında qədim türk yurdu Naxçıvanın qəhrəman oğulları da öz sözlərini qətiyyətlə dedilər. İstər Azərbaycan Silahlı Qüvvələrinin tərkibində döyüşən naxçıvanlı hərbçilər, istərsə də Əlahiddə Ümumqoşun Ordunun döyüşə yollanan kontingentinin hərbi qulluqçuları 44 günlük müharibədə rəşadətlər göstərdilər. Onların hər biri hərbi əməliyyatlar zamanı şəxsi nümunələri ilə qələbənin qazanılmasına layiqli töhfələr verdi.

Bu müqəddəs yolda onlar ölümün gözünə dik baxdılar, canlarını fəda etdilər. Yaxşı xatirimizdədir ki, Vətən müharibəsi günlərində şəhid olan hərbçilərimizi qarşılamaq üçün bütün Naxçıvan əhalisi əllərində bayraqlarımız yollara axışmışdı. Şəhidlərimizin qarşılanması zamanı təsirli və eyni zamanda qürurdoğuran mənzərə bir daha göstərmişdi ki, bu xalqı məğlub etmək olmaz...

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 10-da xalqa müraciətində bunu xüsusi qeyd edərək deyib: "Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".

Bu gün şəhidlərimizin ruhu rahatdır. Ona görə ki, əmanət qoyub getdikləri doğmalarının yanında qüdrətli Azərbaycan dövləti var. Onların xatirəsi bizə əziz olduğu kimi, ailələrinin sosial rifahı, mənzil-məişət şəraiti də dövlətimizin diqqətindədir. O cümlədən Naxçıvanda şəhid ailələrinin və müharibə iştirakçılarının sosial məsələlərinə yüksək qayğı ilə yanaşılır və bütün bunlar Naxçıvan Ali Məclisinin Sədri Vasif Talıbovun xüsusi nəzarətindədir. Ali Məclis Sədrinin 2020-ci il 14 dekabr tarixli fərmanı əsasında yaradılmış "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu" tərəfindən də bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Bu müharibə ilk gündən ölkədə keçirilən gənclər siyasətinin möhtəşəm təcəssümü oldu. Ulu Öndər Heydər Əliyevin müəlllifi olduğu, cənab Prezident İlham Əliyevin layiqincə davam etdirdyi dövlət gənclər siyasətinin nəticəsi kimi gənclərimizin vətənpərvər ruhda yetişməsi torpaqlarımızın azad edilməsində öz sözünü dedi. Bəli, bu savaşda qazanılan parlaq zəfərin təməlində dayanan əsas amillərdən biri Azərbaycan gənclərinin vətənə, torpağa bağlılığı oldu. Hələ 2020-ci ilin iyul ayında Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlardan sonra hərbi komissarlıqlara müraciət edən gənclərimiz Vətən müharibəsinin ilk günündən könüllü şəkildə silaha sarılaraq torpaqlarımızın azadlığı uğrunda müqəddəs savaşa qalxdılar. Məhz vətənpərvər gənclərimiz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfər sevincini xalqımıza yaşatdılar.

Vətən müharibəsi bizim qəhrəmanlıq salnaməmiz, qazandığımız qələbə isə qürur mənbəyimizdir...

Millətimizin başucalığı olan bu Zəfər hər zaman tariximizi şərəfləndirəcək, gələcəyimizə parlaq işıq salacaq....

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***







# Tarixi dönüş nöqtəsi

**2020-ci il 27 sentyabr...**

**Tarixin bu təqvimi ölkəmizdə həm Vətən müharibəsi şəhidlərinin Anım günü, həm də 44 günlük İkinci Qarabağ mühribəsinin bağlandığı gündür. Bu gün respublikamızın bütün şəhər və rayonlarinda, o cümlədən azad edilmiş ərazilərimizdə anım mərasimləri keçirilir, xalqımız Vətən uğrunda canlarını fəda etmiş qəhrəman şəhidlərimizin xatirəsini qürurla yad edir.**

**Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamına əsasən təsis edilən Anım günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir.**

**Bu tarix həm də qələbə vədi ilə başlayıb, Zəfərlə bitən savaş tariximizin şərəfli səhifəsinə çevrilib. Çünki düşmənin genişmiqyaslı təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruq" əməliyyatının icrasına başladı.**

## Güclü ordu, siyasi nüfuz, birlik...

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə Vətən müharibəsindən iki il keçdiyini xatırladaraq qeyd edir ki, məğlub Ermənistan dövlət sərhədində hərbi təxribatlar törətməklə sülhə hələ də hazır olmadığını göstərir. Deputat bildirir ki, revanş üçün heç bir gücü olmamasına baxmayaraq, Ermənistan cəmiyyəti yaranmış yeni reallıqla razılaşa bilmir. Razılaşmamaq isə özünün inkişafına ciddi ziyan vurur. Qonşu dövlətin torpağına iddia etmək, onunla sərhəd məsələsini həll etməmək istər-istəməz cəmiyyətin resursunu əlindən alır.

Aydın Mirzəzadənin fikrincə, Ermənistan dövlət kimi güclənmək, sosial problemlərini həll etmək əvəzinə özünü bu cür avantüralara xərcləyir. Amma müharibənin yenidən başlaması qeyri-mümkündür. Azərbaycan bütün istiqamətlər üzrə Ermənistandan güclüdür. Təxribatlara cavab verəcək güclü ordumuz, beynəlxalq aləmdə siyasi nüfuzumuz, cəmiyyətin birliyi və lider ətrafında güclü birlik vacib məqamlardır. Ermənistanda isə bunlar yoxdur: "Ermənistanın vəziyyətdən nəticə çıxarmasına çox böyük ehtiyac var. Nəticə çıxaracaqsa, bir dövlət kimi inkişaf edəcək, əks halda daha da zəifləyəcək. Azərbaycan isə həm dövlət kimi güclənir, həm də Ermənistanın istənilən təxribatına cavab vermək iqtidarındadır".

## Bütün xalqın əsgərə çevrildiyi gün

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev qəzetimizə açıqlamasında bildirdi ki, sentyabrın 27-si Vətən savaşının başlandığı gün - ilk növbədə tarixin Azərbaycan xalqının əleyhinə cərəyan edən gərdişinin dəyişdirilməsinin başlanğıc günüdür. Bu tarix bütün Azərbaycan xalqının öz torpaqlarının azad edilməsi yolunda əsgərə çevrildiyi reallığının üzə çıxdığı gün idi. Bu gün ədalətsizlik, haqsızlıq, ancaq və ancaq böyük dövlətlərin iradəsi üzərində qurulan beynəlxalq konyunkturanın sındırıldığı gündür. Böyük güclər Prezident İlham Əliyevin də vurğuladığı kimi, BMT-nin bəzi qətnamələrinin mürəkkəbi qurumamış canfəşanlıq göstərərək onu yerinə yetirdikləri halda, Azərbaycanın işğal altındakı torpaqları ilə bağlı 4 qətnaməyə Ermənistanın əməl etməməsini görməzdən gəlirdilər, çünki maraqları bunu diktə edirdi. Təkidlə Azərbaycana öz torpaqlarını savaş yolu ilə qaytara bilməzsən deyirdilər, hətta təhdidə belə əl atırdılar. Bütün bunlara baxmayaraq, ardıcıl erməni təxribatları qarşılığında Müzəffər Ali Baş Komandan savaş əmrini verdi. İlk dəfə olaraq Azərbaycan dünyaya göstərdi ki, Qafqaz kimi böyük qüvvələrin maraqlarının kəsişdiyi bir regionda, güc kimi qəbul edilənlərin sırasında yer almadan da məhz öz xalqının, onun liderinin iradəsinə dayanaraq beynəlxalq konyunkturanı dəyişdirə, torpaqlarını işğaldan azad edərək, BMT qətnamələrini özü yerinə yetirə bilər.

Sahib Alıyev bildirir ki, 27 Sentyabrı həm əziz şəhidlərimizi anıb, onların ruhu qarşısında baş əyməklə, həm də o məqama ucalanların sayəsində başımızı dik tutmaqla qeyd edirik: "Əminəm ki, illər keçdikcə 27 Sentyabrın Azərbaycan xalqının tarixində nə demək olduğunun önəmi daha çox dərk ediləcək. Qafqazda Azərbaycan adlı ölkənin, onun xalqının nə dərəcədə qeyrətli, mübariz, qürurlu, ləyaqətli olduğu getdikcə daha qabarıq görünəcək".

## Zəfər yolumuzun başlanğıcı

Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli qeyd edib ki, 27 Sentyabr Vətən müharibəsinin ilk günü Zəfər yolumuzun başlanğıcıdır. 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızın azad olunmasının, şəhidlərimizin qisasının alınmasının, Azərbaycanın məğrur obrazının yaranmasının ilk günüdür. Bu gün Azərbaycan dövlətinin, xalqının, vətəndaşının şərəfinin bərpası günüdür.

Şəhidlərimizi rəhmətlə anan T.Kərimli Vətən müharibəsində 3 minə yaxın şəhid verdiyimizi xatırladaraq deyir ki, onların və qazilərimizin hesabına Vətənin bütövlüyünü təmin edə bilmişik: "Ağır məğlubiyyətə uğrayan Ermənistan tərəfi 10 noyabrda Rusiyanın iştirakı ilə kapitulyasiya aktına imza atmalı oldu. Doğrudur, Ermənistan bəzən sözündən qaçır, öz imzasının dalında gizlənir, müəyyən manipulyasiyalar edir, amma bu, heç də 27 Sentyabrın əhəmiyyətini azaltmır".

Deputat vurğulayır ki, 2020-ci ildə Ali Baş Komandanın əks-hücum əmri xalq tərəfindən olduqca xoş qarşılandı. Təsadüfi deyil ki, bu zaman 50 minə yaxın insan cəbhəyə könüllü olaraq getmək üçün müraciət etmişdi. Bəzi dövlətlərdə səfərbərlik elan edildiyi halda insanların qaçmasının fonunda Azərbaycan vətəndaşının nə qədər məğrur, vətənsevər olduğu daha aydın göründü.

Artıq Azərbaycanın öz ərazi bütövlüyünü təmin etdiyini vurğulayan Tahir Kərimli hesab edir ki, bundan sonra tarixinin ən qüdrətli dövləti daim bu bütövlüyünü qoruyub saxlayacaq. Çünki Azərbaycanın həm iqtisadi, həm də hərbi gücü yetərincədir.

## Şanlı ordumuzun 44 günlük Vətən müharibəsində tarixi qələbəsi

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında dedi ki, 2020-ci il 27 sentyabr tarixində Azərbaycan Ordusu Ermənistanın növbəti genişmiqyaslı təxribatlarının qarşısını almaqla yanaşı, əks-hücum əməliyyatlarına da başlayıb və qısa zaman kəsiyində torpaqlarımızı işğaldan azad edib.

Deputat 2020-ci ilin payızına qədər Ermənistanın təxribatlar törətdiyini xatırladaraq, elə həmin ilin yayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribatların qarşısının qətiyyətlə alındığını vurğuladı. Deputatın sözlərinə görə, reallıq o idi ki, Ermənistan özünü cəzasızlıq şəraitində hiss edərək Azərbaycana qarşı təxribatlarını daha da intensivləşdirirdi. Ermənistanın addımları aydın göstərirdi ki, münaqişənin dinc vasitələrlə tənzimlənməsi istiqamətində heç bir istəkləri yoxdur: "Nikol Paşinyanın getdikcə hərbiləşən ritorikası da təbii ki, münaqişənin dinc yolla nizamlanmasına olan inamı itirməkdə idi. Azərbaycan tərəfi isə münaqişənin sülh yolu ilə tənzimlənməsi prinsipinə sadiqlik nümayiş etdirir, hər zaman danışıqlara, müzakirələrin aparılmasına hazır olduğunu göstərirdi".

Elşad Mirbəşiroğlu dedi ki, münaqişənin tənzimlənməsi üçün yaradılmış ATƏT-in sabiq Minsk qrupu tam fəaliyyətsizlik nümayiş etdirirdi. Onun sözlərinə görə, danışıqlar sadəcə olaraq görüntü xarakteri daşıyır, bir çox hallarda isə ATƏT-in Minsk qrupu Ermənistanın işğalçılıq siyasətinin nəticələrinin leqallaşdırılmasına yönəlik mövqelər sərgiləməkdən çəkinmirdi. Bu da dəlalət edirdi ki, aparılan danışıqlar deklorativ xarakter daşımaqla nəticəsizdir.

"Azərbaycan Prezidenti dəfələrlə bəyan etmişdi ki, biz nəticəsiz danışıqları sonsuza qədər davam etdirmək fikrində deyilik. Azərbaycan Ordusu hərbi yolla öz torpaqlarını işğaldan azad etmək iqtidarındadır", - deyən deputat əlavə edir ki, Ermənistan Azərbaycanın münaqişənin dinc vasitələrlə tənzimlənməsi prinsipinə həssas yanaşmasını düzgün qiymətləndirməyi bacarmadı. Yenə də havadarlarına ümid edərək düşünürdü ki, işğalçılıq siyasətini davam etdirəcək və zamanla da bunun nəticələrini leqallaşdırmağa nail olacaq. Ermənistanın digər məqsədi də aydın müşahidə edilirdi. Onlar Azərbaycanın yeni ərazilərini də işğal etmək niyyətində idilər. Belə ki, 2019-cu ildə Ermənistanın həmin dövrdə müdafiə naziri olan David Tonayan ABŞ-da səfərdə olan zaman "yeni ərazilər naminə yeni müharibə" ifadəsini işlətməkdən də çəkinmədi.

Deputat qeyd edir ki, bütün bunlar artıq Ermənistanla danışıqlar aparılmasının əhəmiyyəti olmadığını göstərirdi. Buna görə də Azərbaycan 2020-ci il 27 sentyabr tarixində Ermənistanın növbəti təxribatlarının qarşısını almaqla yanaşı, torpaqlarımızın işğaldan azad olunması üçün də əməliyyatlara başladı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu 44 gün ərzində müasir dövrün ən effektiv müharibəsini aparmaqla, torpaqlarımızı işğaldan azad etdi. 2020-ci il 10 noyabr tarixində Ermənistan kapitulyasiya sənədini imzalamaq məcburiyyətində qaldı. Bununla Azərbaycan dünyaya nümayiş etdirdi ki, həqiqətən sülhsevən dövlətdir, regionda təhlükəsizliyin etibarlı təmin olunmasını istəyib və bu istiqamətdə təşəbbüskar rolunda çıxış edib. Lakin Ermənistan işğalçılıq siyasətindən heç vaxt geri çəkilmədi.

Deputat bildirir ki, Rusiyanın vasitəçiliyi ilə birgə bəyanatın imzalanması, sənəddə Azərbaycanın maraqlarına cavab verən müddəaların yer alması hər şeydən öncə şanlı ordumuzun 44 günlük Vətən müharibəsində tarixi qələbəsinin nəticəsi idi. Bu gün Azərbaycan Vətən müharibəsi nəticəsində təmin etdiyi güclü mövqelərini daha da möhkəmləndirmiş vəziyyətdədir.

E.Mirbəşiroğlu deyir ki, ötən iki il müddətində Azərbaycan Ordusunun daha da müasirləşdirilməsi istiqamətində təsirli addımlar atılıb. Maddi-texniki təchizatın ən yüksək səviyyədə təmin olunması üçün hərbi texniki sahədə əməkdaşlıq dairəsi xeyli genişləndirilib, həmçinin yeni hərbi birləşmələr yaradılıb. Ermənistanın növbəti təxribatlarının qarşısının alınması istiqamətində Azərbaycan Ordusunun keçirdiyi hərbi əməliyyatlar da aydın göstərir ki, ordumuz iki il öncəkindən də güclüdür. Dövlət sərhədimizin təhlükəsizliyinin təmin olunması istiqamətində bütün effektiv tədbirləri həyata keçirə bilər. Ermənistan tərəfi də aydın görür ki, törətmiş olduğu təxribatlar onların özünə baha başa gəlir.

44 günlük Vətən müharibəsi ordumuzun gücünü, qüdrətini, rəşadətini göstərməklə yanaşı, Azərbaycanın hərb yolu ilə torpaqlarını işğaldan azad etmək əzmini göstərdi. Dünyaya bəyan etdi ki, Azərbaycan heç zaman torpaqlarının işğalı ilə barışmayıb. Torpaqlarını işğaldan azad edib, Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur edən ölkəmiz artıq regionda yeni reallığın yarandığını, həmçinin Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar olmasının, təhlükəsizliyin tərəfdarı olduğunu göstərdi. Özü haqqı, ədaləti bərpa etdi.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Əbədi ehtiramın təcəssümü

**Ötən əsrin 90-cı illərinin əvvəllərində xarici havadarları tərəfindən silahlandırılan Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etdi.**

1992-ci il martın 24-də təsis olunmuş ATƏM-in (indiki ATƏT) Minsk qrupu fəaliyyəti ərzində məsələnin həllinə yox, dondurulmasına çalışdı, bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qaldı. Həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslənildi. BMT də işğalçı Ermənistana təzyiq göstərə bilmirdi, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənirdi. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il icra edilmədi. Bu beynəlxalq təşkilatın edə bilmədiyini Azərbaycan Ordusu silahla, döyüşlə həll etdi...

Ermənistan işğal müddətində Azərbaycana qarşı irimiqyaslı təxribatlar törədirdi. Azərbaycan Ordusunun hissələri bu təxribatların qarşısını qətiyyətlə alırdı. Ermənistan 2016-cı ilin aprelində də belə bir təxribat törətmək istədi. Bu təxribatın da qarşısı alındı. Əks-hücum əməliyyatı ilə Lələtəpə kimi mühüm strateji yüksəklik də daxil olmaqla min hektarlarla ərazi işğaldan azad edildi. Güman etmək olardı ki, bu məğlubiyyət Ermənistanın danışıqlar prosesinə razılaşmasına vasitə olacaq. Lakin belə olmadı. Bəşəriliyə düşmənçilik xisləti Ermənistanı yenə işğalçı mövqeyində saxladı.

Ermənistan 2020-ci il sentyabrın 27-də böyük təxribatlar törətmək niyyəti ilə ərazilərimizə hücum etdi. Bu hücum işğala yeni cəhd idi. Bu hücum erməniliyin qudurğanlığı idi. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti ilə əks-hücum əməliyyatı başladı. Bu, Azərbaycanın ədalətli müharibəsi idi.

Azərbaycan Ordusu Ermənistanın işğal müddətində yaratdığı, möhkəmləndirdiyi müdafiə sədlərini darmadağın etdi. Müharibənin gedişində şəhərlərimizə artilleriya və raket zərbələri endirən ermənilər Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu azaltmaq istəsələr də, buna nail ola bilmədilər. Ermənistan da, onun havadarları da Azərbaycan Ordusuna müqavimət göstərə bilmədilər.

Prezident İlham Əliyev Vətən müharibəsində xalqa müraciətində dedi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Şuşa şəhəri noyabrın 8-də işğaldan azad edildi. Şuşanın işğaldan azad edilməsi İkinci Qarabağ müharibəsini sonlandırdı. Noyabrın 10-da üçtərəfli Bəyanat imzalandı. Bu, Azərbaycanın qalibiyyət, Ermənistanın məğlubiyyət sənədi idi.

44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycan torpaqlarının işğalına son qoydu.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirdi: "Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik".

Bu sözlər Ermənistanı da, onun havadarlarını da üçtərəfli bəyanatlara ciddi əməl etməyə vadar etməlidir. İstər Azərbaycanın apardığı "Qisas" əməliyyatı, istərsə də bu ilin sentyabrında baş verən döyüşlər, onların nəticələri Ermənistanı davamlı sülh müqaviləsi bağlamaq haqqında düşündürməlidir.

İkinci Qarabağ müharibəsi və onun nəticəsi təsdiqlədi ki, Azərbaycan Ordusu Cənubi Qafqazın ən qüdrətli ordusudur. Ötən illər ərzində ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, aparılan islahatlar ordumuzu bu səviyyədə formalaşdırıb.

İkinci Qarabağ müharibəsində tətbiq edilən döyüş taktikası dünyanın aparıcı dövlətlərinin hərbi ekspertlərini, analitiklərini maraqlandırır, heyrətləndirir. Azərbaycan Ordusunun döyüşləri də, qazandığı Zəfər də dünyanın müxtəlif ali hərbi məktəblərinin dərsliklərinə salınıb, bəzi aparıcı Qərb mətbu orqanlarında, habelə ABŞ-ın Milli Hərbi Kollecinin (National War College) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd ediblər. Bunlar Azərbaycan Ordusuna ehtiramın təzahürüdür...

Anım günü torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olanların bir daha xatırlanması günüdür...

Biz şəhidlərimizi Anım günündə ehtiramla anırıq...

***Səbinə XASAYEVA, Milli Məclisin deputatı***







# 27 sentyabr,

**30 ilə yaxın müddətdə torpaqlarımızı işğal altında saxlayan Ermənistanın Azərbaycana qarşı davamlı təxribatları daha da intensivləşir...**

**Sentyabrın 26-dan 27-nə keçən gecə Ermənistan hərbi birləşmələri növbəti dəfə genişmiqyaslı hərbi əməliyyata başlayır...**

**Azərbaycan Silahlı Qüvvələri isə düşmənə layiqli cavab vermək üçün əmr gözləyir və illərlə gözlənilən hərbi komanda verilir - İrəli!..**

**Savaş tariximizin ən şərəfli səhifəsi olan Vətən müharibəsi başlayır...**

**Sentyabrın 27-də ölkə daxilində və cəbhədə cərəyan edən hadisələrin xronikası tariximizə yeni sətir, yeni abzasdan yazılır...**

Saat 07:30
Müdafiə Nazirliyinin məlumatı

## Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilir.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görür.



Saat 08:35
Müdafiə Nazirliyinin məlumatı

## Düşmənin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır

Cəbhənin ən gərgin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır.

Hazırda Azərbaycan Ordusu tərəfindən cavab tədbirləri görülür və qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Cəbhəboyu zonada baş verən hadisələrlə bağlı mətbuata və ictimaiyyətə əlavə məlumat veriləcək.

Əhali arasında çaşqınlıq salmamaq, həmçinin hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədilə sosial şəbəkə istifadəçilərini, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.



Saat 09:10
Müdafiə Nazirliyinin məlumatı

## Bütün cəbhə boyu qoşunlarımız əks-hücum əməliyyatına başlayıb

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.

Şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkar edərək məhv edirlər.

Əldə olunan məlumata görə, müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri vurulub, ekipaj üzvləri sağdır.

Qoşunlarımızın sürətli əks-hücum əməliyyatı davam edir.

Saat 10:28
Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin məlumatı

## Ölkə üzrə internetin verilməsi məhdudlaşdırılır

Ermənistanın törətdiyi genişmiqyaslı təxribatın qarşısını almaq üçün ölkə üzrə internetin verilməsi məhdudlaşdırılıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaydığı məlumata görə, nazirlik ölkə üzrə internetin verilməsində məhdudiyyətlər tətbiq edəcək: "Azərbaycan vətəndaşlarının münaqişə vəziyyətində internetlə bağlı yarana biləcək məhdudiyyətlər səbəbindən anlayış göstərəcəklərinə ümid edirik".

Saat 10:53
Müdafiə Nazirliyi təkzib edir

Ermənistan tərəfinin guya Azərbaycan Orduna məxsus 3 tank, 2 helikopter və 3 pilotsuz uçuş aparatının (PUA) vurulması barədə yaydığı məlumat yalandır və dezinformasiyadır.

Bildiririk ki, cəbhədə bölmələrimiz düşmən üzərində tam üstünlüyə malikdir.

Saat 11:08
Müdafiə Nazirliyinin məlumatı

## Azərbaycan Ordusu mülki əhalini atəşə tutmur

Məlumat verildiyi kimi, Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.

Rəsmi surətdə bəyan edirik ki, Azərbaycan Ordusu mülki əhalini, mülki obyektləri və mülki xarakterli infrastrukturları hədəfə almır. Azərbaycan işğalçı Ermənistandan fərqli olaraq hərbi əməliyyatlar zamanı Cenevrə konvensiyaları da daxil olmaqla beynəlxalq humanitar hüququn müddəalarının tələblərinə riayət edir.

Ermənistan ordusu özünün atəş nöqtələrini qəsdən mülki əhalinin yaşayış yerlərinin içərisində və yaxınlığında yerləşdirir.

Azərbaycan Ordusu işğal altında olan ərazilərdəki mülki əhalini hərbi obyektlərdən kənar durmağa çağırır.



Saat 11:50
Prezident xalqa müraciət edir

## İlham ƏLİYEV: "Biz haqq yolundayıq, biz zəfər çalacağıq!"

Prezident İlham Əliyev xalqa müraciət edərək deyir ki, bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutub.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaq. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Ali Baş Komandan vurğulayır ki, son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter alırdı. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olub. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıb və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olub. Amma Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi.

Bu tədbirlərlə düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı: "Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır".



Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü?

Prezident bu məsələyə aydınlıq gətirərək deyir ki, ilk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər: "Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir". Prezident deyir ki, Ermənistanın iyul və avqust aylarındakı təxribatlarına verilən layiqli cavab onlara dərs olmayıb. Ona görə yenə də çirkin əməllərini həyata keçirirlər.

Dövlət başçısı bildirir ki, əgər Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" deyirsə, onda hansısa danışıqlardan söhbət gedə bilməz. Bu azmış kimi, Ermənistan rəhbərliyi iddia edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir.

İlham Əliyev qətiyyətli şəkildə bəyan edir ki, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. Danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır:

"Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər".

Ali Baş Komandan Ermənistanın son təxribatlarını, müharibə hazırlıqlarını təsdiq edən faktları da misal göstərir. Bunlar qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərarın qəbul edilməsi, Ermənistanın baş nazirinin on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacağı ilə bağlı bəyanatıdır. Bütün bunlar Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi.

İlham Əliyev bu barədə hətta BMT kürsüsündən də dünyaya səslənərək Ermənistanın yeni müharibəyə hazırlaşdığını, bu ölkənin təxribatlarının dayandırılmasının vacibliyini bildirdiyini deyir.

Azərbaycan Prezidenti Ermənistanın işğal edilmiş torpaqlarımızda qanunsuz məskunlaşma siyasətinə də aydınlıq gətirir: "Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır".

Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisinin azaldığını vurğulayan dövlət başçısı deyir ki, bu ölkədə demoqrafik böhran yaşanır və onlarda işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirmələri üçün insan resursları yoxdur. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıb. Rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir, tarixi abidələrimiz, məscidlərimiz dağıdılır, təhqir edilir. Məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Prezident deyir ki, Azərbaycan heç bir təxribata əl atmayıb, sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır: "Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır".

Həmçinin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Amma dövlət başçısı bu qətnamələrin 30 ilə yaxın müddətdə kağız üzərində qaldığını söyləyərək deyir ki, bu müddətdə Minsk qrupu çərçivəsində danışıqlar aparılsa da, Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıb. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul edib. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyir:

"Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"



Saat 12:11
Müdafiə Nazirliyinin məlumatı

## Əks-həmlə əməliyyatı uğurla davam edir

Azərbaycan Ordusunun bölmələri cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murovdağ istiqamətlərində Ermənistan qoşunlarının işğalı altında olan vacib yüksəkliklər uğrunda döyüşlər aparırlar.

Raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv edirlər.

Bütün cəbhə boyu şiddətli döyüşlər gedir.




Saat 13:42
Xarici jurnalistlərə qarşı təxribat

## Ermənistan silahlı qüvvələri türkiyəli jurnalistləri hədəfə alır

Erməni hərbi bölmələri "TRT Haber" və "Anadolu" Agentliyinin əməkdaşlarının olduğu nöqtəyə minaatandan 3 atəş açırlar.

Bu barədə məlumatı "Anadolu" Agentliyi və TRT yayır.

Bildirilir ki, mərmilər jurnalistlərdən 100 metr məsafəyə düşüb. Xoşbəxtlikdən hadisə nəticəsində jurnalistlər xəsarət almırlar.

Saat 13:46
Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı

## Tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür

Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayır. Sənəddə bildirilir ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrində qeyri-qanuni mövcudluğunun regionda sülh və sabitliyə ciddi təhlükə olduğuna yaxşı bələd olan və Ermənistanın Azərbaycana qarşı təcavüzü, işğalçı fəaliyyətinə beynəlxalq hüququn norma və prinsiplərindən irəli gələrək prinsipial mövqe nümayiş etdirən beynəlxalq ictimaiyyət bu ölkənin işğalçılıq siyasətini, təxribatçı əməllərini kəskin şəkildə qınamalıdır.

Eyni zamanda Ermənistan beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl etməyə məcbur edilməlidir. Yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.



Saat 14:00
Müdafiə Nazirliyinin məlumatı

## Ordumuz bir sıra kəndlərimizi və vacib yüksəklikləri azad edib

Azərbaycan Ordusunun qoşun növləri və bölmələrinin həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz, vacib yüksəkliklər və əlverişli ərazilər azad edilib.

Hazırkı məlumata görə, cəbhənin Füzuli-Cəbrayıl istiqamətində aparılan hərbi əməliyyat nəticəsində uzun illər ərzində düşmən işğalı altında olan Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib.

Ağdərə rayonu istiqamətində və Murovdağ silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək bir sıra hakim yüksəkliklər nəzarətə götürülüb.

Döyüş əməliyyatları davam edir.



Saat 14:16
Prezidentin Mətbuat Xidmətinin məlumatı

## Rəcəb Tayyib Ərdoğandan İlham Əliyevə tam dəstək

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.



# saat 06:00...

Türkiyə Prezidenti bu gün Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib, onlara Allahdan rəhmət diləyib. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulayıb.

Başsağlığına görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidentinin daimi dəstəyini yüksək qiymətləndirib.



Prezident İlham Əliyev bu gün cəbhə xəttində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində baş verən hadisələrin gedişi barədə məlumat verib.

Dövlət başçıları dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

## Saat 15:05
Müdafiə Nazirliyinin məlumatı

### Düşmənin döyüş texnikaları məhv edilib

Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əks-həmlə əməliyyatı nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi və döyüş texnikaları məhv edilib.



## Saat 15:57
Prezidentin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir

### İlham Əliyev: "Uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaq"

Günün ikinci yarısında Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir.

İclasda çıxış edən Ali Baş Komandan deyir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Amma Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulub. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib:

"Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacağıq! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır!"

Prezident deyir ki, Azərbaycan Ermənistana 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verib. Amma görünür ki, bu, onlar üçün dərs olmayıb: "Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir".



Ali Baş Komandan bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyinin olduğunu, eyni zamanda ordumuza könüllü yazılanların sayının on minlərlə insanı əhatə etdiyini söyləyərək bunu xalqımızın öz dövlətinə sadiqliyinin göstəricisi adlandırır: "Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır. Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik".

İclasda çıxış edən müdafiə naziri Zakir Həsənov isə Ali Baş Komandana məruzə edərək deyir ki, əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılıb, yeddi kənd işğaldan azad olunub. Azərbaycan Ordusu digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı həyata keçirir və düşmən böyük itkilər verərək geri çəkilir.

Azərbaycan Ordusunun zərbələri həm ön xətdə, həm də düşmənin tam dərinliyində həyata keçirilir. Düşmən tam şəkildə geri çəkilir.

İclasa yekun vuran Ali Baş Komandan əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edir: "Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!"

Prezidentin Mətbuat Xidmətinin məlumatı

### Fransa Prezidenti Emmanuel Makron İlham Əliyevə zəng edir

Prezident Emmanuel Makron Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd edib və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayır.

Dövlətimizin başçısı qeyd edir ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı dövlət başçısı Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı hadisələrin gedişi barədə məlumat verərək qeyd edir ki, Ermənistanın Azərbaycan silahlı qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub, Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir.



Azərbaycan Prezidenti bildirir ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

## Saat 16:29
Müdafiə Nazirliyinin məlumatı

### Ermənistan hərbi birləşməsinin komandanlığına təslim olmaq təklif edilib

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaşayış məntəqəsində yerləşən qarnizonunun tam məhv edilməməsi və döyüş itkilərinin sayının artmaması məqsədilə Azərbaycan hərbi komandanlığı tərəfindən bu istiqamətdə yerləşən erməni komandanlığına müqavimət göstərməmək, silahı yerə qoyaraq təslim olmaq barədə təklif edilib.

Azərbaycan Ordusunun komandanlığı onu da bildirir ki, hərbi əsirlər və mülki şəxslərlə davranış Cenevrə Konvensiyasının tələbləri və beynəlxalq humanitar hüquqa əsasən həyata keçiriləcək.

Müqavimət göstəriləcəyi təqdirdə hər bir silahlı şəxs tərəfimizdən zərərsizləşdiriləcək.



## Saat 18:18
Müdafiə Nazirliyinin məlumatı

### Düşmən zirehli texnikasını döyüş meydanında ataraq qaçır

Əks-həmlə əməliyyatı həyata keçirən Azərbaycan Ordusu bölmələrinin zərbələri nəticəsində düşmən çoxlu sayda zirehli texnikanı döyüş meydanında da qoyaraq qaçıb.

Nazirlik Ermənistan qoşunlarının məhv edilən, eləcə də ərazidə qalan hərbi texnikalarının videogörüntülərini yayır.



## Saat 18:28
Müdafiə Nazirliyinin məlumatı

### Murovdağ silsiləsindəki əhəmiyyətli yüksəklik azad olunub

Cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murovdağ silsiləsindəki Murov zirvəsi azad olunub.

Əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasını qarşısını almağa imkan verir.

Döyüş əməliyyatları davam edir.



## Saat 18:45
Türkiyə Prezidenti sosial şəbəkədə paylaşım edir

### Rəcəb Tayyib Ərdoğandan Azərbaycana növbəti dəstək

"Bugünkü telefon danışığı zamanı bacarıq və qətiyyətinə bir daha şahid olduğum Azərbaycan Prezidenti, qardaşım İlham Əliyevə də bildirdiyim kimi, Türkiyə "bir millət, iki dövlət" anlayışı ilə azərbaycanlı qardaşları ilə həmrəyliyini gücləndirməyi davam etdirəcək".

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrdəki səhifəsində etdiyi paylaşımda bildirib.

Türkiyə Prezidenti qeyd edir ki, Azərbaycana qarşı yeni hücumlar edən Ermənistan bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha göstərdi: "Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır. Erməni xalqını onların fəlakətə aparan hakimiyyətinə və onları oyuncaq kimi istifadə edənlərə qarşı gələcəklərinə sahib çıxmağa dəvət edirik. Bütün dünyanı işğala qarşı apardığı mübarizədə Azərbaycanın yanında olmağa çağırırıq".

## Saat 19:05
Azərbaycan Respublikası Prezidentinin Fərmanı

### Ölkə ərazisində hərbi vəziyyət elan edilir

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, ölkəmizə qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycanın bütün ərazisində hərbi vəziyyətin elan edilməsilə bağlı fərman imzalayır.

Sənəddə bildirilir ki, hərbi vəziyyətin təmin edilməsi məqsədilə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilsin.

Fərmana əsasən, Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilir.

Şəhər və rayonlara xüsusi giriş-çıxış rejimi tətbiq edilir, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülür.

## Saat 19:59
Milli Məclisin iclası keçirilir



### Parlament Azərbaycanda hərbi vəziyyətə keçidi təsdiq edir

Milli Məclisin iclası keçirilir. Parlamentin sədri Sahibə Qafarova bildirir ki, Prezident İlham Əliyev "Hərbi vəziyyət elan edilməsi haqqında" fərman imzalayıb və həmin sənədin təsdiq edilməsi üçün Milli Məclisə təqdim edib. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə görə, "Hərbi vəziyyətin elan edilməsi haqqında" fərman Milli Məclisə daxil olduqdan sonra 48 saat müddətində növbəti və növbədənkənar sessiyalar dövrünün olub-olmamasından asılı olmayaraq, parlamentin iclası keçirilməlidir. Bugünkü iclasın keçirilməsi də bu zərurətdən irəli gəlir.

Müzakirələrdən sonra Milli Məclisin qərarı qəbul edilir. Qərara əsasən, "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli fərmanı təsdiq edilir.

## Saat 20:08
Baş Prokurorluğun məlumatı

### Ermənistanın atdığı mərmi nəticəsində Naftalanda bir ailənin 5 üzvü həlak olub

Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan rayonunda bir ailənin 5 üzvü həlak olur. Baş Prokurorluğun yaydığı məlumatda bildirilir ki, Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində rayonun Qaşaltı kəndinin sakini 1951-ci il təvəllüdlü Elbrus Qurbanov və onun 4 ailə üzvü, 1956-cı il təvəllüdlü Şəfayət Qurbanova, 2006-cı il təvəllüdlü Fidan Qurbanova, 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 1981-ci il təvəllüdlü Afaq Əmirova həlak olublar.



Bundan başqa təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq dinc əhalinin sıx yaşadığı əraziləri ağır silahlardan atəşə tutub, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətməyə davam edib. Hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib.

Ermənistanın işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması məqsədilə tərəfimizdən xüsusi beynəlxalq tribunalın yaradılması üçün bir sıra beynəlxalq təşkilatlara, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasına müraciət ediləcək.



## Saat 20:15
Müdafiə Nazirliyinin məlumatı

### Düşmənin 22 tankı, 15 zenit-raket kompleksi, silah anbarı məhv edilir

Qoşunlarımızın keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Ermənistan ordusuna məxsus silah-sursat anbarı məhv edilir.

Ordumuzun zərbələri nəticəsində anbarda baş verən partlayışlar nazirliyin yaydığı videoda aydın müşahidə olunur.

Əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qalır. Belə ki, düşmənin 22 ədəd tank və digər zirehli texnikası, 15 ədəd "OSA" zenit-raket kompleksi, 18 ədəd pilotsuz uçuş aparatı (PUA), 8 ədəd artilleriya qurğusu məhv edilib, ölən və yaralı olmaqla canlı qüvvə baxımından 550 nəfərdən artıq itkisi var. Müxtəlif istiqamətlərdə onun 3 silah-sursat anbarı məhv edilib.

Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri podpolkovnik Lernik Vardanyan məhv edilib, onun komandiri olduğu hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalıb.

Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospital və mülki xəstəxanalarda yer qıtlığı yaranıb, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur.

Ermənistan tərəfi hər zaman olduğu kimi, yenə də ordusundakı döyüş itkilərinin real sayını ictimaiyyətdən gizlədir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# Vətənin Adil Qəhrəmanı











**Şəhid ömrü illərlə hesablanmır, zamana meydan oxuyanların yaşı olmur. Uşaqlıqdan torpaqlarımızı azad görmək, haqqı və ədaləti bərpa etmək eşqi ilə tələsən igidlər hər kəsdən tez böyüyürlər. Həmin igidlərdən biri də İkinci Qarabağ savaşında torpaqlarımızın müdafiəsi uğrunda silaha sarılan Vətən müharibəsi qəhrəmanı, şəhid Adil Asəm oğlu İbrahimlidir.**

## Oğul, ata, şəhid...

Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı Adil İbrahimli Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də başlatdığı genişmiqyaslı təxribatların qarşısını almaq üçün Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatının iştirakçısı olub. Görünür, onun şəhidlik məqamına yüksəlmək amalı qəzavü-qədərində var imiş. Adil İbrahimli Zəfərdən bir gün əvvəl - noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlərdə 28 yaşında şəhadətə yüksəlib.

*Bir də gördün oğuldu adam,*
*Bir də gördün atadı.*
*Bir də gördün ad oldu adam,*
*Bir də gördün fotodu....*

Şəhidin anası Aidə İbrahimli ilə söhbətdən sonra bu misraları yada salmamaq olmur. Sanki bu bənd elə ən çox Adil İbrahimlinin həyat yolu və Vətən uğrunda mübarizəsinə işıq tutur.

Anası əvvəlcə onun məktəb illərindən, uşaqlıq arzularından söz açır. Danışır ki, Adil 1992-ci il sentyabrın 9-da Sumqayıtda dünyaya gəlib, həmişə hərbçi olmağı arzulayıb. Hələ uşaqkən anasına və Birinci Qarabağ müharibəsinin iştirakçısı olan atasına deyirmiş ki, gün gələcək torpaqlarımızı düşmən işğalından azad edərkən şəhid olub tarixə düşəcəm.

"Nəyi necə deyirdisə, elə də edirdi. Arzuladığı kimi, 2008-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə, məzun olduqdan sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olundu. Sonra ailə qurdu, ondan yadigar qalan iki gül balası dünyaya gəldi. Adil artıq həm oğul, həm də ata idi. Hadisələr bir-birini elə sürətlə əvəzləyirdi ki... Nəhayət, həmin an yetişdi, oğlum şəhidlik məqamına yüksələrək ən böyük arzusuna çatdı. Bundan sonra o, ən müqəddəs adı - şəhid adını daşımağa başladı", - deyə Aidə xanım bildirir.

Dərin köks ötürür... Səsindəki kədər Zəfərin yaşatdığı qələbə sevinci qədər duyğulu olur.

## Prezidentin qürurla daşıdığı şəhid fotosu

Adil İbrahimli Prezident İlham Əliyevin ötən ilin sentyabrın 27-də təşkil edilmiş Anım yürüşündə fotosunu daşıdığı həmin şəhiddir...

Söhbətinə davam edən Aidə xanım əlavə edir ki, həmin gün II Fəxri xiyabana Adili ziyarətə gedib. "Anım yürüşündə Ali Baş Komandanın daşıdığı plakatda oğlumun fotosu olduğundan xəbərsiz idim. Dost-tanış başsağlığı üçün zəng edirdi. Dedilər ki, Prezident yürüşdə Adilin fotosunu daşıyır. Xəbəri eşidəndə özümü bir anlıq itirdim, oğlumun şəhid xəbərini aldıqdan sonra hər saniyə keçirdiyim izahedilməz qürur hissini daha dərindən, dönə-dönə hiss etdim. Oğul idi, ata oldu; şəhid idi, fotosunu Prezidentin qürurla daşıdığı qəhrəman oldu. Ən gözəl adları bir-birinə caladı Adil", - deyə şəhid anası bildirir.

Döyüş yoldaşları da Adili məğrur və qorxmaz döyüşçü kimi xatırlayırlar. Vətən uğrunda ölümü gözə alan Adil müharibə zamanı Murovdağ istiqamətində, həmçinin Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Vətən sağ olsun!

Vətən müharibəsi 2020-ci il noyabrın 8-də Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan Ordusunun şanlı qələbəsi, ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Beləcə, haqq-ədalət şəhid anaları və atalarının "Vətən sağ olsun!" kəlməsində öz yerini daha dəqiq tapdı.

"Vətən sağ olsun!" - deyir Adilin anası da... İlahi ədalət bir də şəhid anası Aidə xanımın ən səmimi kəlmələrində əbədiləşir.

Anasının dilindən düşmür Adilin gözlərinin gözəlliyi... Şəhidin o gözəl gözləri sonuncu dəfə elə Prezidentin qürurla daşıdığı fotodan baxır Azərbaycana, həm də irəliyə - onun da payının olduğu məğrur xalqının gələcəyinə...

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Murovdağın Kənan zirvəsi

2020-ci il sentyabrın 27-si Gülnisə xanım səhəri müharibə xəbəri ilə açmışdı. Alpout kəndinin yaxınlığından yerə-göyə səs salan "Harop"un gurultusu hamıdan tez Gülnisəni yuxudan oyatmışdı.

Səhər namazında əlini göyə qaldırıb yaradandan ordumuzun əsgər və zabitlərinə dualar etmişdi. Müharibə xəbərini eşidən qohum-əqrəba Gülnisənin həyətində, mərhum Niftalının evinə toplaşmışdılar. Hərə bir söz danışırdı. Biri malından qurban deyir, biri Tanrıya dualar edib Gülnisənin uşaqlarının sağ-salamat geri dönmələrini arzulayırdılar.

İki qardaş, iki döyüşçü Anarla Kənan Vətən müharibəsi başlayan gündən torpaqlarımızın erməni işğalından azad olunması uğrunda Xüsusi Təyinatlı Qüvvələrin tərkibində döyüşə qatılmışdılar. Kənan kəşfiyyatçı leytenant, Anar isə gizir rütbəsində düşmənin canına vəlvələ salanlardan, onlara gözdağı olanlardan idilər.

XTQ-nin şəhid leytenantı Kənan Niftalı oğlu Məmmədov 22 oktyabr 1993-cü ildə Ucar rayonunun Alpout kəndində anadan olub. 2011-ci ildə orta məktəbi bitirib. Elə həmin ildə həqiqi hərbi xidmətə çağrılıb. Kənan Məmmədov əsgəri borcunu ləyaqətlə yerinə yetirdiyinə görə komandanlıq tərəfindən təşəkkürnamələr almış, dəfələrlə valideynlərinə razılıq məktubları göndərilmişdi. Hərbi xidməti başa vurduqdan sonra Kənan 2013-cü ildə BDU-nun Filologiya fakültəsinə daxil olmuş, həmin ali məktəbi müvəffəqiyyətlə başa vurmuşdu. Vətənsevərlik hissi ilə böyüyüb tərbiyə alan K.Məmmədov universiteti bitirdikdən sonra öz ixtisası üzrə deyil, arzusunda olduğu, vətənini qorumaq, onu işğalçılardan təmizləmək məqsədilə imtahan verərək Müdafiə Nazirliyinin Təlim Tədris Mərkəzinə daxil olur. Kənan Məmmədov TTM-də kursu müvəffəqiyyətlə başa vurduqdan sonra Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə taqım komandiri vəzifəsində xidmət edir. Bir müddətdən sonra XTQ-nin kursuna yazılır və buranı bitirib XTQ-nin tərkibində qrup komandirinin müavini kimi hərbi vəzifəsini daşıyır. Kənan Məmmədov döyüş taktikasını mükəmməl bilən zabitlərdən idi. Sərbəst paraşütdən atlanma, SAT və başqa kursları keçən leytenant K.Məmmədov hərbi biliyini və bacarığını artırmaq məqsədilə daim öz üzərində çalışıb, döyüş yoldaşlarından fərqlənib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladığı andan kəşfiyyatçı leytenant Kəlbəcər rayonunda Murovdağ zirvələri uğrunda gedən qanlı döyüşlərin ən qaynar nöqtələrində vuruşub. Sentyabrın 29-da ömrünü vətənə bağışlayıb.

Ölümündən sonra Kənan Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Sinəsi dağlı Gülnisə xanımla Alpout kəndində, Kənanın ata ocağında görüşüb söhbətləşdik:

- Üstündən iki il keçsə də, Kənanın yoxluğuna inana bilmirəm. Onun gülümsər baxışı, gözəl zarafatları, şən atmacaları heç qulağımdan getmir. Elə bilirəm bu dəqiqə qapıdan içəri keçib sarılacaq boynuma. "Ana, heç Kənan ölərmi? Heç səni gözüyaşlı qoyub özü cənnətə gedərmi?" deyəcək. Kənan çox həyatsevər idi. Uşaq olarkən bir müddət Rusiyada yaşadıq. Bilmirəm qürbət gördüyündəndirmi, vətən həsrəti çəkdiyindəndirmi, ya nədəndir, çox vətəninə bağlı idi.

Vətən müharibəsi başlananda Kənan yeddi ay idi ki, ailə qurub, Günel xanımı evlərinə gəlin gətirmişdi. Xoşbəxtlik üzlərinə gülürdü. Kənan ömür-gün yoldaşına "Səni vətənim qədər sevirəm" deyərmiş. Söyləyərmiş ki, vətəni düşməndən qoruya bilməyən hərbçi bir el qızının namusunu da çəkə bilməz. Gözyaşına bülənd olan Günel xanım xəyalən Kənanlı günlərinə qayıdır:





- Kənanla 2018-ci ildə tanış olmuşduq. Onda Kənan Beyləqanda, Haramı düzü deyilən ərazidə taqım komandiri işləyirdi. Mən isə universitetdə birinci kursda oxuyurdum. İşini çox sevirdi. Elə tanışlığımızın ilk vaxtlarından XTQ-də xidmət etmək arzusunda olduğunu bildirdi. İmtahan verib kursa yazıldı. Mənə deyirdi ki, kursu bitirən kimi nişanlanarıq. Sonra toyumuzu etdik. Dediyi kimi də oldu. Əvvəl elçilik, sonra da nişan. Kənan sözünə düz, ağzıbütöv insan idi. Çalışqan idi. Günü təlimlərdə, məşqlərdə keçərdi, amma yorulmurdu. "Qarabağ azad olmayınca bizə yatmaq haramdır", - deyərdi.

Tanışlığımızın ilk vaxtlarında "Günel, hərbçi xanımı, xüsusilə kəşfiyyatçı xanımı olmağın öz çətinlikləri var. Bu çətinliklərə, bərkə-boşa dözəcəksənmi?" dedi. Söylədim ki, səninlə ölümə belə gedərəm. Yolunu gözləyərəm. Bir ömür səninlə keçirməyə, qocalmağa hazıram. Heyf, qocalıq qismətimiz olmadı.

İmkan olduqda Kənanla birlikdə dərsə hazırlaşırdıq, birlikdə kitab oxuyardıq. Mənə hər şeydə kömək edərdi. Kənan kinoya baxmağı çox sevərdi. Gecə keçənə kimi birlikdə filmlərə baxardıq. Allah, nə qədər gözəl günlərimiz var idi… Elə bilirəm hər şey nağılmış, ya mən bütün bunları yuxuda görürmüşəm.

2020-ci il martın 7-də toyumuz oldu. Ömrümüzün ən gözəl, ən bəxtəvər günü idi. Kənan deyirdi ki, Günel, mən elə bilirəm göydəyəm, uçuram. Sən demə, Kənan ruhunu göylərə bağışlamağı xoşlayırmış, zirvədə olmağa aşiqmiş.

Müharibənin başlayacağı haqqında evdə heç nə danışmırdı. Bircə onu deyirdi ki, çox güclü ordumuz var. Əgər müharibə başlasa, düşməni darmadağın edəcəyik. Sentyabrın 20-dən sonra təkrar-təkrar deyirdi ki, mən təlimə gedəcəyəm. Sentyabrın 26-sı sübh tezdən söylədi ki, təlimə gedirəm, narahat olma. Bir həftəyə gələcəm.

Kənan sözünün ağası idi. Dediyi kimi də etdi. Bir həftəyə qayıtdı. Amma bu dəfə Azərbaycan bayrağına bükülmüş, şəhid olaraq qayıtdı.

Mən Kənanı tanıdığıma, onunla ömür-gün yoldaşı olduğumuza görə qəti peşman deyiləm. Kənanı sevdiyim, onu tanıdığım üçün xoşbəxtəm. Nə qədər mənim ürəyim döyünür, Kənan da orada o qədər yaşayacaq… Özü həmişə deyərdi ki, "Şəhidlər ölmür, əbədi yaşayır. Sadəcə, biz onları görə bilmirik". Kənan ölümsüzlüyü qazanmış bir qəhrəmandır.

Şəhid leytenantın qardaşı Anar bu gün XTQ-nin sıralarında Qarabağda xidmətini ləyaqətlə davam etdirir. Gecəsini gündüzünə qatıb, Kənanın canını fəda verib azad etdiyi torpaqların keşiyində durur. Kənanın adı çəkiləndə Anarın gözü yaşla dolur:

- Biz Kənanla əkiz deyilik. Amma hamı bizi ruh əkizi bilir. Qardaşsız necə yaşamaq olur, onu bilmirəm. Bir-birimizdən ayrı düşmək nədir, bizim bir-birimizdən ayrı nəfəs almağımızı heç kim təssəvvür belə edə bilmirdi.

Kənan bir neçə dil bilirdi. Erməni, rus dillərində çox səlis, qüsursuz danışırdı, ingilis, türk dillərini də gözəl bilirdi. Çox yaxşı hafizəsi var idi. Allah onu əsl kəşfiyyatçı olmaq üçün yaratmışdı. Qarabağı, Şuşanı azad görmək ən böyük arzusu idi. XTQ-nin kursunu bitirib qrup komandiri kimi xidmətə başladı.

Döyüşlərdə də Kənanla bir yerdə olmuşam. Müharibənin ilk günündən Murovdağ yüksəkliyi uğrunda döyüşə birgə qatılmışıq.

Müharibənin ilk günləri idi. Kənanla Murov dağlarında Ömər aşırımı deyilən yerdə görüşdük. Eyni ərazidə müxtəlif istiqamətlərdə döyüşə girəcəkdik. Sarıldıq bir-birimizə. Kənan dedi ki, Anar, sənə deyiləsi sözüm var. Buyur de, söylədim. Dedi ki, mənə burada bir söz verəcəksən. Təbii, qardaşım, nə istəsən, gözüm üstə edərəm. Canım sənə fəda olsun. Nə istədiyini de, söylədim. Dedi ki, söz ver sağ qalacaqsan, salamat anamızın yanına qayıdacaqsan. Dedim ki, sən narahat olma, qardaşım, söz verirəm ki, sağ qalacağam. Amma sən də söz ver ki, yaşayacaqsan. Gözümün içinə baxıb gülümsədi. İsrar etdim ki, söz ver! Təkrar gülümsəyib "baxarıq" dedi. Vaxt az idi. Getməliydik. Aralanıb bir qədər getdikdən sonra geriyə çevrilib baxanda gördüm ki, Kənan hələ də görüşdüyümüz yerdə dayanıb, arxamca baxır. Yanımdakı döyüş yoldaşım dedi ki, biz gözdən itənə kimi o, sənin arxanca baxdı.

Bir neçə gün sonra döyüş tapşırığını yerinə yetirib dislokasiya yerinə qayıtmışdıq. Əməliyyat bitdikdən sonra yenə bir yerə cəmləşməli idik. Tez Kənanı axtardım. Təsadüfən bir nəfər, qardaşım olduğunu bilməyən kəs dedi ki, Komutan şəhid olub. O anda elə bildim ki, belim qırıldı, dünyam dağıldı. Mənə elə gəldi ki, Murovdağ uçub başıma, altında qalmışam.

Mən əsgərəm. Yenə əynimdə hərbi forma vətənin xidmətindəyəm. Canım bu vətənə fəda olsun. Təsəllim odur ki, Kənanın, şəhidlərimizin canını verib, qanını töküb aldıqları bu torpağı qoruyanlar sırasında mən də varam. Qardaşım Kənanın ən böyük arzusu torpaqlarımızı azad görmək idi. Çox şükür, torpaqlarımız azaddır. Kənanın da ruhu azad Azərbaycanımızın səmasında rahat dolanır. Nur içində yat, mənim nurüzlü qəhrəman qardaşım.

Kənan və Vətəni canlarından çox sevib, bayraqlaşan qəhrəmanlarımız bir ananı gözüyaşlı, bir gülüzlü xanımı sinəsi dağlı, boynubükük qoysalar da, Vətənin başını ucaltdılar. Şəhidlər ölmür, şəhidlər əbədi yaşardılar. Sentyabrın 29-da Kəlbəcərin azad olunması uğrunda qəhrəmancasına şəhid olan Kənan Məmmədov 2 oktyabr 2020-ci ildə böyük bir izdiham, bir el məhəbbəti ilə doğulub böyüdüyü Alpout kəndində torpağa tapşırıldı. Müqəddəs insanların, nurlu kişilərin uyuduğu Alpout kənd qəbiristanlığında indi bir məzar var. Hər gün üstünə tər-çiçəklər düzülən, qəhrəmanlıq salnaməmizin ən şanlı səhifəsini yazanlardan biri, ziyarətgaha çevrilmiş ikiulduzlu gənc leytenant Kənan Məmmədovun məzarı...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***




# Zəfərin Narin övladı

**Mən Narinəm...**
**İncəyəm, zərifəm, kövrəyəm...**
**Yaşımı soracaq olsanız, hələ çox körpəyəm...**
**Amma həm də çox böyüyəm...**
**Mən Zəfərin övladıyam...**
**Qələbəmizlə birgə boy atıram, hər il yaşımın üzərinə qürurlu bir yaş da gəlir...**
**Vətənin 10 aylıq şəhid balasıyam...**
**Bu müqəddəs adı körpə çiyinlərimdə əbədiyyətədək qürurla daşıyacam...**







## Hələ körpə dünyasının təkrəngli axarındaydı

Nə yaşamışdı ki, bu fani dünyada!?

Cəmi 10 aylıq körpəydi...

Hələ körpə dünyasının təkrəngli axarındaydı, hələ bu dünyanın rənglərini doğru-düzgün ayırd edə bilmirdi, çəhrayı görünürdü hər şey gözünə...

Təzəcə dili söz tutur, səhərdən axşama qədər hıçqırıqlı körpə gülüşləri içərisində "ana", "ana" deyərək dünyada ən sevdiyi kəlməni səsləndirirdi...

Həyatdakı ilk kövrək addımlarını yenicə atırdı...

Hələ boy atacaqdı, böyüyəcəkdi, ümidləri, diləkləri olacaqdı...

Bağçaya, məktəbə yollanacaqdı, arzularının arxasınca gedəcəkdi, sevəcəkdi, seviləcəkdi...

Bir gün əllərinə qırmızı xına qoyulacaqdı, telli duvaqlı gəlin, ana, nənə olacaqdı...

Amma bütün bunları yaşamağa taleyi yetmədi, həyat payı qısa oldu...

Ömrünün baharında şaxtaya, sazağa, borana düşdü...

Tanrıya sarı pərvazlandı, mələk oldu...

Şəhid oldu Narin...

## Anası ilə əl-ələ şəhadətə doğru yolçuluğa çıxdı

İlahi, yarımçıq bir ömür, körpə ikən kökündən qoparılan fidan haqqında nə deyəsən, nə yazasan?!

Bu qızcığazın fotolardan həyata gülümsəyən gözlərinə necə gözyaşı axıtmadan baxasan?!

Balaca Narinin qısa ömrünün qüssəli hekayəsinə, körpə ikən qəlbinin pardaqlanmasına, vaxtsız dayanmasına ürəyin parçalanmadan necə qulaq verəsən?!



2019-cu ilin 17 dekabrından 2020-ci ilin 17 oktyabrına qədər, cəmi 10 aylıq bir zaman dilimini əhatə edən qısa bioqrafiyası var Narinin.

Neçə illər Xalıqovlar ailəsi həsrətlə onun yolunu gözləmişdilər, Allaha yalvarmışdılar, qurbanlar demişdilər. Nəhayət, duaları çin olmuşdu, Tanrı onlara bir qız övladı bəxş etmişdi. İncə, zərif olduğu üçün adını Narin qoymuşdular. Valideynləri gecə-gündüz pərvanə kimi körpələrinin başına dolanmaqdan, saatlarla beşiyinin yanında durub onun nurlu üzünü seyr etməkdən doymamışdılar. Narinin ayrılığı ilə sınağa çəkiləcəkləri əvvəlcədən ürəklərinə dammış kimi...

2020-ci ilin 17 oktyabrı idi...

Həmişəki kimi Narin onu bağrına basaraq laylay çalan anasının məlahətli səsinin ahəngində şirin, qızılgül ətirli röyalar aləminə baş vurmuşdu. Elə körpəsinin zərif simasını izləyə-izləyə ananın da gözlərini yuxu aparmışdı...

Amma zalım fələk o gecə nə balaya, nə də anaya daldıqları yuxudan bir daha oyanmağı nəsib etmədi. Narinin də, anası Sevilin də həyatlarını yuxulardakı kimi dərin qaranlığa, gecə kimi zülmətə qərq etdi...

O gecə anasının qoynunda, anası ilə birlikdə haqqın dərgahına, şəhadətə doğru yolçuluğa çıxdı Narin.

## Xatirəsi sonsuzadək qəlblərdə əbədiyaşarlıq qazandı

2020-ci ilin 17 oktyabrında Gəncəni növbəti dəfə raket atəşinə tutan erməni faşistlərinin törətdiyi terrorun qurbanlarına çevrilənlərdən biri də Naringilin ailəsi oldu. Bu xain hücum nəticəsində Narin Teymur qızı Xalıqova anası Sevil Əsgərova, həmçinin yaxın qohumları Suliddin Əsgərov, Bəxtiyar Əsgərov, Nigar Əsgərova ilə birlikdə həlak oldu.

İlahi, nə qədər ağrılı, acılı yazmışdın bu tifilin taleyini!?.

Heç o gün Narinin körpə nəşi üzərində saçlarını yolacaq, balasını son dəfə oxşayacaq, yanıqlı bayatılar çəkəcək, gülüzlü övladını son dəfə haraylayacaq, onun cansız bədənini qucaqlayaraq hönkür-hönkür ağlayacaq anası da yanında yox idi.

O gün anası əvəzi xalqımız körpə Narinin vaxtsız ölümünə yandı, əl boyda məzarını gözyaşlarıyla yudu...

O gün heç 1 yaşı belə tamam olmayan bu günahsız körpə də Vətən uğrunda canından keçən qəhrəman şəhidlərimizin cərgəsinə qoşuldu.

Haqq səsimizin dünyadakı körpə carçısına çevrildi Narin, bir daha terrorçu düşmənin qatil əməllərini aləmə hayqırdı.

2021-ci ilin 27 sentyabrında - Vətən müharibəsinin başlanması münasibətilə Anım gününə həsr olunmuş yürüşdə Birinci vitse-prezident Mehriban Əliyeva 10 aylıq şəhid Narin Xalıqovanın rəsmini əlinə alaraq yürüşdə iştirak etdi.

Bəli, özü bu dünyada yaşamağa macal tapmasa da, ömrü yarımçıq qırılsa da, körpə Narinin xatirəsi sonsuzadək Azərbaycan xalqının qəlbində əbədiyaşarlıq qazandı.

Ruhun şad olsun, körpə Narin!

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Evin tək övladının qəhrəmanlıq yolu



Sentyabrın 27-dən başlayan, 44 gün davam edən, işğal altındakı torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilib.

Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsi zamanı əsl vətənpərvərlik və qəhrəmanlıq göstərib, düşmənin canlı qüvvəsini, texnikasını məhv edərək Qələbə qazanıb və tarixi ədalət bərpa olunub. Bu və digər işğal altında olan yurd yerlərimizin azad olunmasında üç minə yaxın oğlumuz qəhrəmancasına şəhid olub. Həmin şəhidlərdən biri də Rüfət Zöhrab oğlu Mustafayevdir.

Əslən Qubadlı rayonunun Dondarlı kəndindən olan Rüfət Mustafayev 1996-cı il martın 12-də Sumqayıt şəhərində anadan olub. 18 nömrəli məktəbdə oxuyub və 2013-cü ildə həmin təhsil ocağını bitirib. Elə həmin il dövlət imtahanını uğurla verərək Azərbaycan Texniki Universitetinin Maşınqayırma və robototexnika fakültəsinə qəbul olunub.

Evin tək övladı olan Rüfətin ən böyük arzusu ali məktəbi qurtarandan sonra polis olmaq, insanların asayişini qorumaq idi. Öncə hərbi xidmətini keçməli, Vətənə olan borcunu yerinə yetirməliydi. O, ordu sıralarına könüllü getmişdi. Azərbaycan Silahlı Qüvvələrinin Quru Qoşunlarında həqiqi hərbi xidmət keçirdi. Sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsinə əsgər Rüfət Mustafayev də qatıldı. Döyüşlərin ən qaynar nöqtələrində xidmətini davam etdirdi.

Rüfət Mustafayev Vətən müharibəsi döyüşlərində fəal iştirak edir, cəsarəti və cəsurluğu ilə seçilirdi. O, cəmi bir aydan sonra tərxis olunmalıydı. Ata və ana artıq hazırlıqlara başlamışdılar. Hərbidən qayıdan kimi onu evləndirməyi belə fikirləşirdilər. "Tək övladdır. Vaxtında evlənib, oğul-uşaq sahibi olsun", - deyib planlar qururdular...

Rüfət gündə iki dəfə valideynlərinə zəng vurar, hal-əhval tutar, onlara toxtaqlıq verərdi, ondan nigaran qalmamağı dönə-dönə tapşırardı. Heç vaxt yerini aşkar bildirməzdi. Halbuki Suqovuşanın alınmasında qəhrəmancasına iştirak etmişdi. Rüfət sonuncu zəngini oktyabrın 9-da atasına edib. Həmin gecə polkovnik-leytenant Zaur Cəfərov, kapitan Samir İslamov və Rüfət döyüş tapşırığını yerinə yetirmək üçün yola çıxıblar. 2020-ci il oktyabrın 9-dan 10-na keçən gecə Ağdərə istiqamətində gedən şiddətli döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin hücum cəhdinin qarşısını alarkən, idarə etdiyi minik avtomobili ilə minaya düşərək, komandiri polkovnik-leytenant Zaur Cəfərovla birlikdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 13-də şəhidin nəşi valideynlərinin yaşadığı Sumqayıt şəhərinə gətirilmişdir. Cənazəsi yaşadığı ərazidə izdihamla qarşılanmışdır. Oradan avtomobil karvanı ilə Sumqayıt Şəhidlər xiyabanına yürüş olmuşdur.

Anası Afət Mustafayeva oğlu ilə bağlı xatirələrini bizimlə bölüşdü: "Sonuncu dəfə sentyabrın 6-da onunla görüşə getdik. Hər dəfə də gedəndə ürəyi istədiyi xörəkləri bişirib aparardım ki, həm özü, həm də əsgər yoldaşları yesinlər. Bu dəfə gedəndə bayrağımızı da apardım ki, maşınından assın. Sonuncu dəfə görüşəndə bayrağı atasına verib ki, Qubadlı işğaldan azad olunanda aparıb o yerlərdə ucaldarsınız. Sanki əvvəldən bilib ki, Qubadlı azad olunandan sonra atası yurdumuza gedəcək və onun əmanət elədiyi bayrağı aparıb Aşağı Xocamsahlı kəndində ağaca sancacaq. Çünki bayrağımızı sancmağa nə bir ev, nə də məktəb var idi. Düşmən daşı daş üstündə qoymamışdı".

Şəhidliyindən 15 gün sonra Qubadlı rayonu erməni işğalçılarından azad edildi. Qubadlı haqqında nənələrdən, ata və analardan çox söhbətlər eşidib xəyallar qurmuşdu. O yerlərə qayıdacaq günlərin xəyallarını edirdi.

Prezident İlham Əliyevin sərəncamları ilə Rüfət Mustafayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

***Elşən YƏHYAYEV, "Azərbaycan"***

# Bir kəndin iki şəhidi





**2003-cü il iyunun 16-sı səhərin gözü Lənkəranın Şağlaser kənd sakinləri üçün qara xəbərlə açıldı. Ağadadaş kişinin oğlu İqbalın cəbhə bölgəsində həlak olması xəbəri böyükdən-kiçiyə bütün kənd əhlini sarsıtmışdı.**

Ağadadaş kişi halal adam olub. Uzun müddət yerli təsərrüfatda sürücü işləyib, zəhmətlə dolanıb və övladlarını da bu yolla böyüdüb. Hamı onu el-oba təəssübünü çəkən, xeyrə-şərə yarıyan yaxşı insan kimi tanıyıb.

Günün ikinci yarısında Şağlaser camaatı daha bir şəhid övladını son mənzilə yola salırdı. "Daha bir şəhid" ifadəsini mən əbəs yerə işlətmədim. Şağlaserin sayseçmə oğullarından Rəfael Ağayev 1988-ci ilin dekabr ayında, Asif Əsədullayev 1990-cı ilin müdhiş 20 yanvar gecəsində, Mütəllim Fərəcov isə 1998-ci il may ayının 15-də Qarabağ uğrunda döyüşlərdə şəhid olublar. İndi budur, şəhidlik qisməti boylu-buxunlu, pəhləvan cüssəli İqbalın qismətinə düşmüşdü. Kənd qəbiristanlığında baxışlar kədərli, üzlər qəmli, gözlər nəmli idi...

İqbal Həsənov 1983-cü il sentyabrın 30-da anadan olmuşdu. Tanıyanlar, bilənlər söyləyirlər ki, İqbal özünə, sözünə güvənən oğlan idi. Mayası zəhmətdən yoğrulmuşdu. Beş qardaş, altı bacı idilər. Ailədə sonbeşik olan İqbal heç kimə yük olmaq istəmirdi. Sərbəstliyə, müstəqilliyə can atırdı. Elə bu məqsədlə də orta məktəbin 9-cu sinfində təhsilini yarımçıq saxlayıb Rusiyaya qazanc dalınca yollandı. 18 yaşı tamam olanda Vətənə qayıdıb könüllü əsgər getdi. Evə ancaq xoş sorağı gəlirdi. Bir neçə dəfə komandirlərindən alınan məktublarda İqbalın nümunəvi və intizamlı bir əsgər olduğu, döyüş tapşırıqlarına layiqincə əməl etdiyi bildirilirdi. Tərxis olunacağı barədə sərəncamın verilməsinə cəmi bir həftə qalırdı...

İyunun 15-də Milli Qurtuluş günü səhər erməni daşnakları atəşkəs sazişini xaincəsinə pozaraq İqbalın qulluq etdiyi Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonundakı hərbi hissəsinin mövqelərini atəşə tutdular. Düşmənlə əsl ölüm-dirim mübarizəsinə girişən əsgərlərimiz ermənilərin cavabını layiqincə verərək onları susdurmağa müvəffəq oldular. İqbal bu döyüşdə fədakarlıq göstərib, düşmən tərəfə sarsıdıcı zərbələr endirdi. Amma çox təəssüf ki, o, namərd erməni snayperindən yayına bilmədi. Düşmən gülləsinə tuş gələn İqbal Həsənov qəhrəmancasına həlak oldu. Vətən torpağı, xalqının qeyrəti uğrunda şəhid olan lənkəranlı balasının həyat yolu beləcə əbədiləşdi, sonsuzluğa qovuşdu və müqəddəsləşdi...

❖ ❖ ❖

İqbalın vəfatının düz 40-cı günündə daha bir faciəli xəbər Şağlaser camaatını sarsıtdı. Kənd qəbiristanlığı bu dəfə Milli Ordunun baş leytenantı Zaur Qubad oğlu Nurullayevi öz ağuşuna aldı.

Zauru yaxşı tanıyırdım. Düz iki il - 1994-1995-ci illərdə Şağlaser kənd tam orta məktəbində onun oxuduğu 9-10-cu siniflərdə Azərbaycan dili və ədəbiyyatı fənlərindən dərs demişdim. Zaur müəyyən xüsusiyyətlərinə görə həmyaşıdlarından bir qədər fərqlənirdi. O, boy-buxununa, qədd-qamətinə görə sinif yoldaşlarından yaşca böyük görünürdü. Erkən siqaret çəkməyi də bəlkə bundan irəli gəlirdi. Sinifdə ara-sıra Qarabağdan söhbət düşəndə Zaur böyüklərə məxsus ciddi görkəm alaraq: "Darıxma, müəllim, bir gün gələr, gedib ermənilərin dədəsini yandıraram!", - deyərdi.

Onuncu sinifdə Zaur artıq öz gələcək həyat yolunu müəyyənləşdirmişdi: o, Həzi Aslanov adına Bakı Ali Hərbi Ümumqoşun Komandirlər Məktəbinə daxil olmaq fikrində idi.

Elə Zaurun öz istədiyi kimi də oldu. 1995-ci ildə orta məktəbi bitirərək hərbi məktəbə imtahan verib kursant adına layiq görüldü.

Yuxusuz gecələr, gərgin keçən məşğələlər, təlim-məşq toplantıları bu lənkəranlı balasının iradəsini heç cür qıra bilmədi. O, çətinlikləri, əzab-əziyyətləri kişi kimi dəf etməklə daha da mətinləşdi, bərkidi.

1999-cu ildə Zaur, nəhayət ki, komandir diplomu ilə birbaşa cəbhəyanı bölgəyə göndərildi. Tezliklə burada onu bacarıqlı istehkamçı zabit kimi tanımağa başladılar. Zaur mərdliyi və şücaəti ilə həm komandirlərin, həm də əsgərlərin diqqətini özünə cəlb etdi, hamının hörmətini qazandı.

Zaur Nurullayev torpaqlarımızn tezliklə azad olunacağına inanırdı. Təəssüf ki, özü həmin günlərə qədər yaşaya bilmədi. 2003-cü il iyulun 22-də hərbi tapşırığı yerinə yetirərkən minaya düşərək həlak oldu.

Zaurun parlaq gələcəyi vardı. O, bəlkə də haçansa general olacaqdı. Amma 25 yaşında vaxtsız ölüm ona bu imkanı vermədi. İndi ruhu Vətən göylərində dolaşan Zaurun generaldan da ali rütbəsi var: şəhidlik rütbəsi! Bu rütbəni qazanmaq isə hər kişinin işi deyil.

Haradasa oxumuşdum: "Elə yaşamaq lazımdır ki, öləndən sonra da yaşaya biləsən". Şəhidliyi ilə xalqın ürəyində özlərinə əbədi məskən salan İqbal Həsənov və Zaur Nurullayev kimi Vətən övladları məhz belələrindədir. Qədirbilən Azərbaycan xalqı özünün qəhrəman övladlarının xatirəsini həmişə əziz tutub yaşadacaq.

***Ağaddin BABAYEV, "Lənkəran" qəzetinin əməkdaşı***

# Qətiyyətin, inkişafın və həmrəyliyin təntənəsi

Bu gün torpaqlarımızın azadlığı ilə nəticələnmiş Vətən müharibəsinin başlanmasının ikinci ili tamam olur. 44 gün davam edən bu müharibədə qazandığımız Zəfər Azərbaycanın yüksəlişinin, Prezident İlham Əliyevin qətiyyətinin və müdrikliyinin, Silahlı Qüvvələrimizin gücünün, hərbçilərimizin yüksək döyüş əzminin milli həmrəyliyimizin təntənəsinə çevrilməklə, tariximizə xalqımızın qürur mənbəyi kimi həkk olundu.

Azərbaycan torpaqlarının 30 ilə yaxın işğal altında qalması müasir beynəlxalq münasibətlərin ən böyük ədalətsizliklərindən biri idi. İşğala məruz qalan da, işğalçı da gün kimi aydın olsa da, Qərb siyasi mərkəzləri əsl həqiqətləri dilə gətirməkdən hər vəchlə uzaq oldular. Artıq fəaliyyəti dayanmış ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlarda ilk gündən ədalətli mövqe ortaya qoyulmadı. BMT qətnamələrinə müvafiq olaraq ərazilərimizin azad edilməsi heç vaxt Minsk qrupunun həmsədrləri tərəfindən Ermənistanın qarşısında şərt olaraq qoyulmadı.

Bütün tarixi reallıqlar, tarixi faktlar aydın olsa da, münaqişənin həllinə cəlb edilmiş beynəlxalq missiya işğalçını öz adı ilə çağırmadı və 30 ilə yaxın bir dövrdə Azərbaycanın üzləşdiyi problemin timsalında beynəlxalq hüququn norma və prinsipləri kobud şəkildə pozuldu. Bununla da həm dolayısı, həm də aşkar şəkildə Ermənistanın işğalçılıq siyasətinə dəstək verildi və düşünürdülər ki, zamanla, nəsillər dəyişdikcə Azərbaycan bu vəziyyətlə razılaşacaq.

Lakin Azərbaycan dövlətini və xalqımızı öz yolundan döndərmək, milli davasından uzaq salmaq mümkün deyildi və xalqımız öz torpaqlarının uzun müddət Ermənistanın işğalı altında qalması ilə barışa bilməzdi. Sülh danışıqları prosesinə sadiq qalan Azərbaycan dövləti torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəyini heç bir zaman gizlətmədi. Bunun üçün, sadəcə, zamana ehtiyac vardı...

Bu zamanı isə Heydər Əliyev siyasi kursu və bu siyasətin layiqli davamçısı olan möhtərəm Prezident İlham Əliyevin respublikamıza müdrik rəhbərliyi yetişdirdi. Dövlətimizin başçısı bu illər ərzində yürütdüyü siyasətlə torpaqlarımızın azad edilməsi üçün uyğun tarixi şərait formalaşdırdı. Ermənistan danışıqlar prosesində imitasiya ilə məşğul olanda, Ali Baş Komandanımız ordumuzun döyüş imkanlarını artırdı. Bu illər ərzində Ermənistan öz ordusu barədə miflər yaradanda Azərbaycan Ordusu təlimlərlə peşəkarlığını artırdı, işğalçıların cəbhə xəttindəki mürəkkəb müdafiə mövqelərini yarmaq məqsədilə məşq etdi.

Beləliklə, "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik", - deyən Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində sərkərdə qətiyyəti ilə tarixi ədaləti bərpa etdi. Bu qələbə həm də Azərbaycanın ərazi bütölüyünün bərpa olunması fonunda beynəlxalq hüququn təntənəsi kimi tarixə həkk olundu.

Respublikamız İkinci Qarabağ savaşında öz ərazi bütövlüyünü təmin edərkən BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutdu, bütün addım, hərəkət və qərarlarında qəbul olunmuş normalar çərçivəsində, həm də humanistlik, insanpərvərlik, sülhsevərlik prinsiplərini rəhbər tutmaqla hərəkət etdi. Dünya erməniliyi, bəzi xarici təşkilatlar tərəfindən dövlətimizin ünvanına yalan ittihamlar səslənsə də, onların heç biri ortaya əsaslı və tutarlı fakt qoya bilməmişlər. Bir neçə gün əvvəl Laçın rayonuna səfəri zamanı çıxış edən Prezident İlham Əliyev bir daha bəyan etdi ki, biz döyüş meydanında ərazilərimizi azad etmişik: "Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniliyi və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti həyata keçirmək istəyirdilər. Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik".

Biz torpaqlarımızın ordumuzun rəşadəti, şəhidlərimizin qanı, qazilərimizin canı bahasına işğaldan azad etdik. Vətən müharibəsində 3 min nəfərə qədər Vətən oğlu canından keçdi. Qarabağ və Şərqi Zəngəzur indi bizim üçün həm də ona görə müqəddəsdir ki, bu torpaqlara igid oğullarımızın qanı hopub. Prezident İlham Əliyevin sərəncamı ilə 27 Sentyabrın Anım Günü kimi təsis olunması şəhidlərimizin xatirəsinə ehtiramın ən böyük nümunəsidir.

Prezident İlham Əliyevin tapşırığına əsasən, Vətən müharibəsi şəhidlərinin ailələri, müharibə iştirakçıları ilə bağlı görülən sosial dəstək tədbirləri də cəmiyyətdə böyük razılıqla qarşılanır. 2021-ci ildə 3 min mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə verilib. Bu il üçün bu kateqroiyadan olan vətəndaşlara daha 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulur.

44 günlük Vətən müharibəsindən sonrakı dövrdə genişmiqyaslı sosial dəstək tədbirlərinin bir istiqaməti kimi şəhid ailələri və müharibə iştirakçılarından ibarət 13,5 min şəxs aktiv məşğulluq proqramlarına, o cümlədən 8 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. İndiyədək 2 minə yaxın şəhid ailəsi üzvü və müharibə veteranı özünüməşğulluq proqramı çərçivəsində mal və materiallar formasında aktivlərlə təmin olunub.

İki həftə əvvəl dövlət sərhədi istiqamətində Ermənistanın təxribatları ilə əlaqədar həyata keçirilən cavab tədbirləri bir daha göstərdi ki, "dəmir yumruq" yerindədir və istənilən an düşmənin başını əzməyə hazırdır. Bu döyüşlər bir daha Azərbaycan Ordusunun gücünün, döyüş ruhunun təntənəsi oldu. Xəbərdarlıqlardan nəticə çıxarmayan İrəvan yenidən "dəmir yumruğ"un zərbəsini aldı. Azərbaycan Ordusu əzici üstünlüyünü bir daha döyüş meydanında sübuta yetirdi. Eyni zamanda bu hadisə Azərbaycan dövlətinin beynəlxalq birlikdəki mövqelərinin nə qədər möhkəm olduğunu bir daha nümayiş etdirdi. Çünki Ermənistan nə qədər cəhd etsə belə hadisələr zamanı beynəlxalq miqyasda özünə dəstək qazana bilmədi. N.Paşinyan gecə saatlarında telefonlardan sallanaraq ora-bura zənglər etsə də, heç nəyə nail olmadı. Ermənistan üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının da öz təxribatçı oyunlarına alət edə bilmədi.

Bir sözlə, bir neçə gün əvvəl baş verən döyüşlər tarixə Azərbaycan dövlətinin gücünün növbəti təcəssümü kimi həkk olundu. Bir daha göründü ki, Ermənistan hərbi təxribatlarla heç nəyə nail ola bilməyəcək və Azərbaycan onu üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur edəcək.

İşğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işləri sürətlə və sistemli şəkildə davam edir. Bu torpaqları azad edən Prezident İlham Əliyevin diqqət və qayğısı ilə şəhər və kəndlərimizə yeni həyat bəxş olunur. Bərpa və quruculuq işləri isə kompleks şəkildə həyata keçirilir. Həm yeni infrastrukturlar inşa edilir, həm Qarabağ və Şərqi Zəngəzurun iqtisadiyyatı bərpa olunur, həm də keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün təsdiqlənmiş baş planlara uyğun olaraq yaşayış məhəllələri salınır, kəndlər "ağıllı" konsepsiyalarla yenidən qurulur.

Gələn il Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə 2023-cü ilin dövlət büdcəsindən 3 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu ilk növbədə göstərir ki, işğaldan azad olunmuş ərazilərin bərpası sürətlə gedir. Başqa bir həqiqət isə ondan ibarətdir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün Azərbaycanın yetərincə maliyyə imkanları var.

***Hadi RƏCƏBLİ,***
***siyasi elmlər doktoru,***
***professor***



# "Dəmir yumruğ"un bərpa etdiyi ədalət

Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 44 günlük müharibə torpaqlarımızın azad olunması ilə nəticələndi. Döyüş hazırlığı yüksək olan ordumuz Ermənistanı məğlub edərək diz çökdürdü. Bu savaş Azərbaycan xalqının haqq işi idi. Bu, erməni təcavüzünün qurbanı olan vətəndaşlarımızın qanının yerdə qalmamasının, düşməndən alınan intiqamın təntənəsi idi.

Ermənilərin türklərə, o cümlədən azərbaycanlılara qarşı yönələn təcavüzünün ikiəsrlik tarixi var. Ermənilərin XIX əsrdən başlayaraq köçürüldükləri Azərbaycan torpaqlarında qaldırdıqları ərazi iddiaları həmişə insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. Onların Azərbaycan xalqına qarşı törətdiyi Xocalı, Qaradağlı, Başlıbel faciəsi cəmi 30 il əvvəl insanlıq tarixinə qanla yazılan bir soyqırımı cinayətləridir.

Bütün dünya Qarabağı Azərbaycan ərazisi kimi tanısa da, bu torpaqlar işğal olunmuşdu və 30 ilə yaxın müddətdə Qərb siyasi dairələri beynəlxalq hüququn normalarının pozulduğunu görməzliyə vurmuşdu. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Amma ATƏT-in artıq arxivə atılmış Minsk qrupu heç vaxt Ermənistana təzyiq göstərmədi. Minsk qrupunun keçirdiyi görüş və monitorinqlərin səmərəsizliyi, düşməni işğal etdiyi torpaqlardan öz qoşunlarını çəkməyə sövq etdirmək imkanlarına malik olmaması nəticə etibarilə təcavüzkarın dəyirmanına su tökürdü. Bu da istər-istəməz Minsk qrupuna qarşı inamsızlığa gətirib çıxarmışdı. Hətta torpaqlarımızın ilhaqı üçün 30 ilə yaxın danışıqlar dövründə Azərbaycana təzyiqlər də oldu, respublikamızı özünün milli maraqlarının ziddinə olan kompromislərə getməsinə cəhdlər göstərildi.

Əlbəttə, vəziyyət belə davam edə bilməzdi. 2016-cı ilin Aprel döyüşləri, Cəbrayıl və Tərtər istiqamətində əldə olunan zəfər, Cocuq Mərcanlı kəndinin, Lələtəpə və digər strateji yüksəkliklərin azad olunması, əlverişli döyüş mövqelərininin ələ keçirilməs 44 günlük müharibənin qığılcımları idi.

2019-cu il oktyabrın 3-də Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI iclasının plenar iclasında Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi "Qarabağ Azərbaycandır!" sözləri bir daha təsdiq edirdi ki, torpaqlarımızın azad olunacağı tarix uzaqda deyil.

2020-ci ilin yayında ermənilər hərbi-siyasi təxribatlarını daha da artırdılar. İşğal etdikləri torpaqlarımızda qüvvələrini döyüş hazırlığı vəziyyətinə gətirdi, Şuşada qondarma rejim üçün hansısa mərasimlər keçirdi, habelə xarici ölkələrdən gətirdikləri erməniləri Qarabağa və Şərqi Zəngəzura yerləşdirirdilər. Artıq bütün bunlar göstərirdi ki, Ermənistan sülh istəmir. 2020-ci ilin iyul ayında Ermənistanın dövlət sərhədinin Tovuz rayonunda törətdiyi hərbi təxribat isə artıq danışıqlar prosesini tam dayandırmış, müharibənin qaçılmazlığını gündəmə gətirmişdi.

Ermənistanın 2020-ci il sentyabrın 27-də cəbhə xəttində törətdiyi növbəti hərbi təxribatdan sonra Azərbaycan Ordusunun həyata keçirdiyi cavab tədbirləri düşmənin döyüş meydanında darmadağın edilməsi ilə nəticələndi. Həmin tarixdən başlanan Vətən müharibəsi cəmi 44 günə Azərbaycanın qələbəsi ilə başa çatdı. Bu savaşda ərazi bütöülüyünü bərpa etməklə Azərbaycan beynəlxalq konvensiyalarla təsbit olunmuş hüquqlarını güc yolu ilə təmin etməyin yeni nümunəsini yaratdı.

Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi cavab tədbirləri, yüksək peşəkarlıqla düşünülmüş hərbi əməliyyatları hərb tarixində hər zaman xatırlanacaq hadisələr kimi qalacaq. Ermənilərin qürrələndikləri Ohanyan səddinin elə ilk həmlədə keçilməsi sıradan bir əməliyyat hesab oluna bilməz. İlk dəqiqələrdən düşməni geri oturdan bölmələrimiz bütün hərbi əməliyyatları qələbə ilə başa vurdular. Birbirinin ardınca şəhər və kəndlərimizi işğaldan azad etdilər.

Döyüş meydanında məğlubiyyətə düçar olan Ermənistan rəhbərliyinin müharibənin getmədiyi yaşayış məskənlərini raket qurğularından istifadə etməklə hədəf seçməsi isə insanlıq əlyhinə cinayət idi. Gəncə, Bərdə, Tətər kimi şəhər və rayonlara atılan raketlər mülki vətəndaşlarımızın həlak olması ilə nəticələndi. Ermənistan dövlətinin bu cinayət əməlləri 12 avqust 1949-cu il Cenevrə Konvensiyasının və onun Əlavə Protokollarının, 27 yanvar 1977-ci il terrorçuluqla mübarizə üzrə Avropa Konvensiyasının və 1946-cı il BMT Nizamnaməsinin tələblərinin kobud şəkildə pozulması deməkdir.

Vətən müharibəsində tarixi qələbənin qazanılmasında hərbçilərimizin yüksək vətənpərvərlik hisslərinə, döyüş əzminə malik olmaları böyük rol oynadı. Döyüşlər başa çatandan sonra Ermənistan mənbələri etiraf etdilər ki, Azərbaycan Ordusunun gücü qarşısında erməni əsgərlər duruş gətirə bilməyib cəbhənin bütün istiqamətlərində qaçıblar, kütləvi şəkildə fərarilik ediblər. Bəli, Azərbaycan əsgəri düşmənin üzərinə ölümdən belə çəkinmədən hünərlə, cəsarətlə yürüdü. Bu yolda şəhidlik zirvəsinə də ucaldı.

Şəhidlərimizin əziz xatirələri daim uca tutulacaq, onların ailə üzvləri həmişə yüksək dövlət qayğısı ilə əhatə olunacaqlar. Onu da qeyd edək ki, Şuşanın azad edilməsi xəbərini də Ali Baş Komandan məhz Şəhidlər xiyabanından xalqımıza çatdırmışdı.

Vətən müharibəsinin 44 günü ərzində isə Azərbaycan xalqı bir daha öz rəhbərinin vətənpərvərliyinin, qətiyyətinin, yenilməzliyinin şahidi oldu. Məhz bu amillər xalqımızı tarixdə görünməmiş dərəcədə bir amal uğrunda həmrəy etdi. Məhz İlham Əliyevin torpaqlarımızın azadlığı uğrunda qətiyyətli addımları, ilk gündən nümayiş etdirdiyi hərbi-siyasi əzmi hər bir azərbaycanlını öz rəhbərinin ətrafında daha sıx birləşdirdi.

Vətən müharibəsindəki qələbə Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasına səbəb oldu. İndi Qarabağda və ona yaxın ərazilərdə infrastruktur layihələr həyata keçirilir, yollar çəkilir, beynəlxalq hava limanları tikilərək istifadəyə verilir, əhalinin tədricən öz doğma yurd-yuvalarına qayıdışı üçün ciddi addımlar atılır. Zəngilan rayonunda "ağıllı kənd" layihəsi əsasında inşa olunan Ağalı kəndinə ilk sakinlərin köçürülməsi, orada yaşayacaq insanlar üçün yaradılan şərait Azərbaycanın iqtisadi qüdrətindən xəbər verir.

Hazırda azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri geniş miqyas alıb. Bu gün bütün dünya Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işlərinin fonunda Azərbaycan təkbaşına, yalnız öz daxili imkanları hesabına necə nəhəng layihələr həyata keçirdiyini görür. Dövlətimizin maliyyə imkanları yüksəldikcə bu istiqamətdə ayrılan vəsaitlərin həcmi də artacaq, işğaldan azad olunan bölgələrimizin bərpası prosesi ən yüksək səviyyədə başa çatdırılacaq.

***Habil QURBANOV,***
***AMEA-nın Azad Həmkarlar İttifaqının sədri,***
***hüquq elmləri doktoru, professor***

# Vətənin zəfər rəmzləri



Deyirlər, şəhidlik Tanrı dərgahındakı ucalıqdır. Şəhadət məqamı ölüm üzərinə qorxmadan yürüyən qəhrəman oğulların sinələri ilə ana torpağa sipər olaraq, Vətənə tən gəlmək zamanıdır.

2020-ci ilin 27 sentyabrından 8 noyabrına qədər olan 44 günlük Vətən müharibəsində də qəhrəman Azərbaycan oğulları bir daha sübut etdilər ki, "Torpaq əgər uğrunda ölən varsa, Vətəndir".

## Haqq yolunda öldü var, döndü yox

27 sentyabr 2020-ci il...

Ali Baş Komandan İlham Əliyevin "İrəli" əmri ilə Zəfər yürüşünə çıxan qəhrəman Azərbaycan oğullarının qəzəbli nərəsi yeri-göyü lərzəyə salmışdı. Ana yurdun harayına tələsən ərənlərin qisas odu saçan iti baxışları mənfur düşmənin bağrını ox kimi dəlib keçmişdi. Həmin gün mərd oğullarımız Vətən uğrunda canından keçən bütün şəhidlərimizin müqəddəs ruhuna, ürəklərinin üzərində gəzdirdikləri ay-ulduzlu, üçrəngli Azərbaycan bayrağına and içmişdilər.

And içmişdilər ki, çıxdıqları bu haqq yoldan öldü var, döndü yox. Son damla qanlarınadək çarpışıb, vuruşub düşməni məhv edəcəklər, müqəddəs bayrağımızı qürurla Qarabağın ən hündür zirvələrində, Şuşada dalğalandıracaqlar, Qələbə qazanacaqlar.

Və bu uğurda lazım gəlsə, sinələrini düşmən gülləsinə sipər edəcəklər, canlarıyla qoruyacaqlar ana torpağı.

## İgidlərimiz Zəfər yolu ilə irəliləyib düşməni məhv etdilər

O gün, sentyabrın 27-də qəhrəman Azərbaycan oğulları düşmənə qisas hissi ilə yollandılar ön cəbhəyə, işğalçıya həddini bildirməyə.

"Dəmir yumruğ"a çevrilib mənfurların başını əzərək addım-addım Vətən torpaqlarımızı azadlığına qovuşduran cəsur igidlərimiz doğma nəfəsləri ilə yaralı yurdlarımıza can verdilər, cəmi 44 günə işğalçılardan qisas aldılar.

O 44 gündə cəbhədən qulaqlarımıza top-tüfəng səsi gəldi, bomba partlayışlarını eşitdik, düşmənin mülki əhalimizə qarşı terrorunun da şahidi olduq. Hər zamankı kimi döyüş meydanında igidlərimizin qarşısından qorxaqcasına qaçan namərd düşmən son çarəni yenə də silahını mülki əhalimizə tuşlamaqda gördü. Amma rəşadətli Azərbaycan əsgəri bu terrorçulara bütün qanlı əməllərinin hesabını ödətdi.

İşğalçıların murdar ayağını tarixi torpaqlarımızdan qazıyıb atan ərənlərimiz çox çətinliklərdən keçdilər, minaların üzərindən adlamalı oldular, uca dağlardan, dərin dərələrdən keçdilər, sıldırımlara dırmaşdılar, Zəfər yolu ilə irəliləyib düşməni məhvə məhkum etdilər.

44 günlük Vətən müharibəsinin hər bir günündə Müzəffər Ali Baş Komandan İlham Əliyev ön səngərdən gələn qələbə müjdələrini Azərbaycan xalqına çatdırdı.

Qələbə şadyanalığını yaşayan xalqımız üzlərində gülüş, gözlərində sevinc gözyaşları, əllərdə ay-ulduzlu, üçrəngli bayraqlarımız Zəfər sevincini bölüşmək üçün küçələrə, meydanlara axışdı.

## Haqq nahaqqa qalib gəldi

Döyüş meydanlarında zəfər nəğmələri hayqıran igidlər bütün el-obamıza illərdir həsrətində olduğumuz Qələbə sevincini yaşatdılar. Öz dədə-baba torpaqlarından didərgin salınan yüz minlərlə vətəndaşımızın yurd həsrətini bitirdilər, Vətən torpaqlarımızı bütövləşdirdilər, haqqın nahaqqa qalib gəldiyini bütün dünyaya göstərdilər.

Bəli, heç zaman haqsızlıqla, ədalətsizliklə barışmayan Azərbaycan oğulları düşməndən çəkdiyimiz bütün zülmlərin intiqamını alaraq Vətən müharibəsinin hər günündə şanlı tarix yazdılar. Sinələrini Vətənə sipər edərək yurdumuzu yağı tapdağından azad etdilər. Bizə təqvimimizdəki al-qırmızı Zəfər gününü - Qarabağımızın mirvarisi Şuşanın qürurlu azadlıq gününü bəxş etdilər, hərb salnamələrimizin min illər sonra belə qürurla anılacaq şərəfli tarixini yazdılar.

Bu gün də igid əsgərlərimiz dəyanətlə, qətiyyətlə torpaqlarımızın keşiyindədirlər. Vətənimizin müdafiəsi üçün çarpışıb vuruşmağa, lazım gəlsə bu yolda canlarından keçməyə də hər an hazırdırlar.

Vətənpərvər Azərbaycan oğulları, gücünüzlə, qüvvətinizlə, qüdrətinizlə, biləyinizin haqqı ilə qazandığınız bu Qələbə ilə fəxr edirik!

Ulu ruhlu şəhidlərimiz, amalınızla, qorxmazlığınızla, şücaətinizlə, uca şəhid adınızla qürur duyuruq!

Bir ömürboyu sizi sayğıyla anacağıq, minnətdarlıqla yad edəcəyik!

Ruhunuz şad olsun!

***Vasif HƏSƏNOV,***
***BDU-nun Karyera və məzunlarla***
***əlaqə sektorunun müdiri***



2020-ci ilin 27 sentyabrı böyük Zəfərə gedən yolun başlanğıc nöqtəsi kimi tarixə yazıldı. Həmin gündən Vətən savaşının qələbə dolu əks-sədası eşidildi. Böyük qələbəmizə doğru ilk addımın atıldığı gün heç zaman unudulmayacaq. Qəhrəmanlıqları ilə dastana çevrilmiş Azərbaycan övladlarının Vətən savaşındakı şücaəti, əzmkarlığı nəsillərə örnək olacaq. Şəhidlərimizin əziz xatirəsi hər zaman anılacaq, onların igidlik hekayələri dillərdə dolaşacaq.

# Tarixə çevrilən "Anım günü" yürüşü

Xalqımız sentyabrın 27-də Ermənistan silahlılarının növbəti təxribatına cavab olaraq ordumuza hücum əmri verən və bununla regionda yeni bir reallıq yaradan Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, əsgər və zabitlərimizlə birgə Vətənə bəxş etdiyi tarixi Qələbə ilə daim qürur duyacaq.

Son bir neçə əsrlik tariximizdə buna bənzər zəfər olmayıb!

Prezident İlham Əliyev iki əsr ərzində yeganə ağır problemimiz olan Qarabağ münaqişəsini həll edə bildi. Yoluna qoyulması mümkün olmayan, hər dəfə yenidən alovlananda minlərlə insanın, ailənin faciəsi ilə nəticələnən, regionun bu günü və gələcəyi üçün ən böyük təhdid kimi qalan bu münaqişəni "dəmir yumruğ"un zərbəsi ilə cəmi 44 gündə həll etdi.

27 Sentyabr ölkəmizdə Anım günüdür! Bu, qürurun, fəxarətin iztirablara üstün gəldiyi, xalqımızın keçmişinə boylanaraq öz böyüklüyünü bütün əzəməti ilə dərk etdiyi gündür.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, bayrağımızı işğaldan azad olunan torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, eləcə də bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Azərbaycan Respublikası Prezidentinin 2 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Anım günü" təsis edilmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə ötən il Bakıda təşkil olunmuş möhtəşəm "Anım yürüşü"nün keçirilməsinin ildönümüdür. Düz bir il əvvəl səhər saatlarında Bakının əsas prospektlərindən olan Neftçilər prospektində yaşanan mənzərə bu görüntüləri izləyənləri riqqətə gətirmişdi.

Ali Baş Komandan və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ali hərbi məktəblərin gənc kursantları və hərbçilərimizlə birgə əllərində Vətən müharibəsi şəhidlərinin fotoları əks olunmuş plakatları qaldıraraq qətiyyətli addımlarla irəliləyirdilər. Yürüşdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Bakı qarnizonunda yerləşən hərbi hissələrin 3000 nəfərdən çox kursant və hərbi qulluqçusu iştirak edirdi. Hər şəhidimizin yerini onun fotosunu ucalara yüksəltmiş bir Azərbaycan övladı tutmuşdu. Yürüşün insanı duyğulandıran mənzərəsi, yaratdığı mənə yüksək təşkilatçılıqdan, hər detalın diqqətlə düşünüldüyündən xəbər verirdi. Azərbaycan bu "Anım günü" yürüşü ilə Vətən uğrunda qurban getmiş insanlara ehtiramın, onların müqəddəs xatirəsinin yad edilməsi anlarının da mükəmməl örnəyini yaratdı. Qürurun, güclü bir dövlətə aidlik duyğusunun, bu dövlətin Ali Baş Komandanından başlamış sıravi vətəndaşına qədər öz igid qəhrəmanlarına verdiyi dəyərin ifadəsi idi.

## Bir igidin yerinə min igid gəlir

İstənilən müharibə münaqişələrin həlli üçün sonuncu çarədir. Çünki bütün müharibələrdə itkilər, ölümlər, insan faciələri labüd olur. Bütün bunların qisası döyüş meydanında alınsa da, hər biri təkrarolunmaz olan ömürləri geri qaytarmaq, onların itkisinin qəlbimizdəki dərin yarasını ovutmaq mümkün deyil. Üstəlik, biz humanizm hissindən tamamilə məhrum, adi insani duyğulardan xali, müharibənin qayda-qanunları ilə bağlı heç bir normaya məhəl qoymayan vəhşixislətli azğın düşmənlə üz-üzə idik. Məlum idi ki, münaqişənin həlli üçün hərb yolundan başqa əlac qalmasa, hər iki tərəfdən xeyli itkilər olacaq. Məhz elə buna görə Azərbaycan illər boyu səbirlə, təmkinlə sülh danışıqlarına sadiq qaldı, məsələnin müharibəsiz, itkilərsiz həlli üçün bütün imkanları dəyərləndirdi. Düşmənin 2020-ci ilin yayında əsəbləri tarıma çəkən təxribatları daha hərbdən başqa heç bir yolun qalmadığını göstərdi. Şanlı ordumuz əks-hücuma keçərək torpaqlarımızı cəmi 44 günün içində işğaldan azad etdi. Ermənistan ordusu bu döyüşlərdə darmadağın edildi.

Yada salaq ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycandan 2907 nəfər şəhid olmuş, 7 nəfər itkin düşmüş, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində 94 mülki şəxsimiz həlak olmuş və onlara da şəhid statusu verilmişdi. Düşmənin hədəf aldığı Gəncə şəhərinin, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonlarının dinc sakinləri əzizlərini, evlərini itirsələr də, ən ağır günlərində Vətən uğrunda əzmkarlıq və birlik nümayiş etdirirdilər. Şəhidlərimizin qisasının döyüş meydanında alınmasını, torpaqlarımızın işğaldan azad olunmasını, illərdir Vətənin köksündə qövr edən bu yaranın birdəfəlik sağalmasını istəyirdilər.

Dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş igidlərimizin, itkin düşən hərbçilərimizin, eləcə də Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilmiş mülki əhalimizin hər birinin fotoları ilə edilən bu yürüş xalqımızın birliyinin daimi və sarsılmazlığının, Vətənə sevginin, şəhidlərimizə ehtiramın əbədiliyinin nümayişi idi.

Bu yürüş həm də onu göstərirdi ki, Azərbaycan xalqının Vətən uğrunda canını fəda etmiş hər igidinin yerinə minlər gəlirlər. Şəhadət zirvəsinə ucalmış qəhrəmanlarımızın cismani yoxluğu sıralarımızı əksiltmir ki, artırır, onların yaratdığı örnək, Azərbaycana sevgi nümunəsi bu Vətən üçün hər an mübarizəyə qalxan, fədakarlıq göstərməyə hazır olan minlərlə igid yetişdirir. Ötən il Anım günü münasibətilə xalqa müraciətində Azərbaycan Respublikasının Prezidenti dedi: "Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq...

Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib".

44 günlük Vətən müharibəsinin hər günü böyük bir tarix oldu!



## İki fotonun hekayəsi

Ali Baş Komandan bir il əvvəlki "Anım günü" yürüşündə şəhid Adil Asəm oğlu İbrahimlinin fotosu əks olunmuş plakatı aparırdı. Müdafiə Nazirliyinin hərbi hissəsinin zabiti, baş leytenant Adil İbrahimli 2020-ci il noyabrın 7-də Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı həlak olub. O, Şuşa istiqamətində aparılmış döyüş əməliyyatlarında xüsusi tapşırıqların yerinə yetirilməsində şəxsi igidlik göstərib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Adil İbrahimlini "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edib.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva isə yürüşdə şəhid Narin Teymur qızı Xalıqovanın fotosu əks olunmuş plakatla irəliləyirdi. Narin Xalıqova 2019-cu il dekabrın 17-də Gəncə şəhərində doğulub. Ailənin tək övladı olan Narin 5 illik həsrətin sonunda dünyaya göz açmışdı. O, 2020-ci il oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində anası Sevil Əsgərova, həmçinin yaxın qohumları Suliddin Əsgərov, Bəxtiyar Əsgərov, Nigar Əsgərova ilə birlikdə həlak oldu. Nazirlər Kabinetinin qərarına əsasən, Narinə də şəhid statusu verildi.

Yan-yana irəliləyən bu iki foto həm də ibrətamiz bir hekayəni nəql edirdi. Adil İbrahimli kimi igidlərimiz Vətən müharibəsində ona görə canlarını qurban verdilər ki, xalqımızın bir daha körpə Narinlər, müharibədən əvvəl ermənilərin bəşəri cinayətləri nəticəsində snayper gülləsi ilə qətlə yetirilmiş Zəhralar, Farizlər, Xocalıda öldürülən körpələr kimi itkiləri olmasın. Fidan ömürlü körpələrimizin ömrü yarıda qırılmasın. Azğın düşmən birdəfəlik məhv edilsin, ölümsaçan zəhərli nəfəsini Azərbaycandan çəksin. Bu yurdun körpələri, gələcək nəsillərimiz əzəli-əbədi yurdlarımızda xoşbəxt, qayğısız, sülh və əmin-amanlıq içində böyüyüb həyatlarını doya-doya yaşasınlar.

"Anım günü" yürüşü həmin gün Ali Baş Komandanın təməlini qoyduğu Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin inşa olunacağı əraziyə qədər davam etdi.

## Birlik mənzərəsi

Vətən müharibəsində qazandığımız qələbə həm də milli birliyimizin qələbəsi oldu, bizi həyatımızdakı 30 illik natamamlıq kompleksindən qurtardı. İllərlə ürəyimizdə gəzdirdiyimiz ağır yükdən xilas olduq. Ömrümüzdəki boşluq qələbə ruhu, nigaran yurdlarımıza qovuşmağın vüsalı ilə doldu. Bu müharibədə həyatlarını Azərbaycanın ərazi bütövlüyü, haqq-ədalət uğrunda qurban vermiş şəhidlərimiz milli ruhumuzu, qürurumuzu özümüzə qaytardı. Onların arasında Azərbaycanın bütün bölgələrinin, ölkəmizdə yaşayan xalqların nümayəndələrinin burada - şəhadət zirvəsində təmsil olunduğunu görərik. Milli yaddaşımızda qan qardaşı, insanların əhd bağlaması kimi bir inanc var. Nağıllarımızın, dastanlarımızın qəhrəmanları bəzən bu ayini yerinə yetirərək həmişə bir-birinə, ümumi ideallarına, addımladıqları birgə yola sadiq qalacaqlarına and içər və andlarına heç vaxt xilaf çıxmazdılar. Vətən müharibəsi zamanı da müxtəlif ailələrdən, evlərdən, obalardan olan şəhidlərimizin Azərbaycan torpaqlarına qarışan qanları ilə bu xalq bir-birinə daha da doğmalaşdı, birliyimiz möhkəmləndi, mətinləşdi.

"Anım günü" yürüşündə ucalara qaldırılan şəhid fotoları arasında müxtəlif xalqların təmsiçilərinin şəkilləri vardı. Həmin gün şəhidlərimizin əziz xatirəsi məscidlərdə olduğu kimi kilsələrdə, sinaqoqlarda, məbədlərdə də anılırdı, Tanrıya onların ruhuna müxtəlif dillərdə dualar oxunurdu. Bölgəmizdə və bütövlükdə dünyada əbədi sülhün bərqərar olması arzusu dilə gətirilirdi. Bununla bir daha göstərilirdi ki, Vətən müharibəsindəki qələbəmiz kimliyindən asılı olmayaraq bu torpaqları özünə doğma yurd bilən, dövlətçilik dəyərlərimizə hörmət bəsləyən və Azərbaycanın bütövlüyü, dəyərləri uğrunda vuruşmağa hər an hazır olan, eyni zamanda əbədi sülh istəyən, gələcək nəsillərin təhlükəsizliyini təmin etməyə özünü mənən borclu bilən bütün insanların zəfəridir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində xalqımızın belə bir milli qürur tarixini yazdı.

Vaxtilə işğal altında olan, düşmən tərəfindən viran edilən torpaqlarımızda indi yenidən həyat canlanır, insanlarımız dogma yurdlara qayıdırlar. Bu gün azad torpaqlarımızda üst-üstə hörülən hər kərpic, əkilən hər ağac, yaradılan hər abadlıq nişanəsi qanı bu torpaqlara qarışmış igidlərimizin xatirəsinə bir abidədir, onların əbədiyyət ömrünün rəmzləridir. Azərbaycan xalqı şəhidlərini heç zaman unutmayacaq, onlar qəlblərdə, yaddaşlarda, xatirələrdə hər zaman nur çöhrələri, sevgi, qürur, təbəssüm dolu baxışları ilə əbədi qalacaqlar.

Müzəffər ordumuzun şəhidlərin canı-qanı bahasına bu gün yazdığı tarix davam edir. Reallıq göstərir ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil ölkəmizin milli maraqlarının pozulmasına heç zaman yol verməz. Haqqımız olanın əlimizdən alınması ilə barışmaz. Azərbaycan Prezidentinin yetişdirdiyi gənclik Vətən müharibəsində misilsiz qəhrəmanlıq, şücaət göstərərək dünyanı heyrətə gətirdi. Anım günü bizə həm də bu həqiqəti xatırladır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Vətən gülsün deyə doğmalarını gözüyaşlı qoyan şəhid



2020-ci ilin 27 sentyabr sabahı bütün ölkə həyəcan içində idi. Həmin gün saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmuşdular. Azərbaycanın mülki əhalisi və hərbi qulluqçuları arasında şəhidlər və yaralılar vardı.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmin gün xalqa müraciətində əmin etdi ki, şəhidlərimizin qanı yerdə qalmayacaq: "Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nətcəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür".

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev qismən səfərbərlik elan etdi. Azərbaycanın minlərlə cəsur, vətənpərvər oğlu könüllü döyüşlərə getmək üçün hərbi komissarlıqlara müraciət etdilər. Onlardan biri də qüsursuz hərbi xidmət edib təqaüdə çıxan, ehtiyatda olan mayor Elnur Yaqub oğlu Haciyev idi.

## Hərbçi olmaq arzusu

Peşəkar, təcrübəli hərbçi ailəsi ilə vidalaşdı. Həyat yoldaşı Elnarə xanıma: "Mən gedirəm, anam və qızımız sənə əmanət", - dedi.

Mayor Elnur Hacıyev cəbhəyə inamla, böyük ümidlə yollandı. Həyat yoldaşını da əmin etdi: "Mən qələbə ilə qayıdacam". O, otuz ilə yaxın işğalda qalmış Vətən torpaqları azadlığa çıxsın, üzü gülsün deyə doğmalarını gözüyaşlı qoyub döyüşə yollandı. Gedərkən geri boylanıb həsrətlə evinə, qüssə ilə onu yola salan yaşlı anasına, xəstə bacısına, on bir yaşlı qızına, həyat yoldaşına baxdı.

Ailələrində üç uşağın ortancılı idi Elnur. 1979-cu il iyunun 12-də Ucar rayonunda dünyaya göz açmışdı. Bacısı Elnarə xanım Elnurla birlikdə keçirdikləri uşaqlıq illərini xatırlayır: "O, kiçik yaşlarından böyük-kiçik yeri bilən, qayğıkeş, canıyanan idi. Hazırcavabdı, deyibgülməyi sevirdi. Elnir olan yerdə darıxmaq mümkün deyildi. O, yalnız yaxşı qardaş deyildi, həm də gözəl dost idi. Bacım xəstələnmişdi. Onun dərdinə çarə olacağını bilsəydi, Elnur ona öz ömründən pay verərdi..."

1986-1996-cı illərdə Ucar rayon 5 saylı orta məktəbdə təhsil alan Elnur hərbçi olmağı uşaqlıq illərindən arzulayıb. 1997-ci ildə Ali Hərbi Dənizçilik Akademiyasına daxil olub. Akademiyanı 2002-ci ildə əla qiymətlərlə bitirdikdən sonra Qobustanda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb. 2006-cı ildə gənc zabitin yazılı raportunda da ifadə etdiyi arzusunu nəzərə alan komandanlıq onu hərbi qulluğunu davam etdirmək üçün Tovuzda yerləşən "N" saylı hərbi hissəyə göndərib. Elnur Hacıyev 2011-ci ilədək Tovuzda, sonra Ağdamda yerləşən hərbi hissədə qulluq edib. 2015-ci ildə komandanlığın əmrinə əsasən Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət göstərib. 2019-cu ildə Ağstafa rayonunda Kimya xidməti rəisi kimi fəaliyyətini davam etdirib. Qüsursuz hərbi xidmət edən mayor Elnur Hacıyev 2020-ci ilin fevralında təqaüdə çıxıb.

## "Mən zabitəm, əsgərimi döyüş meydanında qoyub geri çəkilmərəm"

Övlad dərdi çox ağırdır. Ancaq şəhid analarının bitib-tükənməyən qüssələrində bir qürur, iftixar da var. Şəhid mayor Elnur Hacıyevin anası Hicran xanım da kədərini, dərdini qürurla çəkir. Ana qəhrəman oğlunun əsl hərbçi, döyüşçü hünərini yada saldı: "Oğlum hələ müharibədən qabaq, hərbi qulluq etdiyi vaxtlar əsgərləri barədə danışmağı sevərdi. Elnur əsgərlərini öz övladı kimi istəyirdi. Onların qayğıları, problemləri ilə maraqlanar, əlindən gələn köməyi əsirgəməzdi. Elə əsgərləri də Elnuru özlərinə əziz dost, qardaş hesab edərdilər".

Həyat yoldaşı Elnarə xanım isə onunla bağlı başqa bir xatirə danışdı: "2011-ci ildə onun bir əsgərinin şəhid olduğunu bilirdim. Elnur şəhid olandan sonra həmin şəhid əsgərin valideynləri də başsağlığı vermək üçün bizə gəldilər. Onda bildik ki, bu illər ərzində Elnur mütəmadi olaraq o ailəyə baş çəkib, qayğısını əsirgəməyib. Bu barədə evdə bir dəfə də olsun danışmamışdı".

Həyat yoldaşı Elnurla keçən xoş günlərini xiffətlə yada saldı: "2008-ci il martın 23-də toyumuz olub. Bu illər ərzində Elnurun mənə söylədiyi bircə xoşagəlməz, acı sözü də xatirimdə qalmayıb. Biz çox xoşbəxt ailə idik... Yadımda qalanlar ancaq işıqlı, şirin xatirələrdir. Fəxr edirəm ki, Elnur indi tək ailəsinin deyil, bütöv bir millətin qəhrəmanıdır".

Bacısı Elnarə xanım dedi ki, Elnur doğmalarını heç vaxt darda qoymaq istəməzdi: "Cəbhəyə getdiyi ilk gündən imkan tapan kimi bizimlə əlaqə saxlayırdı. Ancaq döyüşlər barədə danışmırdı. Sonralar döyüş yoldaşlarından eşitdik ki, qardaşım Füzulidə, Cəbrayılda, Suqovuşanda, Hadrut istiqamətində gedən döyüşlərdə mərdliklə vuruşub".

O gün - 2020-ci ilin 17 oktyabrında Elnurun anası Hicran xanım özünə yer tapa bilmirdi. Oğlu ön cəbhədə olan bütün analar kimi gözü telefonda, qulağı səsdəydi. Gözlədiyi zəng günorta saatlarında gəldi. Hicran xanım oğluna çox narahat olduğumu söylədi: "Demə, həmin gün Hadrut uğrunda gedən döyüşlərdə Elnur ayağından və qarnından yaralanıbmış. Döyüş yoldaşları, əsgərləri çox xahiş etsələr də, dilə tutsalar da, geri çəkilib müalicə almağa razı olmayıb. Deyib ki, mən zabitəm, əsgərimi döyüş meydanında qoyub geri çəkilmərəm. Yarasını özü sarıyıb. Döyüşçü yoldaşları danışırlar ki, Suqovuşan uğrunda gedən döyüşlərdə Elnurun komandirlik etdiyi qrup mühasirəyə düşüb. Düşmənlə qeyri-bərabər döyüşdə Elnurgilin döyüş sursatı tükənmək üzrəymiş. Elnur əsgərlərinə bildirib ki, nə mövqedən geri çəkiləcək, nə də təslim olacağıq. Son gülləmizədək döyüşəcək, son məqamda başqa yolumuz qalmasa, canımıza qıyacaq, şəhid olacağıq. Son anda Xüsusi Təyinatlılar yetişib, Suqovuşanı azad ediblər. Elnurun dəstəsi də mühasirədən çıxıb".

Həmin gün Elnur bir də zəng etdi. Demə, bu onun son zəngi imiş… Anası ona tapşırıb: "Elnur, özünü qoru. Səni gözləyirik. Qızını ovuda bilmirik". Elnur anasını sakitləşdirməyə çalışıb: "Narahat olma, ana, torpaqlarımız azad olunmayınca, düşmənə can verməıəm", - deyib. Hicran ana xatırlayır: "Səsi çox ötkəm gəlirdi, kefi kök danışırdı. Yaralandığını da bizdən gizlətdi. Elə həmin gün 17 oktyabrda gündüz saat 4-də Hadrut uğrunda gedən döyüşlərdə oğlum qəhrəmancasına şəhid olub. Deyirlər ki, igid balam təkbaşına 65 erməni terrorçusunu məhv edib".

Döyüş komandiri Elnur Hacıyev şəhidlik zirvəsinə yüksəldikdən sonra "Vətənə xidmətlərə görə 3-cü dərəcəli" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunması" və "Füzulinin azad olunması" medalları ilə təltif edilib.

Elnur kimi qəhrəmanlar yurdu yaşatmaq üçün döyüş meydanlarına atıldılar, ölümün üzərinə yeridilər. Onlar canlarından keçdilər ki, yağı düşmən bir də bu Vətən torpaqlarını əsir, vətən övladlarını yurdsuz qoya bilməsinlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***




# Qələmi süngüyə çevirənlər

44 günlük savaşda əsrlərboyu yaşayacaq bir tarixə imza atdıq. İnsanlarımız Prezidentin ətrafında sıx birləşərək ön və arxa cəbhədə vətəndaşlıq mövqeyi nümayiş etdirdilər. Bu tarixi zəfər Azərbaycan xalqının heç vaxt yaddaşlarından silinməyəcək. Bu müqəddəs savaşda jurnalistlərimiz də iştirak etdilər, Vətənin çağırışına səs verərək özlərinin vətəndaşlıq borclarını yerinə yetirdilər.

Birinci Qarabağ və Vətən müharibəsində yüzlərlə jurnalist informasiya cəbhəsində vuruşub. Onların arasında xidməti vəzifələrini yerinə yetirərkən həlak olan jurnalistlər də var. Peşə fəaliyyətlərini yerinə yetirən zaman şəhid olan həmkarlarımızın adları Qarabağ zəfərinin qəhrəmanları sırasına qızıl hərflərlə həkk olunub. Bəziləri Birinci Qarabağ müharibəsi, bəziləri isə İkinci Qarabağ müharibəsi zamanı şəhid olublar. Məhz bunun nəticəsində də cəbhədəki kimi informasiya savaşında da qalib tərəf olduq. Ermənilər Birinci Qarabağ müharibəsindən fərqli olaraq, Vətən müharibəsində öz yalanları, uydurma faktları və hiylələri ilə dünyanı aldada bilmədilər. Bu müharibə jurnalistikamız üçün də bir sınaq oldu. Hamı bir nəfər kimi cəbhədən gələcək xəbərləri gözləyirdi. Azərbaycan jurnalistləri həqiqətləri dünyaya çatdırmaqla, səngərdəki əsgərlər qədər iş görüblər. Jurnalistlər xəbərləri əldə etməyin çətin olduğu bir vaxtda belə dünyanın müxtəlif media kanallarına məlumatlar ötürürdülər.

## Onların ruhları şaddır

Canını qurban verən neçə-neçə jurnalistin ömür yolu milli jurnalistikamızın şanlı səhifələrinə yazılıb. 1988-1994-cü illərdə Qarabağ müharibəsində 13 jurnalist erməni terrorçularının hücumuna məruz qalıb. Onlardan 9-u şəhid olub. Şəhid olan jurnalistlərdən 2-si rus, digərləri azərbaycanlılardır. Bu gün Qarabağ müharibəsində qəhrəmanlıqla şəhid olmuş Milli Qəhrəmanlar - Alı Mustafayev, Salatın Əsgərova, Fəxrəddin Şahbazov, Çingiz Mustafayev və Kazımağa Kazımov ilə fəxr edir, onların ruhu qarşısında baş əyirik. Onlar Azərbaycan xalqının haqq səsinin dünyaya çatdırılmasında bütün imkanlardan istifadə etmişdilər. Artıq 30 ildir gözlədiyimiz Qarabağ öz sahiblərinə qovuşub. İndi qəhrəman jurnalistlərimizin ruhları da şaddır.

## Vətən müharibəsinin şəhid jurnalistləri

İkinci Qarabağ müharibəsinin şəhidləri arasında media işçiləri Sirac Abışov və Məhərrəm İbrahimovun da adları var. 4 iyun 2021-ci ildə işğaldan azad edilmiş Kəlbəcərin Susuzluq kəndinə çəkiliş aparmağa gedən AzTV-nin operatoru Sirac Abışov və AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimov tank əleyhinə minaya düşərək şəhid olublar. Onlar düşmənin işğal dövründə törətdiyi vəhşilikləri dünyaya çatdırmaq üçün azad olunmuş ərazilərdə çəkilişlər aparır, çətin missiyanı uğurla icra edirdilər. Peşəkar jurnalist olaraq daim qaynar nöqtələrə, hadisələrin mərkəzində olmağa can atırdılar. Tarix yazan həmkarlarımız erməni məkrinin qurbanı oldular. Vəzifə borclarını ləyaqətlə yerinə yetirərkən şəhid olmuş jurnalistlər Prezident İlham Əliyevin imzaladığı sərəncamla 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif ediliblər. Bu, dövlət başçısının kütləvi informasiya vasitələrinə göstərdiyi xüsusi diqqətin göstəricisidir. Vətəni uğrunda canından keçənlər heç vaxt nə xalqımız, nə də dövlətimiz tərəfindən unudulmur.

## Ermənistan jurnalistləri də hədəf seçib

Düşmən ordusu dinc əhali və dövlət binaları ilə yanaşı, cəbhə bölgəsində fəaliyyət göstərən media nümayəndələrini də hədəfə alır. Media nümayəndələrinə qarşı hücumların görüntüləri kifayət qədər yayılsa da, beynəlxalq ictimaiyyət baş verənlərə heç bir münasibət bildirmədi. Bu təşkilatlar vəziyyətlə bağlı real və qərəzsiz mövqe göstərmək əvəzinə susqunluq nümayiş etdirirdilər. Xüsusi narahatlıq doğuran hallardan biri də odur ki, Ermənistan jurnalistləri və digər media mütəxəssislərini fəal hərbi əməliyyatların getdiyi ərazilərə gətirərkən, onları döyüşçülərdən aydın şəkildə ayırmaq üçün bilərəkdən lazımi tədbirlər görməyib. Müharibə vaxtı Ermənistan Müdafiə Nazirliyi jurnalistləri də silahlandırıb. Münaqişə baş vermiş ərazilərdə onların silahlandırılması, hətta jurnalistlərin öz texniki avadanlıqlarından silah kimi imitasiya etməsi beynəlxalq hüquqi qaydalara ziddir. Çünki bu birbaşa jurnalistləri silahlı hədəf halına çevirir və onların həyatı üçün təhlükə yaradır. Cenevrə Konvensiyasına əsasən silahlı münaqişə zonalarında işləyən jurnalistlər iki kateqoriyaya bölünürlər: hərbi müxbirlər və münaqişə zonasına ezam edilmiş jurnalistlər. Beynəlxalq humanitar hüququn əsaslarına görə münaqişə zonasında hər iki kateqoriyadan olan jurnalistlər mülki şəxs statusundadırlar.

## Qələmdən silaha sarılan jurnalistlər

Media işçiləri 44 günlük Vətən müharibəsində, cəbhə xəttində həm xəbər istehsalçısı kimi, həm də səfərbərlik proqramı çərçivəsində cəlb edilmiş döyüşçü qismində iştirak ediblər. Bu da o deməkdir ki, media təmsilçilərinin fəaliyyəti hər iki istiqamətdə uğurlu olub. Vətən müharibəsində 27 jurnalist döyüşüb, 1 nəfər şəhid olub, 2-si yaralanıb. Həqiqi hərbi xidmətdə olan ATV-nin keçmiş montajçı-əməkdaşı Davud Qurbanov oktyabrın 5-də şəhid olub.

Ordumuz ön cəbhədə, media nümayəndələri isə informasiya cəbhəsində vuruşurlar. Unutmayaq ki, informasiya müharibəsi hələ də bitməyib. Biz bu sahədə ölkə Prezidentinin ətrafında birləşməliyik. Tam əminliklə deyə bilərik ki, Azərbaycan bu gün informasiya müharibəsinin ön sıralarında yer alır.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***



# Ölümsüzlük yolçuları

Onu bütün Azərbaycan tanıyır. Onu Azərbaycan əsgərinin siması sananlar da var, ona Azərbaycan əsgərinin gülən üzü deyənlər də... O, 44 günlük Zəfər müharibəsinin qəhrəmanlıq simvollarından biri, ölümü ilə ölümsüzlük qazanandır. O, "XTQ-nin son silahı ölümdür. O silahı onlardan heç kim ala bilməz", - deyən ölümün üstünə məğrurcasına yeriyib 22 yaşındaykən xalqımızın qəhrəmanlıq tarixini yazanlardandır.



Kərimin doğum günü idi. Səhərin yenicə açılmasına baxmayaraq, göydən od ələnirdi. Alpout kəndinin mərkəzi küçəsində bir qələbəlik, bir izdiham var idi. İnsanlar kənd qəbiristanlığına, xalqımızın qəhrəman oğlu Kərim Əliyevin məzarını ziyarət etməyə axışırdılar.

Maşınımızı "Kərim bulağı"nın yanında saxlayıb su içmək istəyirik.

Qıvrımsaçlı bir oğlan uşağı qiymətli bir şey tapıbmış kimi üzünü bizə tutub:

-Əmi, siz də qəhrəman olmaq üçün Kərim bulağından su içirsiniz? Müəllimimiz deyir ki, kim Kərimin bulağından su içərsə, o da qəhrəman olar. Biz də hər gün dərsə gedəndə və dərsdən gələndə bu bulaqdan su içirik. Təkcə biz yox, yoldan keçənlər də maşınlarını saxlayıb bu bulaqdan su içirlər. Yəqin onlar da qəhrəman olmaq istəyirlər?

Sonra qəhrəmanın evinə gedirik. Atası, Birinci Qarabağ savaşının qəhrəman döyüşçüsü, Qarabağ qazisi Məhəmmədəli Əliyevlə söhbətləşirik:

- Kərim cənnətə gedən gündən küçə qapısını bağlamırıq. Sağ olsun xalqımızı, bizi tək qoymurlar. Hər gün evimiz insanlarla dolub-boşalır…

Məhəmmədəlinin mənalı, dərin çuxura düşmüş qəmli gözləri üzümə zillənir. Kirpiklərindən dənələnib süzülən gözyaşı yanağını isladır. Araya lal bir sükut çökür. Həyətdə də qəribə bir sakitlik var... Məhəmmədəli kişi əlinin arxası ilə sellənən gözyaşını silməyə çalışır.

- Yox, yox, ağlamıram. Qəhrəmanı ağlamazlar… oğlumla - Kərimimlə fəxr edirəm. Oğlum fərari olsaydı, döyüşməyib baş girrəsəydi, düşmən qabağından qaçsaydı, fərsiz övlad böyütdüyüm üçün ağlayardım, deyir. Mən özüm Qarabağ qazisiyəm. Haralarda döyüşməmişəm?! Şuşa… Laçın… Qubadlı, Göranboy, Tərtər istiqamətində gedən qanlı döyüşlərdən çıxmışam. Çox şükür, bizim edə bilmədiklərimizi gənclər etdilər. Mənim gedə bilmədiyim yolu Kərim getdi…

Evdə otaqların birində Kərimin ev-muzeyi yaradılıb. Burada qəhrəmana məxsus əşyalar, fotoşəkillər, əsgər forması, bir də ucaboylu, gül üzlü Kərimin səliqə-sahmanla düzəldilmiş cansız maketi var. Sanki bu dəqiqə dil açıb bizimlə danışacaq …

Kərimin anası İlhamə xanımla qarşılaşırıq. Atası Məhəmmədəli deyir ki, İlhamə xanım Kərim şəhid olan gündən bu otaqda, bu əşyalarla baş-başa qalıb daha çox tək olmaq, sonbeşiyi ilə dərdləşmək istəyir.

- Hə qardaş, mən ömrümün sonuna kimi bu otaqda Kərimimlə baş-başa qalacağam. Onun gül üzündən, səsindən doymadım. Heç gedəndə bağrıma basıb qoxusunu ürəyimə, içimə doyunca çəkmədim. Keşkə… "Ana təlimə gedirəm, tezliklə gələcəm", - dedi. Mən onun haqqında heç nə danışa bilmirəm. Hər yerdə gözüm Kərimimi gəzir. Elə bilirəm ki, indi qapı açılacaq, Kərim girəcək içəri…

Söhbəti atası davam etdirir:

- Müharibəyə getdiyini bizə bildirmədi. İsmayıllıda təlimdə idi. Vaxtaşırı evə gəlirdi. Sonuncu dəfə gələndə gecədən xeyli keçməsinə baxmayaraq, hiss etdim ki, Kərim yatmayıb. Düşüb həyətdə gəzir, eyvanda oturub tamaşa edir… Nə isə fikirləşirdi. Nə qədər etdim, bir söz demədi. Səhər gedəndə məni bağrına basıb bərk-bərk qucaqladı və "veteran, özünü qoru", - dedi. Dedim sən də özünü qoru, sən əsgərsən… Sentyabrın 27-də müharibənin başlaması xəbərini eşitdim, başa düşüdüm ki, Kərim niyə yatmırmış, nəyi fikirləşirmiş. Anası danışığımızı eşitməsin deyə bağa tərəf gedib Kərimə zəng vurdum. Döyüşdə idi… Mənə zarafatca dedi ki, "Ey, Qarabağ qəhrəmanı, qazi atam, özün müharibə görmüş kişisən. Müharibədir, haqqını halal eylə. Bu yolun gedişi olur, bəzən dönüşü olmur… Ya torpaqları azad edən qəhrəmanlardan olacam, ya da torpaq, vətən uğrunda namusla döyüşüb şəhid olacağam, üçrəngli bayrağa bükülüb gələcəyəm…"

Dedim ehtiyatlı ol. Evə gəldim, gördüm anası özündə deyil. Dedim nə olub, nə eşitmisən?

Söhbətə İlhamə xanım qoşulur:

- Səhər təzəcə açılmışdı. Kərimdən zəng gəldi. Bu vaxtlar Kərim zəng etməzdi. Amma kefi kök, şən idi. Silah səsi gəlirdi. Dedim ki, Kərim haradasan? O nə səs-küydür? Dedi ki, ana qorxma və məndən narahat olma. Qarabağdayam. Zəng etdim ki, səndən halallıq alam. Haqqını halal et. Əgər şəhid olsam, məni ağlama. Mərd ol, möhkəm ol. Şəhid olsam, bil ki, qorxaq kimi deyil, qəhrəman kimi şəhid olmuşam. Mənimlə bütün həyatın boyu fəxr edəcəksən. Dedim ki, Kərim, mən sizinlə həmişə iftixar duymuşam. Çalış ki, mənə bu acını yaşatmayasan…

Söhbət qəhrəmanlıq dastanımızın yaradıcılarından, qısa ömrü bir dastana sığmayan, xalqımızın qəhrəman oğlu Kərim Məhəmmədəli oğlu Əliyevdən gedir. Onun keçdiyi şərəfli yola gəlin birlikdə nəzər salaq.

Əliyev Kərim Məhəmmədəli oğlu 31 avqust 1998-ci ildə Ucar rayonunun Alpout kəndində anadan olub. 2015-ci ildə Alpout kənd orta məktəbini bitirib. Elə həmin il də ali məktəbə daxil olmaq üçün keçid balını toplayan Kərim Əliyev sonradan təhsil almaq fikrindən daşınaraq, Vətənə qulluq etmək üçün hərbi xidmətə yollanıb.

2016-cı ilin oktyabr ayından Dövlət Sərhəd Xidmətində qulluq edən Kərim Əliyev həmişə torpaqlarımızın ərazi bütövlüyünün bərpasını düşünürmüş.

2018-ci ildən Azərbaycan Ordusu sıralarında müddətdən artıq hərbi qulluqçu kimi xidmətə qəbul olunub ön cəbhəyə gedir. Kərim Əliyev 2019-cu ildə XTQ-nin (Xüsusi Təyinatlı Qüvvələr) kursunu müvəffəqiyyətlə başa vuraraq kəşfiyyatçı gizir kimi xidmətini davam etdirir.

Azərbaycan Ordusunun kiçik giziri olan Kərim Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərir. Kərim Əliyev 19 oktyabrda Xocavənd-Qubadlı istiqamətində gedən ağır döyüşlər zamanı qəhrəmancasına şəhid olur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Kərim Əliyev ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları, habelə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.



Orta məktəb müəllimi Afət Kərimova danışır:

- Qətiyyətlə deyə bilərəm ki, müəllim öz övladından başqa dərs dediyi şagirdin uğuruna hamıdan çox sevinə, kədərinə hamıdan çox üzülən insanlardandır. Bu gün iftixar hissi ilə, bir zamanlar qarşımda oturan, günəşgözlüm, nurüzlüm Kərim haqqında qürurla danışıram. Az qala bütün mötəbər məclislərdə, məktəbdə, sinifdə hər yerdə deyəm ki, mən də Kərimin müəllimiyəm. Mən ona nə isə öyrətmişəm demək istəmirəm. Bunun da özəl səbəbi var. Kərim kimilər öyrədilib qəhrəman olmurlar. Anadan qəhrəman doğulurlar. Kərim uşaqlıqdan, orta məktəb illərindən bir qəhrəman idi. Allah ona özündən böyük ürək, cəsarət, ən başlıcası da mərifət vermişdi. Kərimin döyüş yoldaşları, komandirləri, və ondan bizə yadigar qalan videogörüntüləri izlədikcə adamın ürəyi dağa dönür. Ölümü öldürən bir qəhrəman olub. Kərim qəhrəmanlıq tariximizi yaradanlardandır… Kərim çox vətənpərvər, qeyrətçəkən oğul idi. Bütün müəllimlər Kərim oxuduğu sinfə dərs deməyə həvəslə tələsirdilər. O olan yerdə gülüş vardı, sevgi vardı, həyat vardı. Çox həyata bağlı bir insan idi.

Rüstəm Məsimov, döyüşçü yoldaşı:

- Soruşsanız Kərim necə döyüşçü idi. Deyərəm ki, Kərim ürəklə döyüşən və lazım gəldiyi məqamda özünü fəda etməyi bacaran döyüşçü idi. Kərimlə bütün döyüşlərin iştirakçısı olmuşam. Sonuncu birgə döyüşümüz Xocavənd-Qubadlı istiqamətində gedirdi. Xocəvənddə "720" deyilən yüksəklik var idi. Bizə o yüksəkliyi götürmək əmr olunmuşdu. Ermənilər yüksək dağ zirvəsində mövqe tutmuşdular. Biz 17 oktyabrda həmin əraziyə yaxınlaşıb müşahidəyə başladıq. Düşmən sayca çox üstün idi. Biz XTQ-nin xüsusi kəşfiyyat bölüyünün mobil qrupu idik. Qrup halında irəliləyib dağətəyi zonada mövqelənmişdik. Buradan bütün istiqamətə yollar gedirdi. Dağlı-dərəli bir ərazi idi. Bizim qrup dağın ətəyində, çılpaq bir ərazidə mövqelənmişdi. Belə deyək ki, müşahidə aparırdıq. Düşmənin burada çox böyük canlı qüvvəsi və texnikası cəmlənmişdi. Hiss edirdik ki, düşmən də bizi hər tərəfdən müşahidə edir. Oktyabrın 17-də ermənilər döyüş yoldaşımızdan ikisini snayperlə vuraraq ağır yaraladılar. Arabir minaatanlardan da atəş açırdılar… Oktyabrın 19-da, axşam saat 6-da düşmən sayca az olduğumuzu biləndən sonra böyük bir qüvvə ilə üstümüzə hücuma keçdi. Göydən od ələnirdi. Barıt qoxusu, yaralıların səsi adamı dəhşətə gətirirdi. Biz bu döyüşdə ermənilərin böyük bir canlı qüvvəsini məhv edə bildik. Haradasa ərazidə 200-ə yaxın erməni meyiti qalmışdı. Bu döyüşdə Kərim qıçından ciddi yara aldı. Onun qıçını rezinlə bağlayıb səngərdə qalması, təxliyəni gözləməsi, əsas hücum qrupundan çıxarılması əmr olundu. Kərim səngərdə qalmaq istəmirdi, qəti surətdə etiraz edirdi. Hətta bildirdi ki, əgər ona döyüşməyə imkan verməsə öz silahıyla özünü qətlə yetirəcək.

Kərimə döyüş qabiliyyətində olmadığını anlatmağa çalışırdıq. O, özünü razılaşır kimi göstərdi. Hücumu davam etdirərək bir qədər irəliləmişdik ki, Kərimin bizə gəlib çatdığının, yaralı aslan kimi döyüşdüyünü gördük. Kərimdən niyə belə etdiyini soruşduqda "Sizi az qüvvə ilə buraxıb öz canımın hayına qala bilməzdim. Şəhid olacağıqsa hamımız birlikdə şəhid olacağıq", - dedi. Ermənilər bizi irəli buraxıb, daha böyük qüvvə ilə qrupumuzu mühasirəyə salmağa çalışırdılar. Kərim həm qolundan, həm də qıçından yaralanmışdı. Biz geriyə hərəkət etməyə çalışırdıq. Bu, qorxub geri çəkilmək deyildi. Məqsəd erməniləri ardımızca düzənlik, şumluq olan əraziyə çıxarmaq idi. Kərim yaralı olduğu üçün bizdən bir qədər kənarda mövqelənmişdi. Kərim bütün hərəkətləri ilə düşməni öz üzərinə çəkməyə çalışırdı ki, biz ərazidən uzaqlaşa bilək. Bu arada Kərimin yaxın dostu, silah qardaşı Elyar Vəliyev geri dönüb Kərimi də özü ilə çıxarmaq istədi. Bunu görən düşmən qumbaratanla Elyarı vurdu. Elyar Kərimə çata bilmədən şəhid oldu. Hiss olunurdu ki, Kərimin döyüş sursatı tükənir və o, bu səbəbdən aram-aram atəş açırdı. Ermənilər də bunu hiss etmişdilər. Kərimin gülləsi bitdikdən, tam sakitlik yarandıqdan sonra 10-dan artıq erməni onu əsir götürmək niyyəti ilə irəlilədi. Ermənilər yaxınlaşanda Kərim qumbaranı partladaraq həm onları öldürdü, həm də özü şəhid oldu… Bu döyüşdə Kərimlə birlikdə bizim cəngavər döyüşçülərimiz Elyar Vəliyev, Sübhan Cəbrayılov, Şəhriyar Quliyev, Tarzan Həşimov, Elton Qənbərli, Simair Qaflanov, Beyrək Fərzəliyev qəhrəmancasına şəhd oldular. İki gündən sonra biz daha böyük qüvvə ilə əks-hücuma keçib həmin ərazini düşməndən azad etdik. Düşmən iki gün öncə şəhid olub, nəşləri səngərdə qalmış qardaşlarımızın yerini bilməyək deyə üstünü torpaqla örtmüşdü. Mən Vətən uğrunda canlarını fəda etmiş qəhrəman döyüşçülərin basdırıldığı yeri dəqiqləşdirərək öz əllərimlə torpağı qazıb nəşlərini götürə bildim.

Kərim öz əməli, qəhrəmanlığı ilə bir nümunə yaratdı…

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Ağdamda şəhid ailəsinə fərdi ev tikilir





Ağdam Rayon İcra Hakimiyyəti tərəfindən rayonun Çəmənli kəndində Vətən müharibəsi şəhidi Qurbanov Emil Rafael oğlunun ailə üzvləri üçün tikiləcək fərdi yaşayış evinin təməlqoyma mərasimi keçirilib.



Mərasimdə şəhidin ailə üzvləri, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev, aparatın əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, Emil Qurbanov 2020-ci il oktyabrın 10-da Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Gəncə Dövlət Universitetində Anım günü ilə əlaqədar tədbir keçirilmişdir

Gəncə Dövlət Universitetində 27 Sentyabr - Anım Günü ilə əlaqədar tədbir keçirilmişdir.



Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin büstünü ziyarət etmiş, önünə gül dəstələri qoymuşlar. Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış qəhrəman oğullarımızın xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycanın Dövlət Himni səsləndirilmişdir.

Universitetin rektoru, professor Yusif Yusibov tədbiri giriş sözü ilə açaraq Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən danışmışdır. Qeyd etmişdir ki, iki il öncə sentyabrın 27-də işğalçı Ermənistanın Qarabağda növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu 44 günlük Zəfər yürüşü ilə ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Silahlı Qüvvələrimiz hər bir kənd, qəsəbə, şəhər, eləcə də strateji yüksəkliklərin düşməndən təmizlənməsi uğrunda rəşadətlə döyüşərək böyük tarixi nailiyyətə imza atdı. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi, ordumuzun cəsurluğu, qəhrəmanlığı nəticəsində Vətən müharibəsi zəfərlə başa çatdı. Bu tarixi Qələbə əbədiyaşar şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazanıldı və Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillərdəndir. İşğal altındakı ərazilərimiz düşməndən azad olunandan bir neçə gün sonra dövlət başçısı həmin ərazilərdə bayrağımızı ucaltdı və bəyan etdi ki, bundan sonra bu torpaqlarda biz yaşayacağıq, necə ki, əsrlərboyu babalarımız yaşayıb, biz yaşamışıq, xalqımız yaşayıb.

Rektor onu da vurğulamışdır ki, Vətən müharibəsində Gəncə Dövlət Universitetinin əməkdaşları da iştirak etdilər. Bu döyüşlərdə 16 nəfər universitet əməkdaşı şəhid oldu. Onlarca əməkdaş qazi statusu aldı. Universitet rəhbərliyi onların adlarını xatirələrdə yaşatmaq üçün xüsusi guşə yaratmışdır ki, tez-tez həmin guşə ziyarət olunur.

Sonra şəhid Yüksəl Əlizadənin anası, universitetin Leksika və ölkəşünaslıq kafedrasının müdiri, dosent Sevda Kazımova, Milli Məclisin deputatı Pərvin Kərimzadə, universitetin əməkdaşı, qazi Orxan Əliyev, Azərbaycan tarixi kafedrasının baş müəllimi Eldar Mehdiyev və universitetin humanitar məsələlər üzrə prorektoru, dosent Gülsüm Fətəliyeva çıxış edərək 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı uğurlardan, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasətindən söhbət açmış, hazırda işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən abadlıq və quruculuq işlərindən danışmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Şəhid ailələrinə və qazilərə hər zaman diqqət göstərilir

Samux Rayon İcra Hakimiyyətində "Şəhid ailələrinə və qazilərə qayğı dövlətin prioritet vəzifəsidir" movzusunda konfrans keçirilmişdir.



Torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra rayon icra hakimiyyətinin başçısı Alı Qocayev geniş məruzə ilə çıxış etmişdir. Məruzəçi qeyd etmişdir ki, dövlət başçısı İlham Əliyevin şəhid ailələri və qazilərlə bağlı qarşıya qoyduğu vəzifələr respublikamızın hər yerində olduğu kimi, Samux rayonunda da davamlı şəkildə həyata keçirilir. Onların mənzil-məişət şəraiinin yaxşılaşdırılması istiqamətində çoxsaylı tədbirlər görülür. Samux rayonunda qeydiyyatda olan 23 nəfər Vətən müharibəsi şəhidindən 15-nin ailəsi mənzillə təmin edilib. 23 nəfər işlə təmin olunub.

Sonra ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Rövşən Qurbanov çıxış edərək diqqətə çatdırmışdır ki, Samux rayonundan olan 21 Vətən müharibəsi iştirakçısına əlillik təyin edilmiş, əlilliyi müəyyən olunanlardan 15 nəfər Samux Rayon İcra Hakimiyyəti tərəfindən imtiyazlı mənzil növbəsinə götürülmüş, 8 nəfər mənzillə təmin edilmişdir. Əlilliyi müəyyən olunan 21 nəfərdən 8 nəfəri özünüməşğulluq proqramına cəlb olunaraq aktivlərlə təmin edilmiş, 10 nəfərin özünüməşğulluq proqramına qoşulmaları ilə bağlı müraciətləri qeydiyyata alınmışdır.

Konfransda o da diqqətə çatdırılmışdır ki, şəhid ailələri, müharibə iştirakçıları və oxşar kateqoriyadan olan imtiyazlı şəxslərlə daimi olaraq rayon icra hakimiyyətində və yaşadıqları ərazilərdə çoxsaylı görüşlər təşkil edilmiş, müraciətləri dinlənilmişdir. Şəhid ailələri, qazilər və imtiyazlı kateqoriyadan olan digər şəxslərlə təşkil edilmiş görüşlərdə onları narahat edən məsələlərin həlli rayon icra hakimiyyətinin səlahiyyətlərinə aid olduqda yerindəcə həll edilmiş və ya araşdırılaraq müvafiq köməklik göstərilmiş, sosial-məişət şəraitlərinin yaxşılaşdırılması məqsədilə əlavə dəstək olaraq ayrı-ayrı vaxtlarda maddi yardımlar olunmuşdur.

Şəhid ailələrinin və qazilərin də iştirak etdikləri konfransda görülən işlərin bundan sonra da davam etdiriləcəyi diqqətə çatdırılmışdır.

***"Azərbaycan"***

# Yurda sahiblik hissi ilə

Birinci Qarabağ müharibəsinin şəhidi Sahib Qadaşov Qax şəhərində 1973-cü il avqustun 1-də sadə, zəhmətkeş bir ailədə dünyaya göz açmışdı. Məktəb yaşı çatanda atası Cuma Qadaşov onu şəhərdəki rus məktəbinə yazdırmışdı. Sahib 7-ci sinfə kimi orada oxumuşdu.



Lakin futbola olan həvəsi onu rayondakı idman təmayüllü məktəbə gətirmişdi. 1991-ci ildə orta məktəbi bitirən Sahib hərbi komissarlığın xətti ilə Bişkek şəhərindəki hərbi məktəbə imtahan vermişdi. Lakin qəbul ola bilməyib rayona qayıtmışdı.

...Artıq erməni faşistləri torpaqlarımıza təcavüz edirdilər. Müharibə qığılcımları ətrafa yayılırdı. Şuşada özünümüdafiə batalyonları yaradılmışdı. Malıbəyli hadisələri isə Azərbaycanın vətənpərvər oğullarının böyük hiddətinə səbəb olmuşdu. Bu zaman on yeddi yaşı yenicə tamam olan Sahib də cəbhəyə can atır. Ailəsi nə qədər etiraz etsə də, onu inadından döndərə bilmir.

- Mən Bakıda işləyirdim. Sahib mənim yanıma gəldi. Malıbəyli hadisələri hər ikimizi hiddətləndirmişdi. Ailələrimizə xəbər vermədən Qarabağa yollandıq. Şuşa özünümüdafiə batalyonuna yazıldıq. Batalyonda uşaqların əksəriyyəti şuşalılar və kərkicahanlılar idi. Qaxdan mən, Sahib, Kamil və Etibar da bu batalyonda döyüşürdük. İlk döyüşümüz 1992-ci il yanvarın 11-də Şuşa ilə Xankəndi arasında yerləşən Kərkicahan kəndi uğrunda oldu. Sahib elə bu döyüşdə özünü əsl cəngavər kimi göstərdi. Baxmayaraq ki, hamımızdan kiçik idi. Hələ 18 yaşı tamam olmamışdı. Üç ay cəbhə yoldaşı kimi bir yerdə döyüşdük. Martın 31-də Kərkicahan uğrunda ağır döyüşlərin birində Sahib şəhid oldu. Sahib bu müharibədə Qaxın ilk şəhidi idi. Onun ölümü batalyondakı yoldaşlarını daha da hiddətləndirdi. Aprelin 2-də nəşini döyüş bölgəsindən götürə bildik. Çox təəssüf ki, Sahibi tez itirdik... Onun döyüş yolu çoxları üçün əsl hünər yolu oldu. Yaşasaydı, bəlkə Milli Qəhrəmanlardan biri olacaqdı. - Bu sözləri Əmircan kənd sakini, Sahiblə birlikdə Qarabağa yollanan Müşfiq Muxtarov söylədi.

Müşfiq Muxtarov, Kamil Məmmədov və Etibar Muradov da Şuşa batalyonunda döyüşən qaxlı gənclər idi. Onlar Şuşanın işğalına - 1992-ci il mayın 8-nə kimi Şuşa özünümüdafiə batalyonunda döyüşmüşlər.

Sahibin cəhbə yoldaşı Kamil Məmmədov söyləyir ki, Sahib çox gənc idi. Biz ondan 1-2 yaş böyük idik. Hamımız cəbhəyə könüllü getmişdik, Qarabağa - torpaqlarımızın müdafiəsinə. Amma Sahibin qəlbindəki Vətən sevgisi, intiqam hissi bir başqa idi. Mən düşünürdüm ki, o, əsl qəhrəmandır. Gözündə ölüm qorxusu yox idi. Həmişə deyərdi: "Erməni kimdir ki, bizə meydan oxuyur. Onlara qan udduracam". Biz bunu döyüş zamanı görürdük. Sahib Vətəni, milləti üçün ölməyi də bacaran oğullarımızdan idi.

Bu il şəhidliyinin 30 ili tamam olur. Şuşa özünümüdafiə batalyonunun sağ qalan döyüşçüləri dostlarının xatirəsini anmaq üçün onun doğulduğu şəhərə - Qaxa toplaşmışdılar. Nə az, nə çox, düz 30 nəfər idilər. Sahibin ata ocağına üz tutan batalyon üzvləri ən əvvəl Qax Şəhidlər xiyabanında Vətən uğrunda canından keçən qaxlı igidlərin, o cümlədən Sahib Qadaşovun məzarını ziyarət etdilər, ehtiramlarını bildirdilər. Sonra Sahibgilin küçəsində Şuşa özünümüdafiə batalyonunun üzvləri ilə rayon ictimaiyyəti birgə anım mərasimi keçirdilər. Mərasimdə çıxış edən Qax RİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Heydərova, keçmiş batalyon üzvləri, əslən kərkicahanlı Nazim Mirzəyev, Mürvət Əliyev (rota komandirinin müavini), Zaur Mirzəyev (Zaur bu gün Zəngilanda ərazilərin minadan təmizlənməsində iştirak edir), Rasim Mirzəyev və qaxlı Müşfiq Muxtarov Sahib haqqında xatirələrini danışdılar. Qeyd etdilər ki, torpaq uğrunda şəhid olanlar heç vaxt unudulmur. İllər keçsə də, onların adları ehtiramla çəkiləcək. Çünki bu gün torpaqlarımızın işğaldan azad edilməsində hər bir şəhidin payı var. İstər Birinci Qarabağ, istərsə də 44 günlük Vətən müharibəsində şəhid olan Azərbaycan oğulları ən böyük ehtirama, alqışa layiqdirlər. Onlar Vətəni, milləti üçün canlarından keçiblər.

Anım mərasimində şəhidimizin anası Zərifə Qadaşova ötən illər ərzində oğlunu yaddan çıxarmayan döyüş dostlarına minnətdarlığını bildirdi.

Zərifə ana ilə həmsöhbət olduq. Öyrəndik ki, bu ailədə iki qız və iki oğul böyüyüb. Sahib üçüncü övlad olub. Zərifə xanım onu da dedi ki, analar övladlarına fərq qoymaz. Amma övladlar fərqli olurlar. Sahib də bir başqa idi. Onda hələ körpəliyindən vardı Vətən sevgisi. Özünü dərk edəndən ermənilərin "Qarabağ sevdası" onu tamam dəyişmişdi. Məktəbi bitirən kimi getmişdi hərbi komissarlığa ki, onu əsgər aparsınlar. Elə bil nəyə isə tələsirdi. Dəfələrlə müraciət etsə də, onu hərbi xidmətə aparmadılar. Bizdən xəlvət getmişdi Qarabağa. Hərbi komissarlıqdan çağırış vərəqi alanda Sahib artıq cəbhədə idi. Oğul itirmək ağır dərddir. Lakin onun Vətən uğrunda şəhid olması təsellimiz olub. Bəlkə elə bu təsellidir məni yaşadan. Bu günə kimi kimsənin qapısını döyməmişəm. Sağ olsun dövlətimiz, Prezidentimiz. Bilirəm ki, tək mənim oğlum deyil, bütün şəhid oğullarımız həmişə ehtiramla yad olunacaqlar.

***Xavər ƏFƏNDİYEVA,***
***Qax rayonunda çıxan***
***"Şəlalə" qəzetinin redaktoru***

# Lənkəranda şəhid Mais Abbasovun doğulduğu evə xatirə lövhəsi vurulub

Lənkəran şəhərində I Qarabağ müharibəsinin şəhidi, Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı Mais Qurbanəli oğlu Abbasovun doğulduğu evin üzərinə vurulmuş xatirə lövhəsinin açılışı olub.




Mərasimdə yerli icra strukturlarının və ictimaiyyətin nümayəndələri, Qarabağ müharibəsinin veteranları, məktəblilər, şəhidin ailə üzvləri və yaxınları iştirak ediblər.

Əvvəlcə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov və şəhidin anası Zahirə Abbasova xatirə lövhəsinin üzərindəki örtüyü götürərək önünə gül-çiçək dəstələri düzüblər.

Daha sonra Dövlət himni səsləndirilib, şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Mərasimdə çıxış edən İcra başçısı Taleh Qaraşov bildirib ki, 44 günlük Vətən müharibəsindən sonra təkcə respublikamızın ərazi bütövlüyü bərpa olunmayıb, eyni zamanda Birinci Qarabağ müharibəsi zamanı canından keçmiş qəhrəman övladlarımızın da qisası alınıb.

Torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəman övladlarımızın valideynlərinə təşəkkür edən icra başçısı şəhid ailələrinə dövlət səviyyəsində həssaslıqla yanaşıldığını vurğulayıb: "Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəhid ailələrinin qayğı və problemlərinin, müraciətlərinin diqqət mərkəzində saxlanılmasına daim nəzarət edirlər".

Şəhid anası Zahirə Abbasova çıxışında oğlunun adının əbədiləşdirilməsi üçün göstərilən dəstəyə görə rayon rəhbərliyinə minnətdarlığını çatdırıb: "Biz şəhid valideynləri övladlarımızın dərdini qəlbimizdə yaşayırıq. İcra başçısımız Taleh Qaraşov isə şəhid dəfnlərində, yas mərasimlərində, anım günlərində, xatirə gecələrində hər bir şəhidin və onların ailələrinin ağrı-acısını yaşayır. Şəhid anası kimi bilirəm ki, bu necə çətindir, buna görə icra başçımıza minnətdaram".

Sonda şəhidin təhsil aldığı şəhər 1 nömrəli tam orta məktəbin şağirdlərinin ifasında vətənpərvərlik mövzusunda şeirlər ifa olunub.

Qeyd edək ki, Mais Abbasov 20 aprel 1974-cü ildə Lənkəran şəhərində anadan olub. 1982-1991-ci illərdə orta təhsil alıb. 1991-ci ildə Bakı Dövlət Universitetinin Fizika fakültəsinə qəbul olunub.

Subay olan Mais Abbasov 1997-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lənkəran şəhər üzrə şöbəsində qeydiyyatdan keçərək Azərbaycan Silahlı Qüvvələrinin sıralarına yazılıb. Cəbhə xəttində yerləşən hərbi hissələrdən birində xidmət edən M.Abbasov bir sıra hərbi əməliyyatlarda iştirak edib. Ali təhsil aldığına görə "baş leytenant" rütbəsinə, hərbi əməliyyatlarda fərqləndiyi üçün taqım komandiri vəzifəsinə yüksəlib.

22 sentyabr 1999-cu ildə M.Abbasov Tovuz rayonunun Əlibəyli kəndi istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

***Ağaddin BABAYEV,***
***"Lənkəran" qəzetinin***
***əməkdaşı***

# Yaralı hərbçi və ailəsi ziyarət edilib

Ermənistan silahlı qüvvələrinin sərhəddə törətdikləri təxribat nəticəsində yaralananlardan biri də Naftalan şəhər Qaşaltı Qaraqoyunlu kənd sakini, Azərbaycan Ordusunun hərbi qulluqçusu Yavər Qəribovdur.



Hərbçinin sağlamlıq durumunu öyrənmək məqsədilə Naftalan Şəhər İcra Hakimiyyətinin rəhbərləri onu müalicə aldığı xəstəxanada ziyarət etdikdən sonra hərbçinin ailəsində olmuşlar.

Yavərin özünü yaxşı hiss etdiyi və müalicə aldıqdan sonra yenidən Vətənin müdafiəsinə getmək istəməsi ailəsinə çatdırılıb. Söhbət zamanı müzəffər ordumuzun böyük şücaət göstərərək torpaqlarımızı işğaldan azad etməsindən danışan icra başçısı qeyd edib ki, regionun və dünyanın ən güclü ordularından birinə çevrilmiş şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə üzərinə qoyulmuş missiyanı bu gün də uğurla yerinə yetirir.

Yavər Qəribovun atası övladına, eləcə də digər hərbçilərimizə, yaralılarımıza, şəhid ailələrinə göstərilən qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

İcra başçısı hərbi qulluqçumuzun ailə üzvlərinin qayğıları ilə maraqlanıb, onların istəklərinin qısa müddət ərzində həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Qeyd edək ki, Yavərin babası Sadıx Süleymanov 1988-ci ildə öz tarixi torpaqlarından - Göyçə mahalından qaçqın düşənlərdəndir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2022-ci ilin oktyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumu | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Göyçay** | Göyçay, Ağdaş | Gənclər və idman naziri **Fərid Qayıbov** | **04** |
| 2. | **Neftçala** | Neftçala, Salyan | Kənd təsərrüfatı naziri **İnam Kərimov** | **07** |
| 3. | **Şəki** | Şəki, Qax | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri **Zaur Mikayılov** | **07** |
| 4. | **Lənkəran** | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar, Cəbrayıl | Rəqəmsal inkişaf və nəqliyyat naziri **Rəşad Nəbiyev** | **10** |
| 5. | **Salyan** | Salyan, Neftçala | "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru **Ruslan Əliyev** | **10** |
| 6. | **Gəncə** | Gəncə, Samux, Göygöl, Kəlbəcər | Baş prokuror **Kamran Əliyev** | **12** |
| 7. | **Mingəçevir** | Mingəçevir, Yevlax | "Azərsu" ASC-nin sədrinin səlahiyyətlərini icra edən **Köçərli Həsənov** | **12** |
| 8. | **Ağdaş** | Ağdaş, Göyçay, Kürdəmir, Ucar | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi **Arzu Rəhimov** | **13** |
| 9. | **Qəbələ** | Qəbələ, Oğuz, İsmayıllı, Ağdaş | Ali Məhkəmənin sədri **Ramiz Rzayev** | **14** |
| 10. | **Samux** | Samux, Göygöl | Əmək və əhalinin sosial müdafiəsi naziri **Sahil Babayev** | **14** |
| 11. | **Xızı** | Xızı, Siyəzən | Fövqəladə hallar naziri **Kəmaləddin Heydərov** | **14** |
| 12. | **Quba** | Quba, Qusar | Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri **Anar Quliyev** | **14** |
| 13. | **Ağdaş** | Ağdaş, Göyçay | "Azərişıq" ASC-nin sədri **Vüqar Əhmədov** | **14** |
| 14. | **Yevlax** | Yevlax, Mingəçevir, Ağdaş, Bərdə | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri **Mübariz Qurbanlı** | **19** |
| 15. | **Masallı** | Masallı, Cəlilabad, Yardımlı | Mədəniyyət naziri **Anar Kərimov** | **20** |
| 16. | **Lənkəran** | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı | Qida Təhlükəsizliyi Agentliyinin sədri **Qoşqar Təhməzli** | **20** |
| 17. | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | "Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən **İlham Mirzəliyev** | **20** |
| 18. | **Göyçay** | Göyçay, Ağdaş | Energetika naziri **Pərviz Şahbazov** | **21** |
| 19. | **Astara** | Astara, Lənkəran, Lerik | Dövlət Gömrük Komitəsi sədrinin vəzifəsini müvəqqəti icra edən **Şahin Bağırov** | **21** |
| 20. | **Tərtər** | Tərtər, Bərdə | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri **Saleh Məmmədov** | **21** |
| 21. | **Masallı** | Masallı, Yardımlı | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri **Zaur Əliyev** | **21** |
| 22. | **Bərdə** | Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Füzuli, Xocalı, Xocavənd, Şuşa | Elm və təhsil naziri **Emin Əmrullayev** | **27** |
| 23. | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri **Bahar Muradova** | **27** |
| 24. | **Bərdə** | Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Beyləqan, Füzuli, Goranboy, Naftalan, Xocavənd, Xocalı, Laçın, Şuşa | Daxili işlər naziri **Vilayət Eyvazov** | **28** |
| 25. | **Qobustan** | Qobustan, Şamaxı | Ekologiya və təbii sərvətlər naziri **Muxtar Babayev** | **28** |
| 26. | **Mingəçevir** | Mingəçevir, Yevlax, Ağdaş | Ədliyyə naziri **Fikrət Məmmədov** | **28** |
| 27. | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | İqtisadiyyat naziri **Mikayıl Cabbarov** | **28** |
| 28. | **Salyan** | Salyan, Neftçala | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri **Rövşən Rzayev** | **28** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə, saat 10:00-da başlayır.**

# Erməni hərbi birləşmələri tərəfindən basdırılmış minalar zərərsizləşdirilib







Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri azad edilmiş ərazilərimizin və təminat yollarının minalardan təmizlənməsi istiqamətində fəaliyyətlərini davam etdirirlər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aparılan minatəmizləmə fəaliyyəti nəticəsində sentyabrın 24-ü və 25-də Kəlbəcər rayonunun Alagöllər ərazisində və digər istiqamətlərdə 370 ədəd piyada əleyhinə "PMN-G" və 9 ədəd tank əleyhinə "TM-62" minası aşkar edilərək təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Azad edilmiş ərazilərimizdə mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.

# Ermənistan sülh danışıqlarını pozur

44 günlük Vətən müharibəsində sarsıdıcı zərbə alıb məğlubiyyətə uğrayan Ermənistan hökuməti bundan dərs alıb nəticə çıxarmaq əvəzinə revanşist hərəkətlərini davam etdirir.



Düşmən ölkənin bu gün sərgilədiyi davranış, hər vasitə ilə 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməkdən uzaq olması deməyə əsas verir. Bu ölkənin rəhbərliyinin əsas məqsədi havadarlarının vasitəsi ilə yenidən güc toplayıb revanş götürmək, məkrli niyyətlərini həyata keçirmək üçün vaxt qazanmaq olub. Görünən budur ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi bu gün sülh danışıqları adı ilə imitasiya edir, özünü sülh tərəfdarı kimi göstərərək beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır. Nikol Paşinyanın yenə bir əli telefonda, bir ayağı isə himayədarlarının qapısında qalıb. Yenə köhnə bayatılar dillərdə əzbər olub. "Öldürürlər", "ərazilərimizi işğal edirlər", "sülh danışıqlarını pozurlar", "Azərbaycan bizdən İrəvanı istəyir" kimi sərsəmləmələri gündəmə gətirirlər. Təəssüf ki, Paşinyanın sayıqlamalarına dəm tutanlar da var. Bəzi dövlətlər, erməni lobbisinin maliyyələşdirdiyi beynəlxalq təşkilatlar, o cümlədən sapı özümüzdən olan baltalar kölgəmizi döyəcləyirlər...

Özlərini sülh tərəfdarı göstərərək, əslində, Ermənistanı qızışdıran, eyni zamanda onlara siyasi dəstək verib, hərbi texnika, döyüş sursatı ilə silahlandıran bəzi dövlətlər nədənsə düşmən ordusunun ağır silahlarla sərhədlərimizdə cəmləşməsini, delimitasiya və demarkasiya olunmamış ərazilərdə hərbi istehkamlar tikmələrini görməzdən gəlirlər. İşğaldan azad olunmuş torpaqlarımızda bərpa işləri aparan dinc adamların mütəmadi olaraq atəşə tutulmasını bilib susurlar. Ərazilərimizin yenidən minalanmasına, minalanmış ərazilərin dəqiq xəritələrinin müxtəlif bəhanələrlə verilməməsinə adicə irad belə bildirmirlər. Bu azmış kimi, Azərbaycana siyasi təzyiqlər etməyə də cəhd göstərirlər.

Nədənsə bəzi qüvvələr unudurlar ki, Azərbaycan tərəfi imzaladığı üçtərəfli Bəyanatın bütün şərtlərini, bir qayda olaraq, qeyd-şərtsiz yerinə yetirib. Tərəflər arasında sərhədlərin delimitasiya və demarkasiya olunması üçün birgə komissiya yaradılsa da, Ermənistan bu prosesin sürətlənməsi, komissiyanın işə başlaması üçün müxtəlif bəhanələrlə hər cür maneə törədirlər. Azərbaycan tərəfi Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşasını başa çatdırıb təhvil versə də, Ermənistan tərəfi üçtərəfli Bəyanatın doqquzuncu bəndindən irəli gələn şərtləri yerinə yetirməkdən hələ ki inadla imtina edir.

Görünür, Ermənistan tərəfi müharibədə aldığı sarsıdıcı zərbədən hələ də nəticə çıxarmayıb və müharibə ocağını yenidən körükləyir. Sentyabrın 12-dən 13-nə keçən gecə sərhədlərimiz boyu Ermənistan hərbi birləşmələrinin törətdikləri təxribat da onların sülh danışıqlarını pozmaq, havadarlarından aldlqları silahları nümayiş etdirmək cəhdi idi. Bu cəhdin qarşısını rəşadətli Azərbaycan Ordusu yüksək peşəkarlıqla alıb düşmənə sarsıdıcı zərbə vurdu. Düşmən dərk etməlidir ki, ordumuzun qətiyyətli cavab əməliyyatı Ermənistanın yeni faciələrinin müqəddiməsidir. Unutmasınlar ki, problemin həllini yenidən hərbi müstəviyə keçirməyə cəhd edərlərsə, bunun nəticələri Ermənistan üçün daha sarsıdıcı olacaq. Ermənistan hərbi-siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, qarşılarında yüksək təlim görmüş, müasir silahlarla silahlanmış nizami Azərbaycan Ordusu var və bu ordu hər zaman düşmən təxribatının qarşısını almağa, torpaqlarımızı hər cür təcavüzdən qorumağa tam hazırdır. Ermənistan anlamalıdır ki, problemin yeganə həlli üçtərəfli Bəyanatın şərtlərini daha tez və qeyd-şərtsiz yerinə yetirməkdən keçir, bu, həm də onların xeyrinə olar. Yox, əgər Şərqi Zəngəzur dəhlizinin açılmasına mane olmaq niyyətinə düşüb, hiyləyə, təxribata əl atarsa, bunun cavabı Ermənistan üçün arzuolunmaz nəticə ilə bitə bilər.

İmzası qədər sözünün də keçərli olduğunu qətiyyətlə ifadə edən Prezident İlham Əliyev deyib: "Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də, zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq". Yaxşı olar ki, Ermənistanın hərbi-siyası rəhbərliyi məsələnin ciddiliyini nəzərə alıb dövlətini və xalqını yeni bəlalara sürükləməsin. Anlasınlar ki, bu gün sülh yoxsulluğun faciəvi girdabında çabalayan Ermənistana daha çox lazımdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Cəhənnəmə çevrilən Ermənistan

## Məğlub ölkə tarixinin ən acınacaqlı və utanc dövrünü yaşayır







Son iki il Ermənistan üçün sosial-iqtisadi, ictimai-siyasi müstəvidə vəziyyətin daha da gərginləşməsi, İkinci Qarabağ müharibəsində Azərbaycana məğlubiyyəti ilə xarakterizə olunur. 2020-ci il sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. İşğalçı Ermənistanın döyüş meydanında diz çökdürülməsi ilə 30 ilə yaxın zəbt edilmiş torpaqlarımız azad olundu.







İşğal siyasətinin və Azərbaycanın "dəmir yumruğ"unun nəticəsində Ermənistan tarixinin ən ağır, böhranlı və rüsvayçı dövrünü yaşamaqdadır. Bu böhrandan xilas yolu isə İrəvanın Azərbaycanla sülh müqaviləsini imzalamasından keçir.

2020-ci il sentyabrından etibarən bu günə kimi İrəvanda baş verənlərdən sonra ölkədə, demək olar ki, siyasi xaos hökm sürməkdədir. Əhalinin bir qismi hökumətin istefasını tələb edir. Bunu Ermənistanda minlərlə insanın iştirakı ilə keçirilən aksiyalardan da görmək olar. Amma iqtidar küçələrə hərbi və polis qüvvələri çıxararaq sələfləri kimi hakimiyyəti güc yolu ilə saxlamağa çalışır.

Ölkədə insan hüquqları sahəsində yaşanan problemlərin miqyası sürətlə genişlənməkdə, vəziyyət ifrat həddə pisləşməkdədir. Hakimiyyətin öz maraqlarını təmin etmək məqsədilə repressiv metodlardan daha çox istifadə etməsi etirazları bir qədər də artırıb. Amma iqtidar mənsubları hələ də buna əhəmiyyət verməyərək rəqib və təhlükə saydıqları qüvvələri ən sərt üsullarla neytrallışdırmağa çalışırlar. Ermənistanın "4rd.am" saytı yazır: "Ölkəmiz müharibədəki məğlubiyyət və sülh müqaviləsinin yubadılması fonunda cəhənnəmə çevrilib. Həm kəndlərdə, həm də şəhərlərdə əhalinin 98 faizi yoxsulluq içərisində yaşayır. Ölkə rəhbərliyində xalqı fəlakətə sürükləyən oğrular, fırıldaqçılar, əclaflar, satqınlar əyləşiblər. Bu, sadəcə, sözlər deyil".

Qeyd olunur ki, Ermənistanda polis və məhkəmələr təzyiq alətinə çevrilib. Onlar öz xalqına qarşı Stalin KQB-sindən daha qəddardırlar. Stalin insanları Yakutsk, Sibir, Altaya zorla sürgün edirdi. Amma keçmiş və indiki hakimiyyət insanları o həddə çatdırıb ki, artıq onlar əsir düşərgələrində əziyyət çəkən babalarının yerlərinə könüllü gedirlər.

Ümumiyyətlə, etiraz aksiyaları ətrafında baş verən proseslər insan haqlarının pozulması, məmur özbaşınalığı, qanunsuz həbslər, məhkəmələrin sifariş əsasında hökmlər çıxarması və bu qəbildən olan digər hallar indi Ermənistanı xarakterizə edən əsas hallardan sayılır. Beynəlxalq miqyasda müxtəlif təşkilatlar, insan hüquqlarının müdafiəsi ilə məşğul olan qurumlar bu xüsusda İrəvana dəfələrlə iradlar tutsalar da, reallıqda dəyişən heç nə yoxdur.

Azərbaycanın tarixi zəfəri ilə başa çatan müharibə ilə bağlı Ermənistanın məğlub ordusuna dair hər gün maraqlı faktlar ortaya çıxmaqdadır. Bu sahə üzrə araşdırmalar aparan erməni jurnalist Andranik Arşakyan bildirir ki, müharibənin başladığı ilk günlərdən erməni gənclər Qarabağa getməmək üçün ölkədən qaçmağa başlayıblar. Erməni jurnalist yazır ki, savaş müddətində hərbi komissarlıqlar orduya çağırışla bağlı ciddi çətinliklərlə üzləşiblər. Respublika çağırış komissiyasındakı mənbədən əldə etdiyimiz məxfi informasiyaya görə, müharibə vaxtı saxta sağlamlıq vəziyyətinə görə orduya getməyənlərin sayı artmaqla yanaşı, hərbi xidmətə getməmək üçün ölkədən qaçan gənclərin də sayı sürətlə çoxalmışdır. Hətta həmin ildən bu günə kimi orduda xidmətdən xilas olmaq üçün 2000 insan ölkəni tərk edib. Bununla yanaşı, valideynlər böyük məbləğdə pul verərək övladlarını hərbi xidmətdən yayındırıblar. Bütün bunlara səbəb isə kasıbların övladlarının Qarabağa göndərilməsi və orada ölməsi idi.

Ermənistan ordusunda qeydə alınan nizamnamədənkənar münasibətlər də valideynlərin orduya inamını tam sarsıdıb. Belə insidentlər zamanı xəsarət alan hərbi qulluqçuların valideynlərinin Ermənistan Müdafiə Nazirliyinə dəfələrlə müraciət etmələrinə baxmayaraq, hadisələrin qarşısını almaq mümkün olmur. Digər sahələr üzrə də Ermənistanda vəziyyət sürətlə pisləşir, ölkə fəlakətə yuvarlanır.

Ermənistanda vəziyyəti ağırlaşdıran daha bir məqam postmüharibə dönəmində sosial-iqtisadi vəziyyətin daha da pisləşməsidir. Əhalinin getdikcə dərinləşən sosial problemləri, işsizlik, xarici sərmayənin az olması, istehsalın yoxluğu Ermənistanda vəziyyəti daha da ağırlaşdırır. Hökumət tərəfindən xaricdən alınan borclarla elektrik enerjisi, su təminatı, həmçinin xidmət sahələrində vəziyyətin yaxşılaşacağı deyilsə də, reallıqda bunun əksi müşahidə olunur. Kommunal xidmətlər durmadan bahalaşır, digər sosial xərclər davamlı olaraq artır.

Erməni iqtisadçı Samvel Kasparyanın sözlərinə görə, məhz ağır sosial-iqtisadi durum üzündən, ümumiyyətlə, Ermənistana xarici sərmayələr qoyulmur. Ekspert vurğulayır ki, hazırda bu ölkəyə ancaq hakimiyyətdə güclü dayağı olanlar və elə hakimiyyətin öz nümayəndələri sərmayə yatırırlar. Erməni iqtisadçısı bildirir ki, investisiya ilə bağlı situasiya çox pisdir: "İnvestisiya məsələsində "kədərli" sözü çox yumşaq səslənir. Milli statistika xidmətinin məlumatı bu ilin birinci yarısının yekunları, sərmayə axını əvəzinə, ölkədən daha çox pul çıxarıldığı gerçəyini ortaya qoyub".

Ölkədən pul axınının artımını buradakı ümidsiz vəziyyətlə əlaqələndirən iqtisadçı vurğulayır ki, bunun bir səbəbi insanların öz əmlaklarını sataraq ölkəni tərk etməsidirsə, digər səbəbi onların öz kapitallarını daha təhlükəsiz mühitdə yatırım etmək istəməsidir. Ölkə əhalisinin yarıdan çoxu yoxsulluq həddində yaşayır. Burada orta aylıq əməkhaqqı çox aşağı səviyyədədir. Əvvəllər Ermənistanın mövcudluğu xarici yardımlardan asılı idisə, son dövrlər ölkə bundan da məhrum edilib.

Ümumiyyətlə, real mənzərə göstərir ki, müharibədəki məğlubiyyətdən sonra sülh müqaviləsinin imzalanmasının yubadılması Ermənistanda yaşanan tənəzzülün daha da sürətlənməsi ilə xarakterizə olunub və qarşıdakı dövrdə də bundan nəyə görəsə fərqlənməsi gözlənilmir. Aydın görünür ki, Ermənistan və onun xalqı işğal siyasətinin faciəsini yaşayır. İlham Əliyevin rəhbərliyi ilə güclü Azərbaycan dövlətinin müharibə və postmüharibə dönəmində Ermənistana verdiyi tarixi dərs bu ölkəni dərin fəlakətə sürükləyib.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

*Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 26 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Media Reyestrinin aparılması QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Media haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 73.6-cı maddəsinə uyğun olaraq hazırlanmışdır və Media Reyestrinin (bundan sonra - Reyestr) aparılması ilə əlaqədar hüquqi və təşkilati məsələləri tənzimləyir.

1.2. Reyestr Azərbaycan Respublikasının mülkiyyətidir və onun saxlanılması Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

1.3. Reyestrin formalaşdırılması, aparılması, digər dövlət qurumlarının informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyası, arxivləşdirilməsi və bu Qaydalarla tənzimlənməyən məsələlər Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" ilə tənzimlənir.

1.4. Fərdi məlumatların Reyestrdə toplanılması və işlənilməsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **reyestr** - Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (bundan sonra - Agentlik) tərəfindən idarə olunan, media subyektlərinə, o cümlədən onların redaksiyalarına, habelə jurnalistlərə dair məlumatları əks etdirən elektron sənədlər və ya sənədlər toplusundan (sənədləşdirilmiş informasiyadan) ibarət informasiya ehtiyatı;

2.1.2. **istifadəçi** - normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada Reyestrdən informasiya əldə etmək və ya informasiyadan istifadə hüququ verilmiş dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, media subyektləri, habelə digər hüquqi və fiziki şəxslər;

2.1.3. **iştirakçı** - Reyestrin informasiya proseslərində iştirak edən dövlət orqanları (qurumları);

2.1.4. **sahib** - normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada Reyestr üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, habelə Reyestrin aparılmasını təmin edən Agentlik;

2.1.5. **Media Reyestri şəhadətnaməsi** (bundan sonra - şəhadətnamə) - media subyektlərinə, o cümlədən onların redaksiyalarına dair məlumatların Reyestrə daxil edilməsini təsdiq edən sənəd;

2.1.6. **jurnalist vəsiqəsi** (bundan sonra - vəsiqə) - jurnalistlərə dair məlumatların Reyestrə daxil edilməsini təsdiq edən sənəd;

2.1.7. **elektron kabinet** - istifadəçinin Vahid Giriş Sistemi ("ASAN Login") ilə eyniləşdirilməklə, Reyestrə daxil olmasına və ondan istifadəsinə (özü barəsindəki məlumatlarla tanış olmasına, onları əldə etməsinə, həmin məlumatlarda olan hər hansı dəyişikliklə bağlı məlumat almasına, müraciətləri elektron formada göndərməsinə və xidmətlərdən istifadə etməsinə, ödənişlər həyata keçirməsinə və s.) imkan verən, həmçinin operatorla qarşılıqlı əlaqəni təmin edən xüsusi fərdi elektron səhifə.

2.2. Bu Qaydaların məqsədləri üçün istifadə olunan digər anlayışlar Qanunda nəzərdə tutulan mənaları ifadə edir.

2.3. Reyestrin sahibi eyni zamanda onun operatoru funksiyalarını həyata keçirir.

### 3. Reyestrin fəaliyyət prinsipləri

3.1. Reyestr Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın 2.1-ci bəndində qeyd edilən prinsiplər nəzərə alınmaqla, aşağıdakı prinsiplər əsasında formalaşdırılır:

3.1.1. **istifadə rahatlığı** - Reyestrdən istifadənin və məlumat mübadiləsinin əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

3.1.2. **fasiləsizlik** - Reyestrdə aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq fəaliyyətin fasiləsiz həyata keçirilməsi;

3.1.3. **operativlik** - Reyestrdə məlumatların yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı proseslərinin sürətli şəkildə həyata keçirilməsi;

3.1.4. **şəffaflıq** - Reyestrin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi imkanının mövcudluğu.

### 4. Reyestrin strukturu

4.1. Reyestrin strukturu aşağıdakı modullardan ibarətdir:

4.1.1. "elektron kabinet" modulu;

4.1.2. "müraciətlər" modulu;

4.1.3. "əməliyyatlar" modulu;

4.1.4. "istifadəçilər" modulu;

4.1.5. "məlumatlandırma" modulu;

4.1.6. "hesabatlar" modulu;

4.1.7. "digər sistemlərlə inteqrasiya" modulu;

4.1.8. "inzibatçılıq" modulu;

4.1.9. "ödəniş" modulu.

4.2. Reyestrin strukturuna daxil olan modullar vasitəsilə aşağıdakılar təmin edilir:

4.2.1. "elektron kabinet" modulu vasitəsilə tələb olunan məlumatların daxil edilməsi, reyestr məlumatlarında dəyişiklik edilməsi, ödənişlər barədə məlumatın olması, habelə bu Qaydalarda nəzərdə tutulan digər imkanların təmin edilməsi;

4.2.2. "müraciətlər" modulu vasitəsilə müraciətlərin qəbulu və aidiyyəti üzrə yönəldilməsi;

4.2.3. "əməliyyatlar" modulu vasitəsilə tələb olunan məlumatların daxil edilməsi, daxil edilən məlumatların yoxlanış üçün göndərilməsi və təsdiqlənməsi, təsdiqedici sənədin hazırlanması və göndərilməsi;

4.2.4. "istifadəçilər" modulu vasitəsilə Reyestrdə elektron kabinetin yaradılması, elektron kabinetin dövlət orqanları (qurumları) ilə əlaqələndirilməsi, istifadəçi hesabı üzrə səlahiyyətlərin müəyyənləşdirilməsi və əlaqəli digər əməliyyatların idarə edilməsi;

4.2.5. "məlumatlandırma" modulu vasitəsilə istifadəçilərə məlumat xarakterli elektron bildirişlərin göndərilməsi və göndərilən bildirişlərin qeydiyyatının aparılması;

4.2.6. "hesabatlar" modulu vasitəsilə müxtəlif parametrlərə görə hesabatların tərtib edilməsi;

4.2.7. "digər sistemlərlə inteqrasiya" modulu vasitəsilə Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) üzərindən digər informasiya sistemləri və ehtiyatları ilə inteqrasiya proseslərinin həyata keçirilməsi;

4.2.8. "inzibatçılıq" modulu vasitəsilə operatorun funksiyalarına uyğun olaraq əməkdaşlara səlahiyyətlərin verilməsi;

4.2.9. "ödəniş" modulu vasitəsilə elektron formada ("ASAN ödəniş" sisteminə keçid verilməklə) ödəniş proseslərinin həyata keçirilməsi.

### 5. Reyestrin texniki-texnoloji və funksional infrastrukturu

5.1. Reyestrin infrastrukturu texniki-texnoloji və funksional baxımdan aşağıdakı əsas komponentlərdən ibarətdir:

5.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

5.1.2. idarəetmə paneli;

5.1.3. ehtiyat mərkəzi;

5.1.4. arxiv mərkəzi;

5.1.5. test mühiti.

5.2. Proqram-texniki vasitələr və proqram təminatı nəzərdə tutulan xidmətlərin və informasiya mübadiləsinin həyata keçirilməsini, Reyestrdən istifadəni, onun fəaliyyətinin etibarlılığını, dayanıqlılığını və təhlükəsizliyini təmin edir.

5.3. İdarəetmə paneli Reyestrin məlumat bazasının formalaşdırılmasını və idarə olunmasını, o cümlədən həmin məlumat bazasından istifadəni təmin edir.

5.4. Ehtiyat mərkəzi Reyestrin fəaliyyətinin dayanıqlılığını və təhlükəsizliyini təmin etmək, habelə Reyestrdə formalaşdırılan, Reyestrə daxil edilən və Reyestrdən ötürülən məlumatların ehtiyat surətlərini saxlamaq məqsədilə yaradılır.

5.5. Arxiv mərkəzi Reyestrdə formalaşdırılan, Reyestrə daxil edilən və Reyestrdən ötürülən məlumatların arxiv nüsxəsinin saxlanılmasına, zərurət yarandıqda arxiv nüsxələrindən məlumatların bərpasına xidmət edir.

5.6. Reyestrdə aparılan dəyişikliklərin yoxlanılması test mühitində həyata keçirilir.

5.7. Reyestr daxil olan şəxslərin identikləşdirilməsi məqsədilə Vahid Giriş Sistemi ("ASAN Login") ilə təchiz edilir.

### 6. Reyestrin aparılması qaydaları

6.1. Reyestrin informasiya təminatı Reyestrə daxil edilmək üçün müraciət edən şəxslər, o cümlədən jurnalistlər və Azərbaycan Respublikasının Audiovizual Şurası tərəfindən məlumatların təqdim edilməsi, həmçinin EHİS vasitəsilə sorğu edilən məlumatların inteqrasiya olunması yolu ilə həyata keçirilir.

6.2. Reyestrə daxil edilmək üçün müraciət edən şəxslər, o cümlədən jurnalistlər tərəfindən məlumatlar təqdim edildiyi tarixdən 5 (beş) iş günü müddətində Reyestrin operatoru çatışmazlıqların olub-olmamasını yoxlayır və çatışmazlıqlar aşkar edilmədikdə Reyestrə daxil edir.

6.3. Təqdim edilmiş məlumatlarda imtinaya səbəb olmayan çatışmazlıqlar müəyyən edildikdə, müraciət edən şəxslərə, o cümlədən jurnalistlərə bu Qaydaların 6.2-ci bəndində nəzərdə tutulmuş müddətdən gec olmayaraq, çatışmazlıqlar qeyd edilməklə onların aradan qaldırılması barədə elektron qaydada bildiriş göndərilir. Çatışmazlıqlar həmin şəxslər tərəfindən 5 (beş) iş günü müddətində aradan qaldırılmalıdır.

6.4. Çatışmazlıqlar bu Qaydaların 6.3-cü bəndində qeyd edilən müddətdə aradan qaldırılmadıqda, Agentlik tərəfindən müraciət baxılmamış saxlanılır. Bu hal həmin şəxslərin yenidən müraciət etməsinə mane olmur.

6.5. Reyestrə daxil edilmək üçün müraciət etmiş şəxslərin Reyestrə daxil edilməsindən aşağıdakı hallarda imtina olunur:

6.5.1. Qanunun 26.1 - 26.5-ci və 26.8-ci maddələrində nəzərdə tutulmuş tələblərə (Qanunun 69.2-ci maddəsi nəzərə alınmaqla) uyğun olmadıqda;

6.5.2. fəaliyyəti davamlı olmadıqda (müraciət tarixinə qədər media sahəsində fəaliyyət göstərməmiş media subyektləri istisna olmaqla);

6.5.3. fəaliyyəti Qanunun 13.1-ci və 13.2-ci maddələrinin tələblərinə uyğun olmadıqda;

6.5.4. hüquqi şəxs olduqda hüquqi şəxslərin dövlət reyestrində qeydiyyata alınmış olmadıqda;

6.5.5. fiziki şəxs olduqda fərdi sahibkar kimi vergi uçotuna alınmış olmadıqda;

6.5.6. loqotipi (emblemi) Reyestrdə olan digər media subyektlərinin redaksiyalarının loqotipləri (emblemləri) ilə eyni və ya oxşar olduqda.

6.6. Reyestrə daxil edilmək üçün müraciət etmiş jurnalistlərin Reyestrə daxil edilməsindən aşağıdakı hallarda imtina olunur:

6.6.1. ali təhsili olmadıqda;

6.6.2. fəaliyyət qabiliyyətli olmadıqda;

6.6.3. ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edildikdə;

6.6.4. məhkumluğu ödənilmədikdə və ya götürülmədikdə;

6.6.5. media subyekti ilə əmək müqaviləsi olmadıqda (fərdi olaraq müəllif hüquqları əsasında işləyən jurnalistlərin azı bir media subyekti ilə mülki hüquqi müqaviləsi olmalıdır);

6.6.6. Reyestrə daxil edilməmiş media subyektində işlədikdə;

6.6.7. işlədiyi media subyekti davamlı fəaliyyət göstərmədikdə (müraciət tarixinə qədər fəaliyyət göstərməmiş media subyektləri istisna olmaqla);

6.6.8. fəaliyyəti Qanunun 13.1-ci və 13.2-ci maddələrinin tələblərinə uyğun olmadıqda;

6.6.9. işlədiyi çap mediası subyektinin fəaliyyətində yaranmış fasilə Qanunun 59.7-ci maddəsində nəzərdə tutulmuş müddətdən artıq olduqda;

6.6.10. jurnalistika sahəsi üzrə iş stajı 3 (üç) ildən az olduqda və ya elmi və pedaqoji təhsil müəssisələrində jurnalistika sahəsində 3 (üç) ildən az fəaliyyət göstərdikdə;

6.6.11. jurnalist kimi fəaliyyət göstərdiyi müddətdə peşə etikası (etik davranış) qaydalarına riayət etmədikdə;

6.6.12. fərdi sahibkar kimi vergi uçotuna alınmadan fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə işlədikdə.

6.7. Reyestrə daxil edilmək üçün müraciət etmiş şəxslərin, o cümlədən jurnalistlərin Reyestrə daxil edilməsindən imtina edildikdə, bu barədə Agentlik tərəfindən əsaslandırılmış qərar qəbul olunur və 5 (beş) iş günü müddətində elektron qaydada onlara göndərilir. Bu qərar həmin şəxslərin yenidən müraciətinə mane olmur.

6.8. Reyestrə daxil edilmiş məlumatlarda dəyişiklik edildikdə, dəyişiklik baş verdiyi tarixdən 14 (on dörd) iş günü müddətində bu məlumatlar müvafiq təsdiqedici sənədlərlə birlikdə elektron kabinet vasitəsilə Agentliyə təqdim olunur və aparılmış dəyişikliklərin yenidən Reyestrə daxil edilməsi bu Qaydaların müddəaları nəzərə alınmaqla həyata keçirilir.

6.9. Reyestrə daxil edilmiş media subyektlərinə və jurnalistlərə elektron informasiya ehtiyatı vasitəsilə müvafiq olaraq elektron sənəd formasında şəhadətnamə və vəsiqə verilir.

6.10. Şəhadətnamə Reyestrdə müvafiq qeydin edildiyi tarixdən müddətsiz olaraq, vəsiqə isə 3 (üç) il müddətinə verilir.

6.11. Şəhadətnamə və vəsiqələrə rəqəmlərin və (və ya) hərflərin kombinasiyasından ibarət unikal qeydiyyat nömrəsi verilir.

6.12. Vəsiqə Reyestrə daxil edilmiş jurnalistin müraciəti əsasında 3 (üç) iş günü müddətində kağız daşıyıcıda ona təqdim olunur.

6.13. Vəsiqədəki məlumatlar dəyişdikdə, məlumatların səhv olduğu aşkar edildikdə, vəsiqə yararsız hala düşdükdə və ya itirildikdə onun sahibinin müraciəti əsasında 3 (üç) iş günü müddətində yeni vəsiqə verilir.

6.14. Jurnalist vəsiqənin etibarlılıq müddəti bitdiyi gündən ən geci 3 (üç) iş günü müddətində həmin vəsiqəni Agentliyə təhvil verməklə vəsiqənin yenidən alınması üçün müraciət etmək hüququna malikdir.

6.15. Əmək müqaviləsinə xitam verilmiş jurnalist sonuncu iş günündə öz vəsiqəsini işəgötürənə (media subyektinə) təhvil verməli, media subyekti isə həmin vəsiqəni təhvil aldığı gündən ən geci 3 (üç) iş günü müddətində məhv edilməsi üçün Agentliyə təqdim etməlidir.

6.16. Fərdi olaraq müəllif hüquqları əsasında fəaliyyət göstərən jurnalistlər Reyestrdən çıxarıldığı gündən ən geci 3 (üç) iş günü müddətində vəsiqəni məhv edilməsi üçün Agentliyə verməlidirlər.

6.17. Reyestrə daxil edilmiş media subyektləri aşağıdakı hallarda Reyestrdən çıxarılırlar:

6.17.1. media subyektinin ərizəsi olduqda;

6.17.2. hüquqi şəxs olan media subyekti ləğv edildikdə;

6.17.3. məhkəmənin qərarı ilə media subyektinin fəaliyyətinə xitam verildikdə;

6.17.4. fiziki şəxs olan media subyekti öldükdə və ya qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə ölmüş və ya itkin düşmüş elan edildikdə;

6.17.5. Qanunun 26.1- 26.5-ci (Qanunun 69.2-ci maddəsi nəzərə alınmaqla) və 74.1.5-ci maddələrinin tələblərinə cavab vermədiyi aşkar edildikdə;

6.17.6. çap mediası subyekti tərəfindən Qanunun 59.7-ci maddəsinin, onlayn media subyekti (redaksiyaları) tərəfindən isə Qanunun 60.5-ci maddəsinin tələbləri pozulduqda;

6.17.7. Reyestrə daxil edilmiş çap mediası və ya onlayn media subyektinin reyestr məlumatlarında dəyişiklik edildikdə, dəyişiklik baş verdiyi tarixdən 14 (on dörd) iş günü müddətində bu məlumatlar müvafiq təsdiqedici sənədlərlə birlikdə Agentliyə təqdim edilmədikdə;

6.17.8. audiovizual media subyektinin lisenziyası ləğv edildikdə.

6.18. Qanunun 58.3-cü maddəsinə uyğun olaraq təqdim olunmuş məlumatlar əsasında audiovizual media subyektləri birbaşa Reyestrdən çıxarılır.

6.19. Reyestrə daxil edilmiş jurnalistlər aşağıdakı hallarda Reyestrdən çıxarılırlar:

6.19.1. jurnalistin ərizəsi olduqda;

6.19.2. Qanunun 74.2-ci maddəsinin tələblərinə cavab vermədiyi aşkar edildikdə;

6.19.3. ağır və xüsusilə ağır cinayətlərə görə məsuliyyətə cəlb edildikdə;

6.19.4. öldükdə və ya qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə ölmüş və ya itkin düşmüş elan edildikdə;

6.19.5. yayımladığı informasiyanın Qanunun 14-cü maddəsinin tələblərinə cavab verməməsi halları il ərzində 3 (üç) dəfə aşkar edildikdə;

6.19.6. işlədiyi media subyekti, yaxud fərdi olaraq müəllif hüquqları əsasında işlədiyi yeganə media subyekti Reyestrdən çıxarıldıqda;

6.19.7. fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə işləyən jurnalist vergi uçotundan çıxarıldıqda və ya sahibkarlıq fəaliyyəti dayandırıldıqda.

6.20. Bu Qaydaların 6.17-6.19-cu bəndlərində qeyd edilən hallarda Agentlik tərəfindən media subyektlərinin və jurnalistlərin Reyestrdən çıxarılması barədə əsaslandırılmış qərar qəbul olunur və bu barədə onun veb-saytında məlumat yerləşdirilir.

### 7. Reyestrə daxil edilən və ötürülən məlumatlar

7.1. Reyestrə daxil edilən, habelə EHİS vasitəsilə Reyestrə ötürülən məlumatlar aşağıdakılardır:

7.1.1. audiovizual media subyektinin və (və ya) onun redaksiyasının (redaksiyalarının) aşağıdakı məlumatları:

1. fiziki şəxs olan media subyektinin soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, vətəndaşlığı və daimi yaşadığı ölkə, məhkumluğunun olub-olmaması haqqında məlumat, VÖEN-i, loqotipi (emblemi), hüquqi və faktiki ünvanı, əlaqə məlumatları;

2. hüquqi şəxs olan media subyektinin və (və ya) onun redaksiyasının (redaksiyalarının) adı, loqotipi (emblemi), VÖEN-i, hüquqi və faktiki ünvanı, əlaqə məlumatları;

3. hüquqi şəxs olan media subyektinin təsisçisi (iştirakçısı), habelə media subyektinin təsisçisi olan hüquqi şəxsin birbaşa və ya dolayısılə iştirakçısı olan şəxslər (fiziki şəxs olduqda soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, vətəndaşlığı və daimi yaşadığı ölkə, məhkumluğunun olub-olmaması haqqında məlumat, hüquqi və faktiki ünvanı, əlaqə məlumatları, hüquqi şəxs olduqda adı, VÖEN-i, hüquqi və faktiki ünvanı, əlaqə məlumatları) haqqında məlumat;

4. idarəetmə orqanı rəhbərinin soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, yaşadığı yer, ali təhsili, məhkumluğunun olub-olmaması haqqında məlumat və əlaqə məlumatları;

5. məsul redaktorun soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, yaşadığı yer, əlaqə məlumatları;

6. media subyektində işləyən jurnalistlərin siyahısı (soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, yaşadığı yer, əlaqə məlumatları);

7. ərazi kateqoriyası;

8. janrı, yayım üsulu və növü;

9. lisenziyasının növü, nömrəsi və tarixi;

7.1.2. çap mediası subyektlərinin və (və ya) onun redaksiyasının (redaksiyalarının) aşağıdakı məlumatları:

1. bu Qaydaların 7.1.1-ci yarımbəndinin 1-7-ci abzaslarında nəzərdə tutulmuş məlumatlar;

2. çap mediası subyektinin dövriliyi və birdəfəlik tirajı, məzmunu haqqında məlumat (dini məzmunlu çap mediası subyekti təsis edildikdə, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəyi);

7.1.3. onlayn media subyektinin və (və ya) onun redaksiyasının (redaksiyalarının) aşağıdakı məlumatları:

1. bu Qaydaların 7.1.1-ci yarımbəndinin 1-6-cı abzaslarında nəzərdə tutulmuş məlumatlar;

2. domen adının sahibi fiziki şəxs olduqda soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, hüquqi və faktiki ünvanı, əlaqə məlumatları, hüquqi şəxs olduqda adı, VÖEN-i, hüquqi və faktiki ünvanı, əlaqə məlumatları;

3. dini məzmunlu onlayn media subyekti təsis edildikdə, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəyi;

7.1.4. informasiya agentliyinin və (və ya) onun redaksiyasının (redaksiyalarının) aşağıdakı məlumatları:

1. bu Qaydaların 7.1.1-ci yarımbəndinin 1-6-cı abzaslarında nəzərdə tutulmuş məlumatlar;

2. digər media subyektləri ilə informasiya verilməsi (əldə edilməsi) haqqında bağladığı müqavilələr barədə məlumatlar;

3. onlar tərəfindən kütləvi informasiyanın dərc olunma və (və ya) yayımlanma üsuluna uyğun audiovizual media redaksiyası olduqda, bu Qaydaların 7.1.1-ci yarımbəndinin 7-9-cu abzasları, çap mediası redaksiyası olduqda 7.1.1-ci yarımbəndinin 7-ci və 7.1.2-ci yarımbəndinin 2-ci abzasları, onlayn media redaksiyası olduqda isə 7.1.3-cü yarımbəndinin 2-ci və 3-cü abzaslarında nəzərdə tutulmuş məlumatlar;

7.1.5. jurnalistlərin aşağıdakı məlumatları:

1. jurnalistin soyadı, adı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, əlaqə məlumatları;

2. verilmiş jurnalist vəsiqəsi (o cümlədən olduğu halda əvvəllər verilmiş) haqqında məlumat (nömrəsi, verilmə tarixi, etibarlılıq müddətinin bitdiyi tarix);

3. jurnalistin əmək və ya mülki hüquqi müqaviləsi, habelə əmək fəaliyyəti haqqında ümumi məlumat;

4. fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə işləyən jurnalistin VÖEN-i;

5. jurnalistin ali təhsili haqqında məlumat;

6. jurnalistin məhkumluğunun olub-olmaması haqqında məlumat.

### 8. Reyestrə informasiya sistemlərinin inteqrasiyası və məlumat mübadiləsinin təşkili

8.1. Reyestr ilə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsi EHİS vasitəsilə real vaxt rejimində həyata keçirilir.

8.2. Reyestrə daxil ediləcək məlumatların ilkin mənbədən əldə olunmasını təmin etmək məqsədilə aşağıdakı dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatları və sistemləri Reyestrə inteqrasiya edilir:

8.2.1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

8.2.2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi;

8.2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

8.2.4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti;

8.2.5. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində İnnovasiyalar Mərkəzi;

8.2.6. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi.

8.3. Reyestrin digər dövlət informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyası, habelə bu Qaydaların 7.1-ci bəndində nəzərdə tutulan məlumatların mübadiləsinin təşkili bu Qaydalara və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın 4-cü hissəsinə uyğun olaraq həyata keçirilir.

8.4. Reyestr ilə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsinin real vaxt rejimində həyata keçirilməsi mümkün olmadıqda, məlumatların Reyestrə daxil edilməsi əl ilə həyata keçirilir.

### 9. Reyestrin sahibinin funksiyaları

9.1. Reyestrin sahibi aşağıdakı funksiyaları həyata keçirir:

9.1.1. Reyestrin fəaliyyətini normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

9.1.2. Reyestrin digər dövlət informasiya sistemləri və ehtiyatları ilə məlumat mübadiləsi üçün tədbirlər görmək;

9.1.3. Reyestrin iştirakçıları tərəfindən məlumatların Reyestrə tam və vaxtında daxil olunmasına nəzarət etmək;

9.1.4. istifadəçilərin və iştirakçıların yazılı, o cümlədən elektron müraciəti əsasında Reyestrdə saxlanılan məlumatlar üzərində dəyişikliklərin həyata keçirilməsini təmin etmək;

9.1.5. Reyestrin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarına, texniki xidmətinə, təmirinə və saxlanılmasına, tərtib olunmuş qrafik üzrə müvafiq profilaktik işlərin aparılmasına nəzarət etmək;

9.1.6. mərkəzi və ehtiyat avadanlıq komplekslərində hər hansı qəza (xəta) baş verdiyi və ya Reyestrin fəaliyyətində fasilə yarandığı halda Reyestrin iştirakçılarını bu barədə məlumatlandırmaq;

9.1.7. Reyestrdəki məlumatların aktuallığını, etibarlılığını, əlçatanlığını, tamlığını, konfidensiallığını, habelə onların ehtiyat surətlərinin saxlanılmasını və qorunmasını təmin etmək;

9.1.8. iştirakçıların Reyestrə giriş hüququnu müəyyən etmək və ya onların Reyestrə giriş imkanını ləğv etmək;

9.1.9. Reyestr üzrə statistik hesabatlar hazırlamaq və onları təhlil etmək;

9.1.10. məlumatlara qanunsuz müdaxilə faktlarının vaxtında aşkar edilməsi, qanunsuz müdaxilənin, məlumatların surətlərinin çıxarılmasının və (və ya) bu məlumatların onlarla işləməyə icazəsi olmayan şəxslərə ötürülməsinin qarşısının alınması, dəyişdirilmiş və ya məhv edilmiş məlumatların dərhal bərpası imkanının olmasını təmin etmək.

### 10. Reyestrin operatorunun funksiyaları

10.1. Operatorun funksiyaları aşağıdakılardır:

10.1.1. Reyestrin fəaliyyətinin təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

10.1.2. normativ-hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

10.1.3. Reyestrdə olan məlumatların mühafizəsi məqsədilə aşağıdakı tədbirləri həyata keçirmək:

1. məlumatlara icazəsiz girişin qarşısını almaq;

2. məlumatlara giriş qaydalarının pozulması ilə bağlı xəbərdarlıq etmək;

3. proqram-texniki vasitələrin fəaliyyətini poza biləcək təsirlərin qarşısını almaq;

4. icazəsiz giriş nəticəsində dəyişdirilmiş və ya məhv edilmiş məlumatların dərhal bərpası imkanını təmin etmək;

5. məlumatların mühafizə səviyyəsini müəyyən etmək;

6. məlumatlara giriş hüquqlarını müəyyən etmək;

7. sistem proqramlarının, tətbiqi proqramların və informasiya ehtiyatlarının mütəmadi yenilənən ehtiyatının saxlanılmasını təmin etmək;

10.1.4. Reyestrdə aparılan təmir və yenilənmə işləri haqqında istifadəçiləri və əlaqələndirici qurum olan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini əvvəlcədən məlumatlandırmaq;

10.1.5. Reyestrdə baş verən dayanmaları qısa vaxtda aradan qaldırmaq;

10.1.6. Reyestrin dövri olaraq tam monitorinqini həyata keçirmək;

10.1.7. Reyestrin əlçatanlığını və mobil cihazlara uyğunluğunu təmin etmək;

10.1.8. Reyestrdə baş verən xətaların qeydiyyatının aparılmasını və xəta baş verdikdə aidiyyəti əməkdaşların avtomatik məlumatlandırılmasını təmin etmək;

10.1.9. Reyestrin "Hökumət buludu"nda yerləşdirilməsini, aparılmasını və təkmilləşdirilməsini təmin etmək üçün "Hökumət buludu"nun operatoru ilə birlikdə zəruri tədbirlər görmək;

10.1.10. bu Qaydalardan və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"ndan irəli gələn digər funksiyaları həyata keçirmək.

### 11. Reyestrin iştirakçısının funksiyaları

11.1. Reyestrin iştirakçısının aşağıdakı funksiyaları vardır:

11.1.1. Reyestrin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

11.1.2. Reyestrin fəaliyyəti ilə bağlı aşkar olunmuş qüsur və çatışmazlıqlar (nasazlıqlar) barədə operatora məlumat vermək;

11.1.3. məlumatları dolğun şəkildə Reyestrə daxil etmək, bu məlumatların təhlükəsizliyinin təmini üçün zəruri tədbirlər görmək;

11.1.4. informasiyanın mühafizəsi üçün proqram təminatının tələblərinə riayət etmək;

11.1.5. operator tərəfindən informasiya sisteminə daxil edilən və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumat və sənədləri daim izləmək;

11.1.6. informasiya-kommunikasiya texnologiyalarından istifadə vərdişlərini və bacarıqlarını mütəmadi təkmilləşdirmək;

11.1.7. Reyestrin fəaliyyətini ləngidən, ona zərər vuran və ya onun fəaliyyətinin dayanmasına səbəb ola bilən hərəkətlərə yol verməmək;

11.1.8. Reyestrin istifadəçisi və ya iştirakçısı olmayan şəxslərə ondan istifadə etmək imkanı yaratmamaq;

11.1.9. Reyestrdən əldə olunan məlumatları digər şəxslərə verməmək və ya Reyestrdən kənar internet şəbəkəsi vasitəsilə göndərməmək.

### 12. Reyestrdən istifadə

12.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan dövlət orqanlarının (qurumlarının) Reyestrdən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın 4-cü hissəsinə uyğun olaraq Reyestrə inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

12.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan dövlət orqanlarının (qurumlarının) Reyestrdən istifadəsi Reyestrdə yaradılan elektron kabinet vasitəsilə təmin edilir. Bu halda dövlət orqanlarının (qurumlarının) möhür hüquqlu rəhbər şəxsi tərəfindən Reyestrdə qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxsləri identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetə daxil olaraq Reyestrdən istifadə edirlər.

12.3. Hüquqi və fiziki şəxslər internet informasiya ehtiyatı vasitəsilə Reyestrdəki açıq məlumatlarla tanış ola bilərlər.

12.4. Media subyektlərinin və jurnalistlərin siyahısı istisna olmaqla, Reyestrə daxil edilmiş digər məlumatlar ictimaiyyət üçün açıq deyildir.

12.5. Reyestrdə elektron sənədlərin təsdiqi və göndərilməsi elektron imzadan və ya qanunla müəyyənləşdirilmiş digər identifikasiya vasitələrindən istifadə edilməklə həyata keçirilir.

12.6. İstifadəçilər identikləşdirildikdən sonra elektron kabinetdə açıq sənədlərlə (məlumatlarla), habelə özlərinə aid sənədlərlə (məlumatlarla) tanış ola və onları çap edə bilərlər, habelə həmin sənədlərin (məlumatların) gücləndirilmiş elektron imza ilə imzalanmış elektron variantlarını əldə edə, elektron xidmətlərdən istifadə edə, ödənişlər və digər əməliyyatlar həyata keçirə bilərlər.

12.7. Reyestrdə vəsiqənin verilməsi və dəyişdirilməsi üçün ödənişlərin edilməsi "ASAN ödəniş" sistemi vasitəsilə (xidmət yerini tərk etmədən elektron qaydada) həyata keçirilir.

12.8. Operator istifadəçinin Reyestr məlumatlarına giriş hüquqlarını aşağıdakı hallarda məhdudlaşdırır:

12.8.1. Reyestrə qeyri-qanuni daxilolma və ya müdaxilə baş verdikdə;

bu Qaydalarla və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" ilə müəyyən edilmiş tələblər yerinə yetirilmədikdə.

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 30.09.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.



UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Maraq ifadə etməyə dəvət

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyi (BMT QAK) məcburi köçkünlərə yönəlik üç (3) əsas sahədə layihələr hazırlamaq üçün ölkədəki potensial QHT tərəfdaşlarını müəyyən etməkdə maraqlıdır. Maraqlanan təşkilatlar aşağıdakı üç sahədən biri üçün konseptual təklif təqdim etməlidirlər:

- **Gender bərabərliyinə və bu sahədə imkanların artırılmasına dəstək;**
- **İcma səfərbərliyinə dəstək;**
- **Partlayıcı vasitələrin riskləri ilə bağlı maarifləndirmə üçün məlumatlılıq səviyyəsinin artırılmasına dəstək.**

Birdən artıq sahə ilə maraqlanan QHT-lər ayrı-ayrı konseptual təkliflər təqdim etməlidirlər. Konseptual təklifinizin tələblərə uyğunluğu və necə təqdim edəcəyinizlə bağlı təfərrüatlar "Maraq ifadə etməyə dəvətlərin" hər birində ayrıca təsvir edilmişdir.

Ətraflı məlumat üçün lütfən bu sayta daxil olun:
**https://azerbaijan.un.org/en/200617-calls-expression-interest.**

Konseptual təklif digər təsdiqedici sənədlərlə birlikdə **cümə günü, 28 oktyabr 2022-ci il tarixdə, Bakı vaxtı ilə saat 17:00-a** qədər təqdim edilməlidir.



UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Calls for Expression of Interest

The Office of the United Nations High Commissioner for Refugees in Azerbaijan (UNHCR) is interested to identify potential NGO partners in the country to developed projects in three (3) key areas targeting internally displaced persons (IDPs). The interested organizations should submit a Concept note for one of the three areas:

- **Support to Gender equality and empowerment.**
- **Support for Community mobilization.**
- **Support for awareness raising for Explosive Ordinance Risk Education (EORE).**

NGOs interested in more than area need to submit separate Concept notes. Details on eligibility and how to submit your Concept note are described in each *Call for Expression of Interest* separately.

For details please visit **https://azerbaijan.un.org/en/200617-calls-expression-interest** website.

Concept note along with the other supporting documents should be submitted by **Friday, 28 October 2022 at 17:00 hours** Baku time.



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### "Dənizçi" MTK-nın 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binalarında uşaq bağçasının interyerinin 3D görüntülü (dizayn) layihəsinin hazırlanması xidmətinin satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 04 oktyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan reaktivlərin və laboratoriya sərfiyyat mallarının satın alınması məqsədilə açıq tender metodu tətbiq edilməklə keçirilmiş satınalma prosedurunun qalibi "Labservis LTD" MMC, "Spektr Med" MMC, "Azəri Med" QSC, "Fuad-Kimya Servis" MMC, "Besan" MMC müəyyən edilmişdir. "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi ilə "Labservis LTD" MMC, "Spektr Med" MMC, "Azəri Med" QSC, "Fuad-Kimya Servis" MMC, "Besan" MMC arasında 20.09.2022-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 21 sentyabr 2022-ci il tarixli qərarı ilə Hənifəyev Seymur Natiq oğluna sığorta agenti fəaliyyətinə verilmiş 23 iyul 2013-cü il tarixli, 000963 nömrəli lisenziya ləğv edilmişdir.

# İtaliyada yeni hökumət formalaşır

Son 80 ildə ölkədə ilk dəfə ifrat sağçılar parlament seçkilərində qələbə qazanıblar

İtaliyada keçirilən növbədənkənar ümumi seçkilərdə ifrat sağçılar qalib gəliblər. 45 yaşlı Corca Meloninin başçılıq etdiyi populist "İtaliya Qardaşları" Partiyası rəsmi rəqəmlərə əsasən səslərin dörddə birindən çoxunu toplayıb.




İfrat sağçıların seçkilərə birgə qatıldığı koalisiyaya gəlincə, onlar Matteo Salvininin "Liqa" və Silvio Berluskoninin "İrəli, Italiya" partiyaları ilə birlikdə 44,53 faiz səs qazanıblar.

Sol mərkəzçilərə isə təxminən 26,14 faiz seçici səs verib. Onların arasında ən çox səs qazanan (19,4 faiz) Enriko Lettanın Demokratik Partiyasıdır. Solçulara qoşulmayan populist "5Ulduz Hərəkatı" 15 faiz səs toplayıb.

Xatırladaq ki, ölkənin hazırkı baş naziri Mario Dragi iki ay öncə istefa ərizəsini Prezident Sercio Mattarellaya təqdim etmişdi. Dövlət başçısı isə 2023-cü ilin ilk aylarında planlaşdırılan ümumi seçkilərin bu il sentyabrın 25-də keçirilməsinə qərar vermişdi.

Hazırda Corca Meloni baş nazir postuna əsas namizəddir. Onun baş nazir seçilməsi İtaliya tarixində bir ilk olacaq. Meloni ölkənin ilk qadın baş naziri kimi tarixə düşəcək.

Partiya sədri qalibiyyət çıxışında bildirib ki, formalaşdıracağı yeni hökumət bütün italyanları birləşdirəcək: "Bizi bu milləti idarə etməyə çağırsalar, bunu bütün italyanlar üçün edəcəyik. Biz bunu insanları bir araya gətirmək, onları ayıran deyil, bir-birinə bağlayan telləri gücləndirmək məqsədi ilə edəcəyik". Meloni ölkəyə xəyanət etməyəcəklərini deyərək italyanların etimadını yenidən qazanmaq istədiyini, hər şeydən əvvəl partiyasının tarixini və çox qısa müddətdə bu qədər böyük dəstəyi necə qazandığını xatırladıb.

Son məlumata görə, demokratlar artıq öz məğlubiyyətlərini etiraf ediblər və gələcək parlamentdə əsas müxalifət qüvvəsinə çevriləcəklərinə söz veriblər.

Demokrat Partiyasının sədr müavini Debora Serraçiani bildirib ki, onlar ölkənin ikinci siyasi qüvvəsidirlər: "Buna görə də hesab edirik ki, güclü müxalifət yaratmalıyıq, həm də ona görə ki, bizim üzərimizə Avropa, habelə ən çətin sınaqlarla üzləşən ölkəmiz qarşısında böyük məsuliyyət düşür". Beləliklə, 45 yaşlı Meloni ölkədə ilk qadın baş nazir olmaqla yanaşı, 2008-ci ildən bəri seçki ilə vəzifəyə gələn ilk baş nazir olacaq. Çünki ölkədə son 10 ildə vəzifədə olan altı baş nazir seçkilərlə deyil, Prezident tərəfindən təyin edilib.

İtaliyada yeni Nazirlər Kabinetini İkinci Dünya müharibəsi dövründən bəri, yəni son 80 ildə ölkədə ilk dəfə olaraq seçkilərdə qalib gələn ifrat sağçılar formalaşdıracaqlar. Bu, İtaliyada son 30 ildə formalaşacaq 20-ci hökumət olacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***





## OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# Şəhidlərimiz dərin ehtiramla yad edilib

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 27 Sentyabr - Anım Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə qazilər, AİI-nin tələbələri və əməkdaşları iştirak ediblər.



Ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhlarının birdəqiqəlik ehtiram sükutu ilə yad edilməsi ilə başlayan mərasimdə Dövlət himni səsləndirilib. Daha sonra AİI-nin tələbəsi tərəfindən şəhidlərimizin əziz xatirəsinə Qurani-Kərimin tilavəti təqdim edilib. Şəhid övladlarının da iştirakı ilə hazırlanmış "Şəhid övladlarının zəfər sədası" adlı kompozisiya nümayiş etdirilib.

İnstitutun İlahiyyat fakültəsinin dekanı dosent Elnurə Əzizova açılış nitqi ilə çıxış edərək iştirakçıları salamlayıb. Dekan 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad etmiş torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edib. Daha sonra 44 günlük Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Dəyanət Məmmədov çıxış edərək torpaqlarımızın azadlığı uğrunda keçdikləri döyüş yolundan, qəhrəman oğullarımızın şücaətlərindən bəhs edib.

Vətən müharibəsi iştirakçısı baş gizir, kəşfiyyatçı Amil Əbilov və baş çavuş Ayaz Allahverdiyev çıxış edərək Azərbaycan tarixinin hər səhifəsində mübarizənin olduğunu, budəfəki Zəfər tariximizin isə fərqliliyini qeyd ediblər.

***"Azərbaycan"***

# Hakimlərə qarşı terrorçuluğa açıq çağırışlar edilməsində şübhəli şəxs müəyyən olunaraq həbs edilib

2018-ci il iyulun 10-da Gəncə şəhərində radikal diniyönümlü bir qrup şəxs tərəfindən ictimai asayişin pozulmasına yönələn zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi, müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməsi, iki polis zabitinin qəsdən öldürülməsi ilə müşayiət olunan kütləvi iğtişaşlar törədilməsi ilə bağlı cinayət işləri üzrə ədalət mühakiməsini həyata keçirmiş hakimlərin fotoşəkillərini müxtəlif sosial şəbəkələrdə paylaşmaqla, onlardan qisas alınaraq öldürülmələrinə çağırış edilməsi, eləcə də həmin faktla bağlı Azərbaycan Respublikası Ali Məhkəməsindən daxil olmuş məlumatla əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətində müvafiq araşdırmalar aparılıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-2-ci (Terrorçuluğa açıq çağırışlar) maddəsi ilə başlanılmış cinayət işi üzrə aparılmış kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində feysbuk sosial şəbəkəsində Gəncə şəhərində baş vermiş kütləvi iğtişaşlara görə hökm çıxarmış hakimlərin fotoşəkillərinin əks olunduğu paylaşımlarda onların gizlin şəraitdə öldürülmələrinə dair yazılar yerləşdirməklə ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyəti orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə cinayət işləri üzrə ədalət mühakiməsini həyata keçirmiş hakimlərin həyatına sui-qəsd etməyə açıq çağırışların xarici ölkə vətəndaşı Bayramov Mühəndis Alyoşa oğluna məxsus sosial şəbəkə profilindən edilməsi müəyyən olunmuş və onun barəsində axtarış elan edilib. Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən keçirilmiş tədbirlərlə Mühəndis Bayramov saxlanılaraq həbs edilib və barəsində aparılan cinayət işinin istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəməyə göndərilib.

Ölkədə ictimai təhlükəsizliyi təhdid edən, ədalət mühakiməsinə və dövlət orqanlarının fəaliyyətinə qarşı yönələn bu cür əməllərlə bağlı zəruri hüquqi tədbirlər bundan sonra da davamlı olaraq həyata keçiriləcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı

**ŞAMİL TALIBOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Məşhur Məmmədova əzizi

**KAMAN XƏLİLOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları

**ŞAMİL TALIBOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Səhrayə Mikayılovaya qardaşı

**SARVAN GÖYÜŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Mir Cəlal oğlu Paşayev professor

**ÇİNGİZ AZAD OĞLU ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Mir Cəlal oğlu Paşayev akademiyanın Mühasibat şöbəsinin rəisi - baş mühasib Svetlana Aleksandrovna Prokofyevaya oğlu

**İQOR VLADİMİROVİÇ PROKOFYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi akademiyanın Mühasibat şöbəsinin rəisi - baş mühasib Svetlana Aleksandrovna Prokofyevaya oğlu

**İQOR VLADİMİROVİÇ PROKOFYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Raul Tağıyevə atası

**ELŞƏN TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6566
Sifariş 2724
Qiyməti 40 qəpik